AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodik jurnal*

2024, 1 (42)

BAKI-2024

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 1 (42), 2024

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2020-ci ildən tarix və antropologiya elmi istiqamətləri üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir.*

## REDAKSİYA HEYƏTİ

**Tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov** *(baş redaktor)*
**Tarix elmləri doktoru, professor Abbas Seyidov** *(baş redaktorun müavini)*
**Tarix elmləri doktoru, professor İradə Hüseynova**
**Tarix elmləri doktoru, professor Anar İsgəndərov**
**Tarix elmləri doktoru, professor Oqtay Sultanov**
**Tarix elmləri doktoru, professor Xəqani Məmmədov**
**Tarix üzrə elmlər doktoru, professor Fəzail Vəliyev**
**Antropologiya üzrə elmlər doktoru, professor Əliağa Məmmədli**
**Tarix üzrə elmlər doktoru Eynulla Mədətli**
**Tarix üzrə elmlər doktoru, dosent Sevinc Əliyeva**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yasin Qaraməmmədli**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Ərəstun Mehdiyev**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Naibə Əhmədova** *(məsul katib)*

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2024, 1 (42), s.3-14

# XX ƏSRİN İKİNCİ YARISI VƏTƏN TARİXŞÜNASLIĞINDA İBTİDAİ CƏMİYYƏTDƏ ƏHALİ PROBLEMLƏRİNƏ DAİR TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ

**Aydın Məmmədov**
Bakı Dövlət Universiteti
aydin.mmmdov.67@ mail.ru

***Açar sözlər***: Azərbaycan tarixşünaslığı,əhali məksunlaşması, əhali artımı, ibtidai cəmiyyət, tarixi demoqrafiya.

*Azərbaycan tarixinin ən dərin kökləri ibtidai cəmiyyətə, daş dövrünə gedib çıxır. Əlverişli iqlimə, rəngarəng relyefə, təbii-coğrafi amillərə malik olan doğma Azərbaycanımızda ulu əcdadlarımızın hələ alt paleolit dövründən üzü bəri məskunlaşması üçün hər cür şərait olmuşdur. İbtidai icma dövrü bəşər tarixinin ən uzun sürən mərhələsidir. Məhz bu səbəbdəndir ki, bu dövr, onun xüsusiyyətləri dünyanın, o cümlədən Azərbaycanın bir çox tarixçiləri tərəfindən uzun illərdir ki, böyük bir maraqla araşdırılır. Sözügedən dövrdə əhalinin məskunlaşması, təbii və mexaniki artımı, ümumiyyətlə, nəsil artımına təsir edən obyektiv, subyektiv amillər hər zaman tarixi demoqrafiyanı araşdıran alimlərin diqqətini cəlb etmişdir.*

## ИСТОРИКО-ДЕМОГРАФИЧЕСКИЕ ВОПРОСЫ, СВЯЗАННЫЕ С ПРОБЛЕМАМИ НАСЕЛЕНИЯ В ПЕРВОБЫТНОМ ОБЩЕСТВЕ В ОТЕЧЕСТВЕННОЙ ИСТОРИОГРАФИИ ВТОРОЙ ПОЛОВИНЫ XX ВЕКА

**Айдын Мамедов**

***Ключевые слова:*** Азербайджанская историография, народонаселения, рост населения, первобытное общество, историческая демография.

*Глубочайшие корни истории Азербайджана уходят в первобытное общество - каменный век. В нашем родном Азербайджане с благоприятным климатом, колоритным рельефом, природными и географическими факторами были созданы все условия для поселения наших великих предков со времен нижнего палеолита. Период первобытного общества - самый продолжительный период в истории человечества. Именно поэтому этот период, его особенности на протяжении многих лет с большим интересом изучаются многими историками мира, в том числе и Азербайджана. В этот период*

*народонаселения, естественный и механический прирост, в целом объективные, субъективные факторы, влияющие на рост населения, всегда привлекали внимание ученых, изучающих историческую демографию.*

## HISTORICAL DEMOGRAPHIC ISSUESON POPULATION PROBLEMS IN PRIMITIVE SOCIETY IN DOMESTIC HISTORIOGRAPHY OF THE SECOND HALF OF THE XX CENTURY

**Aydin Mammadov**

***Keywords:*** Azerbaijani historiography, population settlement, population growth, primitive society, historical demography.

*The deepest roots of the history of Azerbaijan go back to the primitive society - the Stone Age. In our native Azerbaijan with a favorable climate, picturesque relief, natural and geographical factors, all conditions were created for the settlement of our great ancestors from the time of the Lower Paleolithic. The period of primitive society is the longest period in the history of mankind. That is why this period and its features have been studied with great interest by many historians of the world, including Azerbaijan, for many years. During this period of population settlement, natural and mechanical growth, in general, objective, subjective factors affecting population growth, have always attracted the attention of scientists studying historical demography.*

İnsan təbiətin ən böyük möcüzəsi olmaqla, onun ağuşunda milyon illər boyunca formalaşaraq, onun resursları hesabına yaşayaraq, nəsil artıraraq, eyni zamanda, onun özünə də təsir edərək bu günümüzə gəlib çatmışdır. Alimlərin son elmi araşdırmalarına görə, Yer kürəsinin yaşı 5 milyard ildir. Onun üstündə dünyaya gəlmiş, ayaq tutub yerimiş insanların yaşı isə, 2-3 milyon ildir. Hələ 1,5 milyon il əvvəl Qarabağ silsiləsinin cənub-şərq ətəklərində yerləşən Quruçay və Köndələnçayın vadiləri artıq əcdadlarımız tərəfindən məskunlaşdırılmışdır. Belə ki, bu yerlər istər məskunlaşma, istər nəsil artımı, istərsə də əmək alətlərinin hazırlanması üçün lazım olan materialların əldə olunması baxımından son dərəcə böyük imkanlara malik idi.Qeyd etmək lazımdır ki,ibtidai insanlar dünyanı bizdən tam fərqli bir şəkildə duyur, ətraf mühitin obyekt və hadisələrini özünəməxsus bir şəkildə qəbul edirdilər. Belə ki, onlar mahiyyətini dərk edə bilmədiklərinə görə hər şeydən ehtiyat edir, çəkinir, eyni zamanda hər bir hadisənin baş vermə səbəblərini öyrənməyə cəhd edirdilər. Digər tərəfdən, onlar məskunlaşmaq üçün təbii-coğrafi baxımdan əlverişli olan ərazilərə daha çox üstünlük verərək, məhz həmin yerləri yaşayış

yeri kimi seçirdilər: "İbtidai cəmiyyətdə insanların məskunlaşması artıq məskunlaşmış ərazilərdən yeni ərazilərə doğru, daha əlverişli həyat məkanı axtarmaq istəyinin təzahürü kimi min illər boyu davam etmişdir. Onlar üçün ətraf aləmdə mövcud olan hər şey sadə olduğu qədər mürəkkəb və müəmmalı idi. ...Təbii ki, ibtidai insanlar ilk növbədə əvvəllər yaşadıqları ərazilərin iqlimi ilə eyni, yaxud ona oxşar ərazilərdə məskunlaşmağa üstünlük vermişlər. İqlimin oxşarlığı ibtidai insanların yeni ərazilərdə ətraf aləmlə adaptasiyasını xeyli asanlaşdırırdı. Çünki, hər bir coğrafi zonallıqda ibtidai insanın yaşayışı üçün zəruri olan bitki və heyvanat aləminin formalaşmasına ilk növbədə iqlim və iqlimi yaradan coğrafi enlik təsir göstərir. O zaman ibtidai insanların daha yuxarı enliklərə, yəni şimala doğru hərəkətini və belə əraziləri məkunlaşdırmaq cəhdlərini bacardıqlarını yalnız bir şeylə – insanların təbiətlə artıq min illər boyu çarpışmasında əldə etdiyi nailiyyətlərlə, qazandıqları təcrübə ilə izah etmək olar" [12, s.38-39].

Azərbaycanın dünyaca məşhur olan tarixçi və arxeoloqu Məmmədəli Hüseynovun elmi yaradıcılığı bu baxımdan xüsusilə diqqəti cəlb edir. Qeyd etmək lazımdır ki, Azərbaycanda qədim daş dövrünün əsaslı şəkildə öyrənilməsi 1953-cü ildən başlanmışdır. Hətta, bu məqsədlə Azərbaycana daş dövrü üzrə görkəmli tədqiqatçı S.N.Zamyatin dəvət olunmuş, onun rəhbərliyi ilə Damcılı mağarasında tədqiqat işlərinə başlanılmışdır. İkinci paleolit ekspedisiyası 1956-cı ildə təşkil edilmiş, ibtidai cəmiyyətə dair çoxsaylı məksunlaşma düşərgələri aşkar edilmişdir. Bütün bu və ya digər problemlər 1968-ci ildə 18 yaşlı qıza məxsus alt çənə sümüyünü aşkar M.Hüseynovun 1973-cü ildə nəşr olunmuş "Uzaq daş dövrü" adlı əsərində geniş şəkildə işıqlandırılmışdır: "Paleolit ekspedisiyası Daşsalahlı, Damcılı, Azıx və Tağlar mağara düşərgələrini qazıb tədqiq etmişdir" [11, s.14].

Maraqlıdır ki, M.Hüseynov da ilk "Homo habilis"lərdən danışarkən: "Qazıntı nəticəsində aşkar edilmiş əmək alətlərindən və onların hazırlanmasının primitiv texnikasından görünür ki, Şell-Aşel dövründə istehsal qüvvələrinin səviyyəsi hələ çox aşağı olmuşdur. Bununla yanaşı, bir düşərgədə həyat sürən insanların dəstələri böyük olmamışdır. Qazıb üzə çıxardığımız düşərgənin sahəsi 200 m2dən çox deyildir. Belə kiçik sahədə yaşayanların sayı da 40-50 nəfərdən çox ola bilməzdi. Onlar yeməli həşəratların, bitkilərin, istehsal üçün xammalın toplanması kimi işləri birlikdə, kollektiv surətdə görürdülər" – deyə, yazmışdır. Müəllifin fikrincə, Azıx adamı dünyada ən qədim tapıntılardan biridir: "Azıx adamının dövrünə aid tapıntılar dünyanın üç-dörd nöqtəsində aşkar edilmişdir. ...Azıx mağarasının lap alt təbəqələrindən birində aşkar edilmiş daş məmulat öz hazırlanma texnikasına və formasına görə şell-aşel dövrünü xarakterizə edən tapıntılardandır [11, s.20-23]. M.Hüseynov haqlı olaraq Vətənimizdə ulu əcdadlarımızın artıq şell-aşel dövründə geniş şəkildə

məskunlaşması qənaətinə gəlir: “Bütün bu amillər ilk insanların Azərbaycan ərazisində hələ şell-aşel dövründə yayılmasını göstərir” [11, s.23].
Azərbaycan ərazisində insanların bəşər tarixinin ən qədim dövrülərində məskunlaşması konsepsiyası M.Hüseynovun 1970-80-ci illərdə nəşr olunmuş “Azərbaycan arxeologiyası (daş dövrü)”, “Azərbaycanın qədim paleolit dövrü”, “Azərbaycanda paleolit” və d. qiymətli əsərlərində geniş şəkildə öz əksini tapmışdır (Гусейнов М.М. Археология Азербайджана (каменный век). Баку, АГУ, 1975, 162 с; Гусейнов М.М. Древний палеолит Азербайджана: культура Куручай и этапы её развития: 1,500,000-70 тысяч лет назад. Баку, Элм, 1985, 71 с; Гусейнов М.М. Палеолит Азербайджана (в соавторстве с А.К. Джафаровым). Баку, Элм, 1986, 17 с). Alt paleolit dövründə ibtidai insan sürüləri, yaxud ulu icma şəklində yaşayan qədim əcdadlarımızın demoqrafik artımında tədqiqatçıların fikrincə bioloji qanunauyğunluqlar heç də az rol oynamamışdır. İbtidai icma quruluşu dövründə doğumun səviyyəsini aşağı salan ciddi səbəblərdən biri də yetkinlik yaşına çatmayan gənc qızların vaxtından xeyli əvvəl, özlərindən yaşca böyük kişilərlə münasibətə girmələri idi. Məhz bu amil qızların vaxtından xeyli əvvəl qocalmalarına, uşaq doğma qabiliyyətlərinin aşağı səviyyəyə enmələrinə səbəb olur. Adətən qadınların uşaq doğmaq qabiliyyəti dedikdə sırf təbii doğum yolu ilə dünyaya gələn uşaqların artım səviyyəsi başa düşülür. Digər tərəfdən qadınların uşaq doğmaq qabiliyyəti dedikdə, həmçinin onların dünyaya uşaq gətirə bilmək üçün malik olduqları potensial imkanlar da nəzərdə tutulur. Sözügedən problemə ibtidai icma quruluşu dövrünün malik olduğu spesifik xüsusiyyətlər baxımından yanaşıldıqda istər yığıcılıq, istər ovçuluq, istərsə də neolit dövründən başlayaraq əkinçiliklə də məşğul olan qadınların da kişilər kimi xeyli enerji sərf etmələri səbəbindən hamilə qalmaq və uşaq doğmaq üçün çox az qüvvəyə malik olmalarının şahidi oluruq. Qeyd etmək lazımdır ki, ibtidai insanların nəsil artımı prosesində ətdən geniş istifadə etmələri böyük əhəmiyyət kəsb etmişdir. Azərbaycanın görkəmli arxeoloq alimi M.Hüseynov ibtidai insanların ətdən çox istifadə etməsindən bəhs edərkən yazırdı: “Azıx mağarasının aşağı təbəqələrindən daş alətlərlə birlikdə, eyni yerdən külli miqdarda – 30 növdən çox heyvanın daşlaşmış sümük qalıqları aşkar edilmişdir. Sümüklər, əsasən, mağara ayılarına, nəhəng marallara və s. aiddir. Belə nəhəng heyvanların ovlanması göstərir ki, mağaranın sakinləri ətdən çox istifadə etmişlər” [12, s.30-31].

Məhz ətdən istifadə ibtidai insanların üzücü əmək prosesində itirdikləri enerjinin müəyyən qədər bərpa etməyə kömək edirdi. Məhz uğurlu ov, kifayət qədər ərzaq ehtiyatının əldə edilməsi nikah münasibətləri (burada nikah şərti olaraq iki əks cinsin yaxınlığı anlamını ehtiva edir) üçün zəmin yaradırdı. Lakin əmək alətlərinin aşağı inkişaf səviyyəsində olduğu ibtidai icma quruluşu dövründə insanlar heç də həmişə uğurlu ov, yaxud

bu və ya digər qida məhsullarını asan və rahat əldə edə bilmirdilər. Məhz bu səbəbdən də; 1) ulu icmada, sonralar isə qəbilə icmasında hamı işləməli idi, heç kəs başqasının hesabına dolana bilməzdi. 2) İcmada əhalinin mümkün olan normadan, yaxud zəruri bir həddən artıq artımından söhbət belə gedə bilməzdi. Təbii ki, burada zəruri hədd dedikdə ilk növbədə ərzaq ehtiyyatının insan artımı üçün yaratdığı imkanlar nəzərdə tutulur [12, s.33].

Əsədulla Cəfərovun ibtidai icma tarixinə dair yazdığı əsərlər də bu baxımdan böyük maraq və əhəmiyyət kəsb edir. Müəllifin fikrincə: “Artıq qədim insan özünə daimi yaşayış yeri tapmış, əmək alətləri hazırlamış və ovçuluq təsərrüfatlarına yiyələnmişdir” [4, s.37]. Ə.Cəfərovun 1989-cu ildə “Azərbaycan abidələri” adlı elmi məqalələr toplusunda” dərc etdirdiyi “Azərbaycan qədim insan məskənidir” adlı məqaləsində Vətənimizin ən qədim dövrlərdən məskunlaşmaya məruz qalmasını konkret elmi faktlarla əsaslandıra bilmişdir. Müəllifin fikrincə, dünyada hələlik elə bir məskunlaşma yeri yoxdur ki, orada mədəni təbəqələr Azıx mağarasındakı kimi zəngin olsun və yaşayış üçün uzun müddət davam etsin. Ə.Cəfərovun sözügedən məqaləsində oxuyuruq: “Aparılan elmi tədqiqatlar göstərir ki, ibtidai insanlar burada 1,2 milyon il bundan əvvəl məskən salmış, 120 min il əvvəl isə mağaranı tərk etmişlər”. Burada istər məskunlaşma, istər nəsil artımı, istərsə də əmək alətlərinin hazırlanması üçün lazım olan materialların zənginliyi ulu əcdadlarımızın diqqətindən yayınmamış, müəllifin təbirincə desək: “İbtidai insanlar yenidən, 20 min keçdikdən sonra mağaraya qayıtmış və burada daha 50 min il yaşayış olmuşdur” [3, s.21-29]. Ə.Cəfərov 1990-cı ildə nəşr edilən “Quruçay dərəsində” adlı monoqrafiyasında ibtidai cəmiyyətdə yaşayan soydaşlarımızın sosial-iqtisadi vəziyyətini son dərəcə faktoloji materiallar əsasında fundamental şəkildə tədqiq etmişdir [5].

Ə.Cəfərov ibtidai cəmiyyətə dair digər tədqiqat əsərlərində də, Azərbaycan ərazisində məskunlaşma prosesinin fasiləsiz olaraq davam etməsi fikrini əsaslandıra bilmişdir. Belə ki, müəllif 1994-cü ildə işıq üzü görən “İnsanlığın səhəri” adlı əsərində yazır: “Azərbaycan ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı Mustye mədəniyyətinə aid Azıx, Tağlar, Daşsalahlı, Qazma və Buzeyir mağara düşərgələri aşkar olunmuşdur” [4, s.43]. Müəllif Azərbaycan ərazisində tunc dövrü və sonrakı dövrlərdə də məskunlaşma prosesinin geniş vüsət alması qənaətinə gəlmişdir: “Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Qarabağ ərazisi tunc dövrünün yaşayış məskənləri ilə də zəngindir” [4, s.25].

XX əsrin ikinci yarısı Azərbaycan tarixçilərinin ibtidai cəmiyyətə dair tədqiqat əsərlərində sözügedən problemlərə dair zəngin məlumatlara rast gəlmək olar. Azərbaycan tarixçilərinin ibtidai cəmiyyətə dair tədqiqatları içərisində görkəmli alim Teymur Bünyadovun əsərləri diqqəti cəlb edir.

O,1960-cı ildə nəşr olunan “Azərbaycan arxeologiyası oçerkləri” adlı kitabında ibtidai icma dövründə mövcud olan məskunlaşma, nəsil artımı və digər tarixi demoqrafiya məsələlərinə geniş diqqət ayırmışdır. Müəllifin fikrincə, Azərbaycanda əhali məskunlaşması üçün əlverişli şərait olduğuna görə burada artıq paleolitin əvvəllərində insanlar yaşamışlar. Müəllif haqlı olaraq ibtidai cəmiyyətdə məskunlaşma üçün əlverişli təbii-coğrafi amilləri ön plana çəkir: “İbtidai insanlar təbii şəraitdən çox asılı olmuşlar. Odur ki, onlar özləri üçün əlverişli yerlərdə məskən salmışlar. Bu ondan irəli gəlir ki, ibtidai insanların əmək alətləri və silahları çox sadə, təbiətə qarşı mübarizələri isə, sonrakı dövrlərə nisbətən xeyli zəif olmuşdur”[1, s.28].

Müəllif fikrinə davam edərək yazır: “Əlverişli şəraitdə yaşayan ibtidai insanlar, müxtəlif yabanı bitkilərin meyvə və köklərini toplamaqla məşğul olmuşlar. Bu dövrdə onlar isti iqlimdə yaşayan heyvanları ovlamaqla öz güzəranlarını keçirmişlər. ... İnsanlar iqlimin istiliyi ilə əlaqədar olaraq paltarsız gəzmiş və istədikləri yerlərdə kiçik qruplarla məskən salıb yaşamışlar”[1, s.28].

Müəllif məskunlaşma üçün Azərbaycan ərazisində çoxlu sayda təbii mağaraların olmasını da vacib amillərdən biri hesab edir. Müəllifin haqlı olaraq, Azərbaycanda təbii mağaraların çoxluğunu Vətənimizdə məskunlaşmanın geniş yayıldığını təsdiq edən danılmaz fakt kimi qəbul edir: “Azərbaycandakı təbii mağaraların bir çoxunda ibtidai insanların yaşamaları şübhəsizdir. ...Bizdə elə təbii mağaralar var ki, onlarda metal dövründə, hətta bir qədər sonralar da yaşayış olmuşdur”[1, s.30].

İbtidai icma quruluşu dövründə əhalinin artım xüsusiyyətlərindən danışarkən alimləri ilk öncə belə bir sual düşündürür. Görəsən, bu dövrdə ibtidai insanların hansı məskunlaşma formaları mövcud olmuşdur? Teymur Bünyadovun sözügedən kitabında bu sualın cavabı ilə rastlaşırıq. Müəllif yazır ki, ibtidai icma dövrünün iqlimin mülayimləşməsi, əhalinin artması ilə müşayiət olunan sonrakı mərhələlərində, xüsusən də eneolit dövründə Zaqafqaziyada əhali oturaq həyat sürmüşdür. Müəllif bu fikrini əsaslandırmaq üçün maraqlı arqumentlərə istinad edir: “Eneolit dövrü abidələrində həm iri, həm də xırdabuynuzlu heyvanların sümükləri çoxdur. Lakin faiz hesabı ilə götürüldükdə iribuynuzlu heyvanın sümükləri çoxluq təşkil edir. Buna əsasən də söyləmək olar ki, eneolit dövründə Zaqafqaziyada əhali oturaq həyat sürmüşdür” [1, s.57].

Müəllif fikrini əsaslandırmaq üçün etnoqrafik materiallara da istinad edir: “Etnoqrafik dəlillər göstərir ki, oturaq maldarlıqa həmişə iribuynuzlu heyvanların saxlanılması əlverişli olmuşdur. Köçəriliklə əlaqədar olaraq əhali xırdabuynuzlu heyvan saxlamışdır” [1, s.57]. T.Bünyadovun bu konsepsiyasını “Azərbaycanda maldarlığın inkişafı tarixindən” adlı digər qiymətli tədqiqat əsərində də görürük: “Azərbaycanın topoqrafik quruluşu və iqlim şəraiti köçmə maldarlığın yaranması üçün xüsusi zəmin yaratmışdır” [2, s.12]. Göründüyü

kimi, müəllif burada məskunlaşmanın bir növü olan yarımköçəri həyat tərzinin yaranmasını təbii-coğrafi amillərlə izah edir. Digər amil kimi isə: "Bu formanın inkişaf edib, daha geniş şəkildə yaranmasına səbəb bir də heç şübhəsiz, heyvan sürülərinin, xüsusilə xırdabuynuzlu heyvanların sayının tez və sürətlə artması olmuşdur" [2, s.12]. Təbii ki, xırdabuynuzlu heyvanların sayının artması onların yemlə təminatı məsələsini zərurətə çevirirdi: "Odur ki, yerli əhali heyvan sürülərini yaşayış yerinin ətrafında deyil, bir qədər aralı olan örüşlərdə otarır, axşam isə geri qaytarırdılar" [2, s.12]. Lakin zaman keçdikcə, maldarlıq daha da inkişaf etdikcə: "Maldarlar axşamlar yaşayış yerlərinə qayıtmayıb müəyyən müddət üçün təxminən oradan 15 km aralı iqlim və otlaqları əlverişli olan düşərgələr seçirdilər" [2, s.12]. Yalnız soyuqların düşməsi və yaşayış yerlərinin ətrafında qoruğa qoyulmuş otlaqların əhəmiyyətli yem bazasına çevrilməsindən sonra insanlar heyvan sürülərini daimi məskunlaşdıqları ərazilərə qaytarırdılar. Müəllifin fikrincə,belə məskunlaşma forması artıq e.ə. III minillikdə Kür-Araz mədəniyyəti dövründə daha da inkişaf etmişdi. [2, s.13].Digər tərəfdən, Tunc dövründə etnik baxımdan yaxın olan tayfa və tayfa ittifaqlarının yaranması insanların məskunlaşdıqları ərazilərdə uzun müddət yaşamalarina əsaslı zəmin yaratmış oldu: "Burada uzun sürən yaşayış nəticəsində ...bir-birindən quruluş,dövr və tikinti materiallarına görə fərqlənənbinalar olmuşdur.Binaların böyük ailələrə məxsus olmasında etnoqrafik dəlillər çox mühüm elmi əhəmiyyətə malikdir" [1, s.77]. Təbii ki, iri və sabit məskunlaşma ərazilərində böyük ailələr ilk növbədə qohumluq köklərinə əsaslanaraq bir neçə cüt nikah nəticəsində meydana gəlirdi. Etnoqraf alim H.Həvilovun fikrincə, Azərbaycanda külfətli ailə, bərəkətli ailə, ağır külfət, kələkülfət, veyə xizunvə digər adlarla məlum olan böyük ailələr patriarxal ailənin nəsli qəbilə quruluşunun dağılması dövründə yaranmasına baxmayaraq, o uzun bir tarixi inkişaf yolu keçmiş hətta XX əsrin əvvəllərinə kimi mövcud olmüşdur [10, s.200].

Hidayət Cəfərovun fikrincə, böyük ailələrin  məskunlaşdıqları ərazilərdə kiçik ailələrin yaranması ilk növbədə əmək bölgüsü ilə və onun nəticəsində ayrı-ayrı qəbilə başçılarının əlində izafi gəlirin toplanması ilə bağlı idi [15, s.19-20]. Sözügedən əsərin qayəsindən bəlli olur ki, ibtidai icma cəmiyyətinin sonlarına doğru son tunc, erkən dəmir dövründə Azərbaycanda hələ orta tunc dövründə meydana gələn şəhərlər daha da inkişaf etmiş,Yaxın Şərqin ən iri, inkişaf etmiş ölkələri ilə geniş ticari-iqtisadi əlaqələr qura bilmişdir. Müəllifin fikrincə, sözügedən dövrə dair Xocalıdan tapılan, üzərində Assuriya hökmdarı Adadnirarinin adı yazilan muncuq, silindrik möhürlər buna əyani sübutdur [15, s.40-47].

Sözügedən dövrdə Azərbaycanın Yaxın Şərqin qüdrətli ölkələri ilə geniş əlaqələrini Vəli Əliyevin tədqiqat əsərlərində də izləmək olur. Müəllifin 1975-ci ildə nəşr olunan "Tarixin izləri ilə" adlı kitabında belə bir fikir vurğulanır ki, Azərbaycan ərazisi artıq ibtidai icma cəmiyyəti dövründə insaların uzun müddət

– min illər boyu məskunlaşdıqları sabit və əlverişli yaşayış yerləri kimi fəaliyyət göstərmişdir. Naxçıvanda orta tunc dövrünə aid olan Kültəpə yaşayış yeri buna ən parlaq nümunədir. Müəllifin sözügedən abidə ilə bağlı fikirləri maraqlıdır: "...Kültəpə qədim yaşayış yeri öz möhtəşəmliyi ilə bir çox görkəmli tədqiqatçıların diqqətini cəlb etmişdir"[7, s.30-31]. Müəllif haqlı olaraq Zaqafqaziyada ilk dəfə geniş planda tədqiq olunan bu çoxtəbəqəli yaşayış yerinin qədim nəsillərin yaşayış binalarını,təsərrüfat tikintilərini, məşğuliyyətini, mədəni və ictimai həyat tərzlərini, adət və ənənələrini öyrənmək üçün çox zəngin materiallar verməsi qənaətinə gəlir [7, s.31].

Qeyd etmək yerinə düşər ki, yer səthindən 22 metr hündürlükdə olan və tarixi demoqrafik baxımdan son dərəcə böyük əhəmiyyət kəsb edən bu yaşayış yerində tədqiqat işləri ilk dəfə 1951-1964-cü illərdə adını hər zaman ehtiramla xatırlatdığımız, görkəmli arxeoloq alimimiz Osman Həbibullayev tərəfindən aparılmışdır. Ümumiyyətlə, sözügedən dövrə dair Kültəpə maddi mədəniyyət abidələrinin, yaşayış yerlərinin öyrənilməsinin elə nəticələri də ilk dəfə öz parlaq elmi ümumiləşməsini XX əsrin 50-60-cı illərində O.Həbibullayevin nəşr etdirdiyi bir sıra qiymətlitədqiqat əsərlərində tapmışdır (Абибуллаев О.А. Археологические раскопки холма Кюльтепе. (Поселение конца неолита — начала железа). Автореф. канд. дисс. (АГУ им. С.М. Кирова). Баку, АН АзССР, 1959, 17 с; Абибуллаев О.А. К изучению холма Кюльтепе // Труды Института истории и философии. Баку, АН АзССР, 1956, Т. IX, с. 5-25; Абибуллаев О.А. Некоторые итоги изучения холма Кюль-Тепе в Азербайджане // Советская археология, № 3, 1963, с. 157-168; Абибуллаев О.А. Раскопки холма Кюль-тапа // Краткие сообщения ИИМК, Вып. 51, 1953. с. 36-45). Bu əsərlər ibtidai icma cəmiyyəti dövründə Azərbaycan ərazisində yaşamış əcdadlarımızın nəsil artımı, məskunlaşması, ictimai-iqtisadi həyatı, mədəni tərəqqisi barədə son dərəcə qiymətli məlumatlar verir. O, sübut edə bilmişdir ki, Kültəpə Azərbaycanın ən qədim yaşayış yerlərindən biridir və burada əhalinin məskunlaşması prosesi artıq e.ə. V-I minilliklərdə mövcud olmuşdur.

Unikal arxeoloji abidə olan Kültəpədemoqraf alimlərə ibtidai icma cəmiyyəti dövrünün yaşayış xüsusiyyətləri və mədəniyyətini ardıcıl şəkildə izləməyə imkan verir. Sözügedən yaşayış yerində ulu əcdadlarımızın minilliklər boyu məskunlaşmasını bu ərazidən tapılan maddi mədəniyyət nümunələri də sübut edir: "Qədim Kültəpə sakinləri 5000-7000 il bundan əvvəl müxtəlif buğda və arpa növlərindən əkinçilikdə geniş istifadə etməklə yanaşı, paxlalı bitkilər və meyvə ağacları da becərmişlər" [7, s.31].

Məlumdur ki, əkinçilik biləvasitə oturaq həyatla bağlıdır. Ələlxüsus da əgər ulu əcdadlarımız sözügedən yaşayış yerində V.Əliyevin təbirincə desək, əkinçilikdə müxtəlif buğda və arpa növlərindən geniş şəkildə istifadə etmişlərsə, deməli minilliklər boyu ərazinin təbii-coğrafi xüsusiyyətlərini

fasiləsiz olaraq öyrənərək, yerli şəraitə uyğun olan dənli bitkilərin ən məhsuldar növlərini seleksiya etməyə də nail olmağı bacarmışlar. Sözügedən yaşayış yerindən daşdan və sümükdən tutmuş (bu alətlər neolit, enolit və tunc dövrünə aid olsa da – A.M.) ta ki, xəlitədən-tuncdan hazırlanan əmək alətlərinin tapılması da fikrimizcə, deyilənləri, yəni sözügedən yaşayış yerində ulu əcdadlarımızın ibtidai icma quruluşunun ən qədim dövrlərindən üzü bəri məskunlaşmasını aşkar şəkildə sübut edir.Çünki, biz burada əslində əmək alətlərinin inkişaf dinamikasını, minilliklər boyu dayanmadan davam edən təkamül prosesini görürük. Digər tərəfdən məhz uzun müddət ərzində eyni ərazidə olmaq insanlara məskunlaşdıqları yerin təbii sərvətlərini öyrənmək, sınaqdan keçirtmək imkanlarını bəxş etmişdir. Təbii ki, misin tərkibinə qatmaq üçün lazım olan qalay,sürmə,mərgümüş,nikel, qurğuşun və bu kimi çoxsaylı komponentlərin axtarılaraq tapılması, fiziki-kimyəvi xüsusiyyətlərinin tədqiq və tətbiq edilməsi prosesinin özü də fikrimcə əcdadlarımızın sözügedən yaşayış yerində minilliklər boyu fsiləsiz olaraq yaşamasını israrlı bir şəkildə tələb edib. Digər tərəfdən həm I, həm də II Kültəpədən tapılan yaşayış yerləri-mədəni təbəqələrin aşırı qalınlığı (II Kültəpədə alt təbəqənin qalınlığı 6 metrə çatır. – A.M.) da yuxarıda deyilənlərə əyani sübutdur: "Ümumiyyətlə Kültəpədə həyat ardıcıl olaraq 4000 ilə qədər davam etmiş və bu uzun müddət ərzində bir-birini əvəz edən nəsillərin iqtisadi-mədəni həyatında maraqlı və mühüm dəyişikliklər baş vermişdir"[7, s.32]. Artıq erkən tunc dövründə Azərbaycanda əhalinin sayının artması prosesini yaşayış yerlərinin sahəsininin ərazicə böyüməsində də müşahidə edə bilirik. Belə ki, sözügedən dövrə dair Naxçıvan ərazisindəki Şahtaxtı kəndinin şimalında-hündür təpə üzərində salınmış Govurqalanın ümumi sahəsi 6-8 hektardır [7, s.73].

V.Əliyev sözügedən dövrə dair özünün "Gəmiqaya abidələri" adlı digər maraqlı tədqiqat əsərində də yaşayış yerlərinə, məskunlaşmaya dair son dərəcə maraqlı məlumatlar verir.

Ümumiyyətlə, müəllifin sözügedən kitabını oxuyarkən ibtidai icma cəmiyyətində yaşayan ulu əcdadlarımızın həyata və ətraf mühitə olan münasibətini, yaxud yaşam fəlsəfəsini özündə son dərəcə real əks etdirən qədim inancları ilə də rastlaşırsan. Belə ki, burada söhbət insan həyatının, onun daxili mənəvi aləminin tükənməzliyindən, potensial imkanlarının nəhayətsizliyindən gedir. İnsan özü ilə ətraf mühit, xəyal və istəkləri və təbii reallıqlar arasında körpü yaratmağa çalışır, özünü sirli-sehrli dünyanın ayrılmaz varlığı kimi dərk edirdi. Ulu əcdadlarımızın göyə, yerə, dağlara, daşlara, suya, oda, ocağa tapınması Gəmiqaya abidələrindəki təsvirlər əsasında geniş tədqiq olunub. Bu təsvirlər ibtidai icma cəmiyyətində yaşayan insanların nəsil artımını himayə edən xeyirxah ruhlara tapınmasını, insan-təbiət münasibətlərini eləhəmin dövrün öz "dili ilə" əks etdirir. Belə ki, yer üzündə həyatın əsas mənbəyi olan Günəşə insanlar artiq ibtidai icma cəmiyyətində,onları qaranlıqdan, bəd

hadisələrdən, şər ruhlardan qoruyan, nəsil artımını himayə edən xeyirxah varlıq kimi sitayiş edirdilər.Elə Gəmiqaya abidələrindəki günəş təsvirləri də bu inancların bariz əksidirlər. Ulu əcdadlarımız Günəşə və onun simvolu olan oda, ocağa həmişə özlərinin himayədarı kimi baxmışlar.Hətta indinin özündə belə Azərbaycanlılar oda təbiətin ən təmiz və ən müqəddəs ünsürlərindən biri kimi böyük ehtiramla yanaşırlar. Məhz bu gün də oda, ocaga and içmək, müqəddəs ziyarətgahlara çox zaman "ocaq" demək, ər evinə köçən qızın oğullu-qızlı, xoşbəxt və ruzulu olması üçün onu ocağın başına dolandırmaq, yaxud oda-ocağa and içmək kimi odla bağli bir çox adətlər, ayinlər, inanclar,mərasimlər mövcuddur.

İbtidai insanlarınəsasən nəsil artımı ilə bağlı tarixi demoqrafik inaclarının qədim izləri ilə bağlı V.Əliyevin fikirləri diqqət çəkir. O,Gəmiqaya abidələrində dağ kəllərinin başında buynuz əvəzinə dairələrin təsvir edilməsi ilə bağlı yazır: "Heyvanın buynuzlarının bu şəkildə verilməsi təsadüfi olmayıb, müəyyəninamla baglı semantik məzmun kəsb edir. Çox ehtimal ki, qədim Naxçıvan tayfalarının əsas inamlarından olan günəşə sitayişlə bağlıdır" [6, s.30]. Müəllifin gəldiyi qənaətə görə günəş simvolikasının heyvan rəsmləri ilə birgə təsvir edilməsi, ibtidai insanların təsəvvürlərində həmin heyvanların bu səma cisminin toemlərli kimi yer üzündə həyatın dşıyıcıları hesab etməsi inancından əmələ gəlmişdir. Əslində isə, bu təsvirlər ibtidai insanların doğum,təbii artım kimi demoqrafik düşüncəsini,insanların yaşamaq və gələcək uğrunda apardıqları çox çətin mübarizəni əks etdirir: "Bu təsvirlərdə sanki insanların həyatının qorunması, onlara işıq, həyat üçün istilik (yəni, nəsil artımı üçün güc, dəstək, enerji – A.M.) hərarət və gələcək arzulanır" [6, s.30].

Başqa sözlə desək, bu təsvirlərdə ibtidai insanların nəsil artımı ilə bağlı tarixi demoqrafik baxışları incəsənətin ən qədim növü olan təsviri sənətlə ifadə olunmuşdur. Y.Həsənovun təbirincə desək, ibtidai icma incəsənətinin əsas xüsusiyyəti onun real təbii varlığı olduğu kimi verməyə səy etməsindədir [9, s.100]. Biz belə təsvirlərlə Qobustanda da rastlaşırıq.Qobustanda günəş kultu ilə bağlı olan, əlində günəş təsviri olan insan petroqlifi, günəş rəmzi olan keçi rəsmləri və kromlex tikintisi də vardır. [13, s.82-83].

Artıq erkən tunc dövründə Azərbaycanda əhalinin sayının artması, maldar tayfaların dağətəyi və dağlıq zonalarda əlverişli-suya, geniş otlaq sahələrinə yaxın yerlərdə daha çox əraziləri ələ keçirtmək cəhdləri ayrı-ayrı tayfa və tayfa ittifaqları arasında qarşısı alınmaz müharibələrə səbəb olurdu.

Sərvətlərimizin toxunulmazlığı uğrunda gedən bu qanlı qovğalarda şəhid olan soydaşlarımızı ulularımız həmişə dərin ehtiram hissi ilə anmış, xatirələrini əbədiləşdirməkdən ötəri onlar üçün simvolik qəbirlər belə hazırlamışdılar. İçərisi boş olan belə simvolik qəbirlərdə adətən kiçik ölçülü küplərdən istifadə edilirdi. Belə küplər, qəbirlərdə böyrü üstə müxtəlif istiqamətlərdə qoyulurdu. Tarixi ədəbiyyatda genotaf adlanan bu növ qəbir abidələrinə dünyanın bir çox

ölkələrində təsadüf edilir. Lakin, genotaf qəbirlərdən ibarət bütöv bir qəbiristanlığa ancaq Qarabağda rast gəlmək olur. Sözügedən bu cür qəbiristanlığın aşkar edilməsində iştirak edən mərhum arxeoloq R.Göyüşov yazır ki, ekspedisiyamızın Qarabağda genotaflardan ibarət açdığı qəbiristanlıq dünyada nadir hadisələrdəndir. Haqqında danışdığımız qəbiristanlıq indiki Xocavənd bölgəsinin Ağoğlan məbədi ərazisindədir [8, s.27]. Bəs nə üçün döyüşlərdə şəhid olan yaxud bu və ya digər səbəblər üzündən yurduna, məmləkətinə dönməyən insanlar üçün belə məzarlıqlar düzəldilirdi. Bu, ilk növbədə ən qədim zamanlarda mövcud olan dini inanclar sistemi ilə bağlı idi. Belə ki, insanlar qəbiri olmayan yaxın mərhumlarının ruhlarının rahatlıq tapa bilməməsinə inanaraq narahat olur, onlar üçün simvolik boş qəbirlər düzəldərək yanlarına yastı daşlar qoyurdular.Ibtidai icma cəmiyyətində Qədim inanclara görə, ölən insanın ruhu məhz bu daşlara hoparaq rahatlıq tapırdılar. Zaman-zaman belə boş qəbirlər ziyarət edilir, onların ətrafında müəyyən ayin və mərasimlər icra olunurdu. Başqa sözlə desək, belə genotaf qəbirlərdə şəhid ruhlarının əbədi olaraq rahat uyuması üçün mümkün olan hər şey edilirdi. Bu isə, soydaşlarımızın bəşər tarixinin ən qədim çağlarından üzü bəri torpaq uğrunda canını fəda edən insanlara rəğbət, hörmət və sevgi hisslərindən xəbər verir. Ulu əcdadlarımızın bu cəhdləri təbii ki, hər şeydən öncə düşmən qüvvələrini ram etmək, işğalçı niyyətlərini dəf etmək, düşmən tapdağından azad olunmuş vətənlərində normal həyat və məişətlərini təmin etmək ehtiyacından, yaşamaq uğrunda apardıqları çox çətin, mürəkkəb mübarizədən irəli gəlirdi.

Burada maraqlı bir cəhət ondan ibarətdir ki, tədqiq olunmuş bütün genotaf küp qəbirlərində, bir qayda olaraq, küpün kənarına yastı bir daş parçası qoyulmuşdur.Heç şübhəsiz ki, bu əhalinin ənənəvi daş inancları ilə bağlı olmuşdur. R.Göyüşov haqlı olaraq yazırdı: “Küp qəbirləri belə bir dini əqidənin məhsulu olmuşdur ki, guya insan torpaqdan yaranmışdır. O, müvəqqəti dünya üçün doğularkən ana bətnində necə yatmışdırsa, daimi dünyaya gedərkən də eyni şəkildə olmalıdır. Beləliklə, küp ana bətninin rəmzi kimi yaradılmışdır” [8, s.27].

*Nəticə.*Beləliklə, XX əsrin ikinci yarısında Azərbaycan tarixçiləri Vətənimizdə milyon illər boyunca davam etmiş ibtidai icma cəmiyyətinin məskunlaşma, nəsil artımı və s. bu kimi proseslərin inkişaf dinamikasını əks etdirən sanballı monoqrafiyalar ərsəyə gətirməklə xalqımızın tarixi demoqrafik həyatını elmi obyektiv müstəvidə təsvir etməyə nail olmuşlar.

## Ədəbiyyat:


1. Bünyadov T. Azərbaycan arxeologiyası oçerkləri. Bakı, Azərnəşr, 1960, 236 s.
2. Bünyadov T. Azərbaycanda maldarlığın inkişafı tarixindən. Bakı, Elm, 1969, 185 s.
3. Cəfərov Ə. Azərbaycan qədim insan məskənidir / Azərbaycan abidələri. Bakı, Azərnəşr, 1989, 125 s.
4. Cəfərov Ə. İnsanlığın səhəri. Bakı, Azərnəşr, 1994, 80 s..
5. Cəfərov Ə. Quruçay dərəsində. Bakı, Azərnəşr, 1990, 64 s
6. Əliyev V. Gəmiqaya abidələri. Bakı, Azərnəşr, 1993, 79 s.
7. Əliyev V. Tarixin izləri ilə. Bakı, Gənclik, 1975, 77 s.
8. Göyüşov R. Qarabağın keçmişinə səyahət. Bakı, Azərnəşr, 1993. – 83 s.
9. Həsənov Y. İbtidai icma tarixi. Bakı, Azərnəşr, 1963, 209 s.
10. Həvilov H. Azərbaycan etnoqrafiyası. Bakı, Elm, 1991, 256 s.
11. Hüseynov M. Uzaq daş dövrü. Bakı, Gənclik, 1973, 71 s.
12. Məmmədov A. Tarixi demoqrafiya. Bakı, ADMİU, 2019, 230 s.
13. Rzayev N. Əcdadların izi ilə. Bakı, Azərnəşr, 1992, 102 s.
14. Абибуллаев О.А. Археологические раскопки холма Кюльтепе. (Поселение конца неолита — начала железа). Автореф. канд. дисс. (АГУ им. С.М. Кирова). Баку, АН АзССР, 1959, 17 с.
15. Джафаров Г.Ф. Связи Азербайджана со странами Передней Азии в эпоху поздней бронзы и раннего железа.Баку, Элм,1984 106 s.

# ÇARİZMİN AQRAR SİYASƏTİNİN ƏSAS MAHİYYƏTİ VƏ MƏQSƏDLƏRİ HAQQINDA

**Ceyhun Hüseynov**
AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
ceyhunh137@gmail.com

***Açar sözlər***: *çarizm, mülkədar, kəndli, vergi, torpaq*

*Məqalədə Çarizmin Azərbaycanda aqrar siyasəti təhlilə cəlb olunmuşdur. Xanlıqlar dönəmində, əvvəlki yüzillərdə olduğu kimi, istər xan və mülkədar mülklərində, istərsə də tiyul torpaqlarında feodalın özünün təsərrüfatı demək olar ki, yox idi. Digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da feodalların şəxsi təsərrüfatının zəif inkişaf etməsi və kəndlilərin mütləq əksəriyyətinin divana məxsus torpaqların istifadəçiləri olduqlarından, dövlət kəndliləri kateqoriyasına aid qeyd edildiyi vurğulanır. Sonda qeyd olunur ki, çarizmin aqrar siyasətinin xarakterinə diyarın perspektivlərinə dair hakim çevrələrin yanaşmalarının fərqliliyi də önəmli təsir göstərirdi.*

# О ГЛАВНОЙ СУЩНОСТИ И ЦЕЛЯХ АГРАРНОЙ ПОЛИТИКИ ЦАРИЗМА

**Джейхун Гусейнов**

***Ключевые слова:*** *царизм, помещик, крестьянин, налог, земля*

*В статье анализируется аграрная политика царизма в Азербайджане.В период ханства, как и в предыдущие века, собственного хозяйства феодала практически не существовало ни в ханских и мулкадарских имениях, ни в тиюльских землях. подчеркивается, что частное хозяйство феодалов в Азербайджане, как и в других мусульманских странах, развито было слабо, а поскольку абсолютное большинство крестьян являются пользователями земель, принадлежащих дивану, они упоминаются как принадлежащие к категории государственные крестьяне. В конце статьи отмечается, что характер аграрной политики царизма оказал важное влияние на различия в подходах правящих кругов относительно перспектив страны.*

# ON THE IMPORTANT ESSENCE AND GOALS OF THE AGRARIAN POLICY OF TSARISM

**Jeyhun Huseynov**

***Key words:*** *Tsarism, landlord, peasant, tax, land*

*In the article, the agrarian policy of Tsarism in Azerbaijan is included in the analysis. During the khanate period, as in the previous centuries, the feudal lordis own farm was almost non-existent, either in the khan and mulkadar estates, or in the tiyul lands. As in other Muslim countries, it is emphasized that the private economy of the feudal lords in Azerbaijan is poorly developed, and since the absolute majority of the peasants are users of the lands belonging to the divan, they are mentioned as belonging to the category of state peasants. In the end, it is noted that the nature of the agrarian policy of tsarism had an important influence on the differences in the approaches of the ruling circles regarding the country's prospects.*

Son orta əsrlərdə bizim coğrafiyada torpaq sahibliyinin növ və formalarının özünəməxsus konfiqurasiyası yaranmışdı. Bir çox hallarda formal-hüquqi baxımdan hökmdar tərəfindən bəxş olunan və mütəmadi olaraq müvafiq fərmanlarla təsdiqlənən torpaq sahələri əslində bu və ya digər feodal soyunun irsi sərəncamında olurdu. Lakin hüquqi baxımdan bu torpaqların tam özəl mülkiyyətdə olmaması, ümumiyyətlə, onların sahiblərinin yuxarıda da qeyd etdiyimiz kimi, torpağın ali sərəncamvericisi qismində çıxış edən hökmdarın iradəsindən asılılıqda bulunması digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da müvafiq sosial düzəni şərtləndirmişdi.

İlk rus komandanlarının dövründə komendantlara rəncbər paylamaq hüququ verilmişdi. Lakin general Yermolovun idarəçiliyi dövründə bu hüquq komendantlardan alınaraq, yalnız hərbi dairə rəisinə həvalə edilmişdi; rus komandanı hesab edirdi ki, rəncbər paylamaqda komendantlar sui-istifadələrə yol verərək, hökumət əleyhdarları bəyləri də mükafatlandrımışdılar. Əhalinin xüsusi sosial kateqoriyasını maaflar təşkil edirdilər. Onlara köçərilər və vergilərdən, xəracdan və mükəlləfiyyətlərdən azad edilmiş, lakin qarşılığında xan qoşunlarında hərbi qulluq yerinə yetirməli olan sakinlər daxil idi. Maaflar xan qoşunlarının özəyini təşkil edir, bəzən isə aşağı inzibati vəzifələr tuturdular. Çar hökumət dairələrinin bir sənədində deyildiyi kimi, "xan idarəsi zamanı maaflar əksər hallarda bəlli müddətə hər növ vergi və mükəlləfiyyətdən azad edilmişdilər. Lakin əvəzində ilk tələb üzrə öz atlarında və öz silahları ilə savaşa girməli idilər. Xanların zamanında maaflıq hüququ ya xüsusi xidmətlərə görə, ya sadə camaatla qohumluq quran bəylərin vəsatəti ilə əldə edilirdi, ya da xanın özündən satın alınırdı. Xan idarəçiliyinin ləğvi ilə onların öhdəlikləri də bitmiş

oldu, amma vergi və mükəlləfiyyətlərdən onlar hələ də azaddırlar, və onların adı atadan oğula keçməklə, yavaş-yavaş irsilik kəsb etdi"[6, s.85].Bu sənədin tərtib olunduğu 1839-cu ildə Qarabağ, Şirvan, Şəki və Talış əyalətlərində maafların sayı 1968 ailəyə çatırdı ki, onlardan 20-60 yaşları arasında kişi cinsindən olanların sayı 4400 nəfər təşkil edirdi.

Yeri düşmüşkən, biz Azərbaycanda feodal-təhkimçilik münasibətləri haqqında fikrimizi bildirmək istərdik. Qənaətimizcə, inqilabdan əvvəlki rus tarixşünaslığı bu məsələdə daha düzgün mövqe tuturdu. Baron A.P. Nikolai öz xatirələrində Azərbaycanda kəndlilərin torpaq sahiblərindən təhkimçilik asılılığının mövcud olmadığını vurğulayaraq, qeyd edirdi ki, "bu və başqa əsaslarla torpağa sahib şəxslərlə həmin torpaqlarda yaşayan kəndlilər arasında müəyyən münasibətlər bərqərar olmuşdu. Bu münasibətlər öz formalarına görə qonşu xristian gürcü və İmeretiya çarlıqlarında mülkədarlarla təhkimlilər arasında mövcud olan münasibətlərinə son dərəcə yaxınlaşırdı". İ.P. Petruşevski öz əsərində bu tezisi əsaslandırmaq üçün bəzi müddəalar irəli sürür. Lakin elə onun yürütdüyü mühakimələrdən də bəlli olur ki, əvvəla, xanlıqlarda kəndlilər torpaqdan daha çox müəyyən mükəlləfiyyətlərə təhkim olunmuşdular. İkincisi, xanlar özlərinin və tabeliyindəki bəylərin mənafeyinə uyğun olaraq, qonşu xanlıqlardan kəndlilərin qaçaraq, onlara pənah gətirmələrini təşviq edir və qaçqınları geri qaytarmaqdan boyun qaçırırdılar[10, s.262-263]. Elə bu faktın özü də Azərbaycanda təhkimçilikdən daha çox feodal-asılı münasibətlərin mövcudluğuna dəlalət edir. A. Milman çox düzgün qeyd edirdi ki, Azərbaycanda hüquqi cəhətdən təsbit olunmuş təhkimçilik hüququ yox idi və burada feodallar kəndlilərə münasibətdə heç vaxt əşya hüququna malik olmamışdılar, hərçənd daha ağır feodal asılılığında olan rəncbərlər təhkimli kəndlilərə ən yaxın mövqedə qərarlaşmışdılar[8, s.37]. Azərbaycan tarixçisi M. Abdullayev də qənaətimizi təsdiqləyərək, yazırdı ki, rəncbərlər, təhkimçiliyin klassik formasının tələb etdiyi kimi, əsla torpağa təhkim olunmamışdılar.

Belə bir məqam da vurğulanmalıdır ki, kəndlilərin mütləq əksəriyyəti divana məxsus torpaqların istifadəçiləri olduqlarından, dövlət kəndliləri kateqoriyasına aid idilər. Quzey Azərbaycanın Rusiya tərəfindən istila edilməsindən sonra xana məxsus torpaqlar, habelə işğalçılara qarşı mübarizə aparan bəylərin torpaqları da xəzinənin ixtiyarına keçdiyindən, sözügedən kateqoriya daha da genişlənmişdi. XIX əsrin ilk illəri Cənubi Qafqaz, və ilk növbədə də Şimali Azərbaycan üçün Rusiya ekspansiyasının açıq mərhələyə qədəm basması ilə əlamətdar olmuşdur. Çarizm öz istilaçı məramını gerçəkləşdirərkən, təkcə iri regional güclər – Qacar İranı və Osmanlı Türkiyəsi ilə deyil, bir sıra Azərbaycan hakimləri ilə də savaşmalı olmuşdu. Qacar ordusunun da əhəmiyyətli dərəcədə Güney Azərbaycan qoşunlarından təşkil edildiyini nəzərə alsaq, Rusiya-İran müharibəsi quzeyli feodalların da iştirakı ilə faktiki olaraq qarşımıza Rusiya-Azərbaycan savaşı kimi çıxmış olur. Bu

savaş gedişində Rusiya ilk zamanlar yerli ali silkə münasibətdə fərqli taktikalara əl atmalı olsa da, bütün manevrlər baş strateji hədəfə - Azərbaycanın şimal qisminin tam və dönməz işğalının təsbitinə xidmət edirdi. Bütövlükdə XIX əsrin ilk yarısında çarizmin həm aqrar tədbirləri, həm də ali silkə münasibətdə zaman-zaman ziddiyyətli görünən siyasəti məhz müstəmləkəçilik strategiyasının məcrasında taktiki fərqliliklər qazanırdı. İstər birinci və ikinci Rus-İran savaşları dönəmində, istər müharibələrarası və müharibə sonrası dövrlərdə cari hərbi, geosiyasi, iqtisadi mülahizələr önəmli dərəcədə sözügedən siyasətə təsir göstərsə də, rus hökuməti hər vəchlə öz mövqelərini möhkəmləndirmək, Azərbaycanda sosial dayaqlarını gücləndirmək kimi vəzifələrin həllinin prioritetliyini gündəmdə saxlayırdı.

İlk rus komandanlarından etibarən çar hərbi-siyasi administrasiyası ali müsəlman silkinə münasibətdə ikili siyasət yürüdürdü. Bir tərəfdən çarizm öz sosial dayaqlarını yaratmaq ehtiyacı duyurdu, bu səbəbdən elə ilk vaxtlardan müsəlman feodalları ilə müəyyən dil tapmağa çalışırdı. Digər tərəfdən, çarizmin ümumən müsəlman xalqlarını etibarsız sayması, güvənməməsi, üstəlik də Azərbaycanda bəzi xanların və bəylərin rus işğallarına qarşı müqavimətə faktiki başçılıq etməsi hökumət çevrələrini mütəmadi olaraq repressiyalara əl atmasına, müsadirələr keçirməsinə rəvac verirdi. Elə bəylərin və ağaların da ucdantutma məmur kimi qələmə vermək, onların zaman-zaman torpaq üzərində mülkiyyət hüquqlarının danmaq istəyi də qeyd olunan mətləbdən doğurdu. Üstəlik, bu siyasət çarizmin ruslaşdırma strategiyası məcrasında Azərbaycanda torpaq sahibi bəyləri “təbii rus zadəganları” ilə əvəz etmək cəhdlərində də öz izahını tapırdı[9, s.10]. Ona görə də çar hökuməti tərəfindən biz həm torpaqların müsadirəsinin, həm də özünə sədaqətli bildiyi şəxslər arasında paylanıldığının şahidi oluruq. Ümumiyyətlə, 1846-1847-ci il qanunvericilik aktlarının dərcinədək çar hökumət dairələri müsəlman ali silkinin torpaq mülkiyyət hüququna dair birmənalı və sabit kurs yürütməmişdi. Yalnız adı çəkilən aktların qəbulu ilə hökumət bu məsələdə daha sabit xətt götürmüş oldu.

Rus istilasının Qacar dövləti ilə savaş illərinə təsadüf etmiş ilk dönəmlərində diyarın yeni imperiya hakimiyyəti aqrar münasibətlərə kəskin müdaxilələrdən yayınırdı ki, bu da təbii idi: hərbi və işğalçı əməliyyatların davam etdiyi bir şəraitdə çarizm regionun sosial-iqtisadi cəhətdən mənimsənilməsi, burada dayanıqlı münasibətlər sisteminin yaradılması işini daha əlverişli zamana təxirə salmışdı. İlk növbədə rus hökuməti xəzinə gəlirlərinin mütəmadi daxilolmalarını təmin etməyə, xüsusən də vergitutulmalarında axsaqlıqlara yol verməməyə çalışırdı. Bu zaman taxıl vergisinə xüsusi diqqətin ayrılması Rusiyanın savaşla əlaqədar qoşunların fasiləsiz ərzaqla təmin etmək istəyindən doğurdu[1, s.11]. XIX əsrin ilk onilliklərində yerli hakimiyyət orqanlarının ali müsəlman silkinə münasibətindən bəhs edən M. Kuçayev yazırdı: “1812-ci ildə kəndləri idarə

edən naiblər və bəylər üçün torpaq sahibləri ilə kəndlilərinqədimi adətlərə uyğun qarşılıqlı münasibətlərini təsbit edən... təlimat tərtib etmiş Quba komendantı mayor Ponomaryov istisna olmaqla, yerli sabiq rəislərdən heç biri zəhmət çəkib idarə etdiyi xalqların hüquqi baxışları və adətləri haqqında bilgiləri toplamadı”[7, s.5].

Çarizmin aqrar siyasətinin ümumi cəhətlərini nəzərdən keçirərkən belə bir məqam da diqqətdən yayınmamalıdır ki, o bir çox mətləblərinə görə regionun inzibati idarəçilik sisteminin islahatlarının səciyyəsi ilə də uzlaşırdı. A.Ş. Milman yazdı ki, “o çağadək ki, xanlar daxili və xarici siyasətini həyata keçirməkdə mütləqiyyət üçün faydalı idilər, hakimiyyətlərinin güclü surətdə məhdudlaşdırılması ilə və rus hərbi hissə komandirlərinin nəzarəti altında inzibati idarənin başında saxlanılırdılar. Lakin xan Rusiyaya münasibətdə azacıq tərəddüd göstərər-göstərməz, idarəçilikdən kənarlaşdırılırdı; idarəetmə isə əksər hallarda komendant adlanan rus zabitlərinin əllərinə ötürülürdü”[8, s.66]. Polis və təsərrüfat idarəçiliyini həyata keçirmək üçün əyalətlərin mahallara bölgüsü saxlanılırdı. Mahal rəisliyinə (bəyliyinə) köklü bəylərdən şəxslər təyin olunurdu ki, onlardan bir çoxu hələ xanlıqlar dönəmində bu mənsəbi tuturdular. Onların əvvəlki hüquq və gəlirləri də saxlanılırdı[5, s.151].

Artıq 1804-1813-cü illərdə regiondakı rus hərbi komandanlığı mütəmadi olaraq ona asi olan bəylərin və ağaların torpaqlarını müsadirə edirdi. Məsələn, regiondakı rus qoşunlarının komandanı general A.P. Tormasovun 1810-cu il dekabrın 18-də hərbi nazirə göndərdiyi təliqəsində Quba böləsində Şeyxəli xan hərəkatında iştirak etmiş bəylərin çoxunun artıq həbsə atıldığı, teziklə mühakimə olunub Sibirə sügün ediləcəkləri bildirilirdi[2, s.69]. Eyni zamanda, “kökə və qamçı” prinsipini göz önündə tutan rus hökuməti o dönəmdə mütəmadi olaraq yerli torpaq sahiblərinin mülkiyyət və idarəetmə hüquqlarına da sayğısını nümayiş etidirirdi. Ümumiyyətlə, Azərbaycan feodallarının firavanlığını və hüquqi statusunu birbaşa hökumətin iradəsindən asılı duruma salmaqla, bu silki çarizmin sadiq xidmətçilərinə çevirmək məramı 1818-ci ildə növbəti rus baş komandanı generalı A.P. Yermolovun dərc etdirdiyi “Əsasnamə”lərdə [3, s.696-698] öz ifadəsini tapırdı. Qazax, Şəmşəddil və Borçalı ağalarına şamil olunan bu “Əsasnamə” o müddəadan çıxış edirdi ki, ağalar kəndlərin mülkiyyətçisi olmayıb, Rusiyaya sədaqət və xidmət müqabilində sadəcə idarəçiləridir. Öz xidmətinə görə ağalar əhalidən yığılan və xəzinəyə ödənilən taxıl və pul vergisinin 1/10-i ilə mükafatlandırılırdı. “Əsasnamə” ağalar üçün geniş kəndli mükəlləfiyyətlərini içinə alan xeyli sayda imtiyaz nəzərdə tuturdu. “Əsasnamə” ağalar üçün yetərincə geniş imtiyazlar nəzərdə tutsa da, onların kəndlər üzərində hakimiyyətini məhdudlaşdırdığı üçün sözügedən zümrənin narazılığını doğurmuşdu. Yermolovun etiraflarına görə, ağalar yeni vəziyyətlərindən dəfələrlə ona şikayət etmişdilər. Şəmşəddilli Nəsib

sultanın və Qazaxlı Mustafa ağanın həbs olunaraq, Rusiyaya sürgün olunması 1819-cu ilin mayında hətta həyəcanlara səbəb olmuşdu[5, s.340-341].

A.P. Yermolovun idarəçiliyi dönəmi ümumiyyətlə Azərbaycan ali silkinə, feodal hakimlərinə qarşı o çağadək görünməmiş basqılarla müşayiət olunmuşdu. Təsadüfi deyildi ki, məhz həmin illərdə Şəki, Şirvan və Qarabağda xanlıq üsul-idarəsi ləğv edilmiş, Rusiyaya öz loyallığı ilə seçilən Şirvanlı Mustafa xan və Qarabağlı Mehdiqulu xan, habelə onlarla bəy yeni inzibatçının fitnə-fəsadlarına tab gətirməyərək, Qacarlar dövlətinə sığınmalı olmuşdular.

Faktların obyektiv araşdırılması göstərir ki, 1826-1828-ci illərə təsadüf etmiş II Rusiya-İran müharibəsi eyni zamanda rus işğalına qarşı Azərbaycan xalqının azadlıq mücadiləsi kimi də səciyyələndirilə bilər. Bu savaşın xüsusən ilk mərhələsində azərbaycanlı xan və köklü bəy soylarının nümayəndələri ölkənin müxtəlif yerlərində alovlanan üsyanlara başçılıq etmişdilər. Əhəmiyyətli dərəcədə məhz bu üsyanların qarşısını almaqda acizlik göstərdiyinə görə A.P. Yermolov 1827-ci ilin martında diyarın idarəçiliyindən uzaqlaşdırılmış, onun yerinə general İ.F. Paskeviç gətirilmişdi. Düzdür, hökumət 1820-ci illərin sonlarında bəylərə münasibətdə müəyyən müsbət addımlar atdı, hətta 1830-cu il 13 iyul Ali buyruğu ilə yaxın keçmişdə müsadirə edilmiş malikanələrin əvvəlki sahiblərinə geri qaytarmış, habelə Sibirə sürgün edilmiş şəxslərin geri dönməsinə izn vermişdi. Həqiqətən də reskriptin dərcindən sonra malikanələrin əvvəlki sahiblərinə qatarılması xeyli miqyas aldı. Özü də söhbət təkcə mülklərdən deyil, həmçinin tiyullardan gedirdi. Yüksək rütbəli çar məmuru Nefedyevin 1837-ci ilin noyabr-dekabr aylarında tərtib etdiyi “Qeyd”lərdə Qarabağ əyalətində başda Mehdiqulu xan olmaqla, vaxtı ilə qaçmış ali silk nümayəndələrinin bir çoxunun geri döndüyü vurğulanırdı. Həmin sənədə əsasən, Qarabağ əyalətində 169 sahibkar nəsli mövcud idi ki, bölgədəki 20 min ailədən 12 mini həmin soylara məxsus kəndlərdə yaşayırdı[6, s.362-363]. Nefedyevin şahidliyinə görə, “Qarabağ və xüsusən Şuşa sakinləri tez bir surətdə malikanələr əldə edən və mülkədarlara çevrilən bəylərin uğurlarından şaşqındırlar, baxmayaraq ki, həmin bəylərin hamısı son savaşda iranlılar peyda olar-olmaz xəyanət yolunu tutmuş və onların qardaşlarından və qohum-əqrəbalarından çoxu indi də İran şahına qulluq edir”[6, s.365].

Artıq XIX əsrin 20-ci illərinin sonlarına doğru komendant üsul-idarəsi diyarın istər siyasi, istərsə də iqtisadi cəhətdən möhkəm mənimsənilməsi üzrə rus hökumətinin strateji hədəflərinə cavab vermirdi. 1830-cu illərin əvvəllərində Cənubi Qafqazı təftiş etmiş senatorlar P.İ. Kutaysov və Y.İ. Meçnikov Qafqazın baş komandanı İ.F. Paskeviçlə birlikdə “Zaqafqaziya diyarının quruluşu haqqında təkliflər”i işləyib hazırladılar[6, s.277-294]. Bu təkliflərdə regionun idarə olunmasının təkmilləşdirilməsi kimi “Zaqafqaziya diyarında rus zadəganlığının kök salması” vasitəsilə ruslaşdırma ideyası əksini tapmışdı. Sözügedən layihənin II bölməsi “müsəlman və erməni zadəganlığının təsis

edilməsi haqqında" adlanır[6, s.282-285]. Onun ana xəttini rus hakimiyyət dairələrinin həmin illərdə riayət etdiyi və guya müsəlman xalqlarında alicənab silkin olmadığı barədə mülahizə təşkil edir. Layihə müəlliflərinin fikrincə, xanlıqlarda iki zümrə mövcud idi: xan və onun qulları. Rus istilalarından sonra iddia olunurdu ki, xan ailəsi təmsilçilərinin də nüfuzu aşağı düşərək, qara camaatla qarışmışdı. Ona görə də yerli zadəganlığın təsis edilməsi zəruri vəzifə kimi irəli sürülürdü. Əslində Azərbaycanda əsilzadə zümrəsinin varlığını danmaq, və bu mülahizənin məntiqi davamı olaraq, rus hakimiyyətinin bilavasitə təşəbbüsü və iştirakı ilə yerli zadəganlıq institutunu yaratmaq müddəası çarizmin hətta mövcudluq faktına görə özündən büsbütün asılı olan, imperiya hakim çevrələrinin mənafeləri doğrultusunda hərəkət edən "müsəlman ali silki"nə nail olmaq istəyini tam çılpaqlığı ilə ortaya qoyurdu. Bu zaman müsəlman zadəganlığı hüququ 4 kateqoriyadan şəxslərə veriləcəyi güman olunurdu: 1) xan soyundan olanlar; onlar gürcü knyazlarına bərabər tutulmalı idi; 2) zadəganlıq verən rütbələrə layiq şəxslər; 3) öz xanlarından və İran şahlarından təliqə almış bəylər, ağalar və sultanlar; 4) yazılı sübutu olmayan, lakin mənsəbini 3 arxa dönənə kimi isbat edə biləcək şəxslər. Vətəndaşlar tərəfindən tanınan qalan bəylərə sadə xalq qarşısında müəyyən haqlar verilməsi nəzərdə tutulurdu.

Maraqlıdır ki, layihə çarizmdən şəxsən asılı "yerli zadəganlığın" sadəcə təsisi ilə işini bitmiş hesab etmir, bu silkin rus dövlətçiliyinə bağlılığı istiqamətində bir sıra vəzifələr, o cümlədən Tiflisdə zadəgan balaları üçün xüsusi təhsil-tərbiyə müəssisənin yaradımasını nəzərdə tuturdu. Tiflisdə 5 il oxuduqdan və 12 yaşına çatdıqdan sonra zadəgan balaları Moskvaya və və ya Peterburqa gedərək, orada təhsillərini başa vurmalı idilər. Məzun olduqdan sonra yalnız Rusiyada 5 il çalışmanın ardından həmin şəxslər öz yurdlarına qayıda bilərdilər.

Qafqaza senator P.V.Qanın təklifləri əsasında 1840-cı ilin aprelin 10-da çar hökuməti Cənubi Qafqazda inzibati islahat haqqında qanun dərc etdi[11, s.237-261]. "Zaqafqaziya diyarının idarə edilməsi üçün təsisat" adını almış bu islahat komendant üsul-idarəsini ləğv edirdi və Ümumrusiya inzibati idarəçiliyini daxil edirdi. Ona əsasən, Cənubi Qafqaz. Abxaziya, Minqreliya və Svanetiya istisna olmaqla, Gürcüstan-İmeretiya quberniyasına və Kaspi vilayətinə bölünürdü. Azərbaycan ərazilərinin bir qismi (Yelisavetpol, Balakən, İrəvan və Naxçıvan qəzaları) Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil edilmişdi.

Bu qanunun ən mühüm nəticələrindən biri o oldu ki, yerli xalqların nümayəndələri, o cümlədən azərbaycanlı bəylər və naiblər inzibati vəzifələrdən, o cümlədən polis funksiyalarından kənarlaşdırılırdılar və rus məmurları ilə əvəz olunurdular. Bununla bağlı hərbi tarixçi S. Esadze yazırdı ki, Qafqaza göndərilən rus məmurlarının "bir çoxu çağırıldıqları işin əhəmiyyətinə tamamilə uyğun deyildilər"[12, s.80].

Sözügedən qanuna əsasən, diyarın idarə edilməsi məqsədilə Baş İdarə Şurası yaradılmışdı. Həmin qurum ilk öncə 1839-cu ilin fevralın 28-də ermənilər tərəfindən məskun kəndləri ağaların idarəsindən azad etdi. Ardınca aprelin 15-də yerli feodalların torpaq hüquqları haqqında məsələyə baxaraq, belə bir nəticəyə gəldi ki, yalnız onlara bağışlanılmış, yaxud da əldə olunmuş boş və özləri tərəfindən məskunlaşmış torpaqlar bəylərin mülkiyyətində sayıla bilər. Qalan digər məskun torpaqlar isə bəylərin idarə etdikləri və mükəlləfiyyət aldıqları kəndli cəmiyyətlərinə məxsus idi[4, s.201-203].Hökumət ağalara ömürlük təqaüd verilməsi haqqında qərar qəbul etmişdi. Ağanın ölümü ilə onun varislərinə də təqaüdün verilməsi dayandırılırdı[7, s.8].

Beləliklə, yekun olaraq, qeyd edərdik ki, çarizmin nəzərdən keçirilən dövrdə Şimali Azərbaycanda yürütdüyü aqrar siyasəti əvvəla, Rusiyanın regionda siyasi hökmranlığını möhkəmlətmək canatımı ilə sıx əlaqədə idi: imperiya hökuməti istər yerli torpaq sahiblərinin hüququna mötədil yanaşanda da, istərsə də bu hüquqa əhəmiyyətli dərəcədə məhəl qoymadan müsadirələr keçirəndə hər şeydən öncə öz siyasi mənfəətlərini güdürdü. Digər tərəfdən, çarizmin aqrar siyasətinin xarakterinə, artıq qeyd etdiyimiz kimi, diyarın perspektivlərinə dair hakim çevrələrin yanaşmalarının fərqliliyi də önəmli təsir göstərirdi.

**Ədəbiyyat:**

1. Abdullayev M. Çarizmin Azərbaycanda aqrar siyasətinin istismarçı mahiyyəti (XIX yüzilliyin birinci otuz ili) // XIX əsrdə Azərbaycanın aqrar quruluşu (Elmi əsərlərin tematik məcmuəsi). Bakı: [s.n.], 1988, 232s.
2. Акты, собранные Кавказской археографической комиссией. Том 4. Тифлис: Типография Главного Управления Наместника Кавказского, 1870,док. №1028, 1019 с.
3. Акты, собранные Кавказской археографической комиссией. Том 6. Часть первая. Тифлис: Типография Главного Управления Наместника Кавказского, 1874,док. №1028, 957 с.
4. Акты, собранные Кавказской археографической комиссией. Том 9. Тифлис: Типография Главного Управления Наместника Кавказского, 1881, док. №218, 979 с.
5. Иваненко В.Н. Гражданское управление Закавказьем: от присоединения Грузии до наместничества великого князя Михаила Николаевича: исторический очерк. Тифлис: [б. и.], 1901, 525 с.
6. Колониальная политика Российского царизма в Азербайджане в 20-60-х гг. XIX в.Ч. I. 480 с.

7. Кучаев М.Н. Поземельное устройство государственных крестьян, водворенных на владельческих землях в закавказских губерниях // Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. Том 1. Часть 2. Тифлис: Типография Я.И. Либермана, с. 1-70
8. Мильман А. Ш. Политический строй Азербайджана в XIX-начале XX веков: (административный аппарат и суд, формы и методы колониального управления). Баку: Азернешр, 1966. 320 с.
9. Мочалов В.Д. Крестьянское хозяйство в Закавказье к концу XIX века. М.: Издательство АН СССР, 1958, 491 с.
10. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении. Л.: Издательство ЛГУ, 1949. 380 с.
11. Полное Собрание Законов Российской Империи. Собрание 2-ое. Том XV. Отделение 1-ое. СПб: Типография II Отделения Собственной Е.И.В. Канцелярии, 1841, ст. №13368, с. 237-261
12. Эсадзе С. Историческая записка об управлении Кавказом. Т.1. Тифлис, 1907, 616 с.

# 1918-Cİ İL MART-İYUL AYLARINDA ŞAMAXIDA MÜSƏLMANLARA QARŞI TÖRƏDİLƏN QIRĞINLARDA MOLOKAN DƏSTƏLƏRİNİN İŞTİRAKI.

**Eldar Hacıyev**
Azərbaycan Dövlət Pedaqoji Universiteti.
hacieldar55@gmail.com

***Açar sözlər:*** *molokan, Qozlu Çay, Mixmili, skop, baptist, subbotnik*

*Məqalədə elmi ədəbiyyatlar və arxiv materialları əsasında 1918-ci il mart-iyul aylarında Şamaxı qəzasında azərbaycanlılara qarşı törədilən soyqrımında ermənilərlə birlikdə iştirak edən molokan dəstələrinin törətdikləri cinayətlərin təsviri, onları bu qırğınlarda iştiraka sövq edən səbəblər və onun ağır nəticələri işıqlandırılmışdır.Məqalədə Şamaxı qəzasında yerləşən rus və molokan kəndlilərinin miqdarı, yerləşmələri, onların təsərrüfat həyatı və məşğuliyyətləri barədə məlumat verilir. Məqalədə azərbaycanlılar ilə molokanlar arasında mövcud olan milli və dini baryerlərə də xüsusi diqqət yetirilir. Fövqalədə İstintaq Komissiyasının materiallarında toplanan çox saylı şahid ifadələri əsasında elmi təhlillər aparılır, Şamaxı qəzasında molokanları qırğın və talanlara təhrik edən səbəblər göstərilir. Eyni zamanda qeyd edilir ki, yad torpaqlarda məskunlaşan və rus dövlətinin himayəsindən məhrum olan molokanlar bolşeviklərin simasında özlərinə yeni ictimai-siyasi dayaq əldə etmək istəyiblər.*

## УЧАСТИЕ МОЛОКАНСКИХ ОТРЯДОВ В РАСПРАВАХ НАД МУСУЛЬМАНАМИ В ШЕМАХЕ В МАРТЕ-ИЮЛЕ 1918 ГОДА.

**Эльдар Гаджиев**

***Ключевые слова:*** *молокан, Козлу Чай, Михмили, скоп, баптист, субботник*

*В статье на основе научных литератур и архивных материалов изучается событие в Шемахинском уезде март-июле в в 1918-года. Когда молоканские отряды вместе армянами участвовали в погромах и резнях против мусульманского населения в уезде. Одновременно анализируется причины и последствия этого акта. В статье приведены сведения о численности русских и молоканских крестьян проживающих в Шемахинском уезде, их местонахождении, хозяйственной жизни и*

*занятиях. В статье также уделяется особое внимание национальным и религиозным барьерам между азербайджанцами и молоканами. В материалах Черезвычайной Следственной Комисии проводится научный анализ на основании многочисленных показаний свидетелей и показаны причины спровоцировавшие молокан на резню и грабежи в Шемахинском уезде. При этом отмечается, что молокане живщие в чужих землях и лишенные защиты русского государства хотели получить новую общественно-политическую опору в лице большевиков.*

## PARTICIPATION OF MOLOKAN GROUPS IN MSSACREZ AGAINST MUSLIMS IN SHAMAKHI IN MARCH- JULE 1918.

**Eldar Hajiyev**

***Key words:*** *molokan, Kozlu Çay, Mixmili, skop, Baptist, subotnik*

*Based on scientific literature and archival materials, the description of the crimes committed by the Molokan gangs who took part with the Armenians in the genocide committed against the Azerbaijanis in the Shamakhi district in March-July 1918, the reasons that prompted them to participate in these massacres and its grave consequences are highlighted in the article.*

*The article provides information on the number of Russian and molokan peasants located in Shamaki district, their economic laife and occupations. The article also pays spesial attention to the national and religious barriers between azerbayjans ahd molokans. In the materials of the Exstraordinary Investiqation Commission scentific analyzes are conducted on the basis of numerous witness statements ahd the reasons that provoked the molokans to mssacre ahd looting in the Shmakhi accident are show. At the same time it is noted that molokans livinq in foreingn lands and deprived of the protection of the Russian stete wanted to get a new sosio-political support for their eyes in the fase of the bolsheviks.*

Şamaxı şəhərində və qəzanın kəndlərində azərbaycanlılara qarşı törədilən qarət və qırğınlarda erməni silahlı dəstələri ilə birlikdə molokan kəndlərindən olan dəstələr də iştirak etmişdir. Çar hökumətinin vaxtından belə azərbaycanlılar ilə molokanlar arasında ciddi ixtilaflar olmamış, heç bir tərəf o biri tərəfə qarşı düşmənçilik hərəkətlərinə yol verməmişdir. Onlar bir-birləri ilə qarşılıqlı ticarət əlaqələri saxlamış, müsəlmanlar öz buğdalarını Qozlu Çay və Pirsaatçay üzərində qurulmuş molokanlara məxsus su dəyirmanlarında üyütmüşlər. Məntiqi sual ortaya çıxır ki, müsəlmanlar ilə yaxşı münasibətdə

olan molokanlar niyə erməni silahlı dəstələri ilə birləşərək azərbaycanlılar yaşayan kəndlərə qarətçi basqınlar etmişlər?

Bu suala cavab verməmişdən əvvəl Şamaxı qəzasında yerləşən rus və molokan kəndlilərinin miqdarı və yerləşmələri ilə bağlı ümumi rəqəmlərlə tanış olaq. 1917-ci ilin yanvarın əvvəlləri üçün Şamaxı qəzasında 19393 nəfər rus əhalisi yaşayırdı və onların da boyük əksəriyyəti təriqətçilər idi. Şamaxı şəhərinin özündə isə 1737 nəfər rus yaşayırdı. Onların 1158 nəfəri pravoslav məzhəbinə məxsus olan məmurlar və qulluqçular idi, 597 nəfəri isə müxtəlif təriqətlərə aid idilər. Təriqətçilərin içərisində müxtəlif sektalara məxsus molokanlar, skoplar, subbotniklər, baptistlər, duxaborlar və s. var idi. Onların əksəriyyətini molokanlar təşkil etdiyindən yerli əhali onların hamısını "molokan" adlandırırdı. Üç mindən çox əhalisi olan Xilmili (Qozluçay), iki mindən çox əhalisi olan Astarxanovka (Qız-Meydan), Çuxur-Yurd, Altı Ağac ən böyük molokan kəndləri hesab olunurdu [1].

Yerli müsəlman əhali molokanlara düşmən münasibəti bəsləməsələr də, onların torpaqlarına gələnlərə məhəbbət də bəsləmirdilər. Lakin buna baxmayaraq onlar biri-birinin evinə qonaq gedir, qonşuluq münasibətlərini saxlayırdılar. Köklü yerli əhali ilə gəlmələr arasında qohumluq əlaqələri qurulmurdu. Buna nə şəriət qaydaları, nə də molokanların ciddi dini qaydaları yol vermirdi.

1918-ci ilin martında molokanlar nəyə görə dünənə qədər mehriban yaşadıqları müsəlman qonşularının üzərinə hücum etdilər. Nəyə görə onlar ermənilərin tərəfini tutaraq müsəlmanlara qarşı əsil müharibəyə başladılar. Sonradan molokanlar azərbaycanlılara qarşı qarətdə iştiraklarını qəti şəkildə danaraq, baş verən hadisələrə görə erməniləri və bolşevikləri günahlandırdılar. Bu məsələyə aydınlıq gətirmək üçün həm müsəlmanlardan, həm də xristianlardan olan şahid ifadələrinə müraciət etmək lazım gəlir. Məsələn, Əngəxaran kənd sakini Əvəz Məhəmməd oğlu kəndə hücum edən molokanlardan bir neçəsini tanımışdı. Onun dediklərindən:"mən fikir verdim ki, kəndə olan hücumda yaxın dörd kəndin; Çuxuryurd, Çobanı, Qız-Meydan və Nağaraxana kəndlərinin molokanları iştirak edirdi. Onların içərisindən Semyon Yurini, Boris və Yakov Polovinkiləri tanıdım. Yurin bu yaxılarda iki öküzümü geri qaytarmışdır" [2, s. 12].

Molla Almaz Molla Fərhad oğlu da ifadəsində təsdiq edir ki, hazırda molokanlar qarət etdikləri əşyaları geri qaytarırlar [2, s.12]. Təklə Hacı Məmmədhüseyn kəndindən olan Məhəmməd bəy Məlikbəyov qarətçilərin adlarını göstərə bilməsə də, ifadəsində bəzi məqamlara aydınlıq gətirmişdir:" Kim yandırıb və qarət edib bilmirəm, Lakin bu yaxınlarda Xilmili kəndindən olan bir molokan Maksim Bannikov mənə üç stulu və bir kravatı geri qaytarıb" [2, s.19].

Molokanların qarətdə iştirak etmələri şübhə doğurmur.Çoxsaylı protokollarda olan şahid ifadələri də bunu sübut edir. Əngərəxan kənd sakini 55 yaşlı müsəlman qadın İreyhan Ağa qızı bildirmişdirNovruz bayramıdan yeddi gün sonra kəndimizə ermənilərlə əlbir olan molokanlar hücum etdilər... Onların hamısı odlu silahla silahlanmışdılar. Onlar kənddən bütün cavan müsəlmanları aparmaq üçün gəlmişdilər. Onlar üç-dörd nəfərdən ibarət dəstələrə bölünərək evləri gəzib aparmaq istədikləri adamları adları ilə çağırmağa başladılar. Hücum edənlər axtardıqları müsəlmanları tapanda onları evin qarşısında güllələyirdilər. Beləliklə bizim kəndimizdən 100 adam öldürüldü. Bununla yanaşı onlar ərlərini müdafiə edən iki qadını ; Minayə Əlibaba qızını və Həcər Əhmədqızını öldürdülər. Bütün əşyalarımı molokanlara verdikdən sonra qoca molokan mənim oğlum Bəhramı evdə qoya bilməyəcəyini bildirdi; çünki o, bütün müsəlmanları öldürmək və əsir götürmək haqqında əmr almışdır. Ona görə onlar oğlum Bəhramı və Əngərəxan kəndindən olan 16 cavan müsəlman ilə birlikdə kəndin arxasında yerləşən Çildaşlıq deyilən yerə apardılar... Onlar molokanlar tərəfindən tüfəng və berdankalarla öldürüldülər [3, s.99].

Həmin kəndin sakini olmuş, hadisələri gözləri ilə görən 28 yaşlı Gəray Babaş oğlu, 25 yaşlı Məmmədxan İsgəndər oğlu və Əlinur Qədir oğlunun yerdikləri ifadələrdə milikanların və onlara başçılıq edən Mixail Yurinin quldurluq və qətl hadisələrinə rəhbərlik etməsi təsdiqləndiyi halda, M. Yurin istintaqa verdiyi ifadədə bunları inkar edir, İreyhan Ağa qızının qərəzli şəkildə onu şərlədiyini göstərir. Mixail Yurinin ifadəsindən: “ Mənə qarşı irəli sürülən ittihama görə özümü təqsirli bilmirəm. Günahsızlığımı sübut etmək üçün göstərirəm : keçən ilin payızında İreyhan Ağa qızı Çuxur Yurd kəndinə Kuzma Yurinin yanına gələrək demişdi ki, əgər mən İreyhanəyə 300 rubl pul verməsəm məni onun evinə hücum etməkdə günühlandıracaq. İreyhanənin evinə heç bir hücum olmayıb və mən nə bu, nə də digər oxşar işlər görməmişəm” [4, s. 111-112].

Şamaxı Qəza-şəhər İstintaq sahəsinin müstəntiqi M. Yurinə qarşı olan sübutları əsas götürərək istintaq qurtarana qədər onun Göyçay turməsində saxlanılması barədə qərar çıxarmışdı. İstintaqın gedişində ifadələri alınan molokanlar Əngərəxan kəndində olan qırğın və qarətin bolşeviklər tərəfindən törədildiyini, molokanların bu talanlarda iştirak etmədiklərini bildirir, Mixail Yurinin isə həmin vaxtlarda əks istiqamətdə yerləşən Mədrəsə kəndində olduğunu deyirdilər [4, s.137].

İstintaqa cəlb olunan maddi sübutlar və çox saylı şahid ifadələri molokanların qarət və qırğınlarda iştirak etmələri barədə şəkk-şübhə yaratmır. Lakin molokanların ermənilərlə birlikdə müsəlmanlara qarşı çıxmasına təhrik edən səbəblər özlüyündə çoxlu suallar doğurur. İstintaq materiallarından da görünür ki, bu məsələ müstəntiqləri də maraqlandırmışdır və onlar dindirdikləri bütün adamlardan molokanların ermənilərlə birlikdə çıxış etmələrinin

səbəblərini soruşmuşlar. İfadəsi alınanların cavabları isə əsasən delə olurdu:” Mən bunları izah edə bilmirəm. Onlar ermənilərlə birlikdə hərəkət edirdilər, ancaq molokanlar idi... Onların bizə qarşı olan qəddar hərəkətlərini anlaya bilmirəm” [5, s. 31].

Savadlı və ictimai işlərdə fəal iştirak edən tək-tək şamaxılıların molokanların müsəlmanlara qarşı qırğında iştirak etmələri barədə öz mülahizələri var idi. Məsələn, Muğanlı kənd sakini Abbas bəy Ümüd bəy oğlu İsrafilbəyov molokanların həmin mövqeyi ilə bağlı demişdir :” Onlar bolşevik bayrağı altında çıxış edən ermənilər tərəfindən aidadılmışdılar və molokanları inandırmışdılar ki, onlar bizə qarşı siyasi mübarizə aparırlar. Tezliklə molokanlar aldandıqlarını başa düşüb ermənilərdən uzaqlaşdılar” [6, s.3].

Osmanbəyli kənd sakini Şahlar bəy Şıxəlibəyov da belə hesab edirdi ki, molokanlar cinayətkar millətçi məqsəd güdən ermənilər tərəfindən aldadılmışdılar. “İş burasındadır ki, Şamaxı qəzasında Hakimiyyəti ələ keçirməyə can atan ermənilər əhalini bolşeviklərə tabe etdirməyə çalışırdılar. Onlar bu bayraq altında çıxış etdilər və molokanları da öz təəflərinə çəkdilər. Bunların hamısı görüntü idi, başlıcası onların müsəlmanlara olan düşmənçiliyi və onları məhv etməyə can atmaları idi “ [7, s. 76].

Bakıda yaşayan rus əhalisinin ayrı-ayrı nümayəndələri molokanların ermənilərlə birlikdə müsəlman əhalisimə qarşı törətdikləri cinayətlərə görə təəssüf hissləri keçirdiklərini bildirsələr də, son məqamda onların ermənilərin silahlı hədələri qarşısında belə etdiklərini təsdiqləyirlər. Məsələn, Bakının keçmiş qradonaçalniyi olmuş Yakov Nikolayeviç Smirnov İstintaq Komissiyasına verdiyi ifadədə bildirir ki, silahlı erməni dəstəsinin başında duran Tatevos Amirov və Stepan Lalayev güllələmək hədəsi ilə molokanları azərbaycanlıların yaşadıqları Mərəzə kəndinə hücuma aparmışdır. Bu sözlərdə müəyyən həqiqət olsa da, çox saylı faktlar molokanların müstəqil olaraq hücumlarda iştirak etdiyini də göstərir. Müstəqil iştirak etdikləri həmin hücumlarda onlar heç də ermənilərdən geri qalmamışdılar. Ona görə də molokanların “erməni tərəfindən aldadılması” və ya “ermənilər tərəfindən silsh gücünə bu işlərə təhrik edilmələri” heç də inandırıcı deyildir. Bir molokanın Şamaxı şəhərinin sakini Əbdül Hüseyn Əliyevin “nəyə görə siz bizə qarşı çıxırsınız?- sualına cavab olaraq “biz güclünün tərəfini tuturuq”- deməsi həqiqətə daha uyğun görünür.

Molokanları müsəlmanlara qarşı çıxış etməyə təhrik edən amillər sırasında hərislik və quldurluq yolu ilə zənginləşmək amillərini də nəzərdən qaçırmaq olmaz. Çünki, həmin dövrdə qəzanın ictimai-siyasi həyatında özünü göstərən özbaşınalıqlar, cəzasızlıq və anarxiya kimi halların mövcudluğu molokanlar üçün quldurluq hərəkətlərinə zəmin yaratmışdır. İfadələrin birində deyilir :” O vaxt türklər Kürdəmirdə olanda kəndə (Qəleyi-Buğurd) Çuxur-Yurd kəndindən olan silahlı molokan- Semyon Qara İvan oğlu gəldi və bizim 45 baş

iribuynuzlu malımızı apardı. O, lovğalanaraq deyirdi ki, ermənilər kütləvi şəkildə hücum edirlər, amma mən tək"[8, s.54]. Baş verən hadisələr müsəlman kəndlilərinin canına necə qorxu salıbsa, bir nəfər quldurun qarşısını almaqdan qorxublar.

Molokanlar qonşu kəndlərdə olan müsəlman tanışlarının əmlaklarına sahib olmaq üçün hiyləyə də əl atmaqdan çəkinməyiblər. Məsələn, Çuxur-Yurd molokanı Semyon Popov oğlanları Vasili və İvan ilə birlikdə Qəleyi Buğurt kəndinə gələrək tanışları Hacı Comər Hacı Orucəli oğluna onları bolşeviklərdən qorumaq bəhanəsi ilə Çuxurd Yurd kəndinə getmələrini təklif edib, Eyni zamanda onlara özləri ilə üç baş iribuynuzlu malqaranın da aparmalarını təklif edib. Hacı Comər iki öküz və bir inəyini götürüb onlarla gedib. Ondan sonra həmin adamdan və onun heyvanlarından xəbər çıxmayıb [9, s.76].

Azərbaycan Xalq Cümhuriyyətinin istintaq orqanları tərəfindən dindirilən onlarla molokan onlara qarşı çoxsaylı faktların olmasına baxmayaraq azərbaycan kəndlərində qarət və qırğınlarda iştiraklarını təkzib edir, hətta baş verən hadisələrdə müsəlmanları günahlandırırdılar. Onlar ifadələr verərkən bir-birləri üçün albi yaradır, hətta ümumi suallara cavab verməkdən imtina edirdilər. Əngəxaran kəndində baş verən qarət və dağıntılarla bağlı həs olunan bir qurup molokan Xalq Cümhuriyyətinin parlamentinə ünvanladıqları ərizədə baş verənlərə görə müsəlmanları günahlandıırırdılar. 1917-ci ildə Müvəqqəti Hökumətin devrilməsindən sonra qəzada yaranan anarxiya və terrora görə məsuliyyəti müsəlmanların üzərinə qoyur, özlərini bu hadisələrin qurbanları kimi qələmə verir və iddia edirdilər ki, müsəlmanların quldur dəstələrinin hücumlarına məruz qalıblar. Nümunə olaraq onlar qonşu kənddən olan Hacı Qədir və Hacı Sultanın adlarını götərirlər. Moıokanlar qeyd edirlər ki, bu adamların rəhbərliyi altında olan min nəfərlik dəstə Çuxur Yurdlu Flipp Vlasovun xutoruna hücum etmiş və Flipp Vlasovu yaralamışdı [10, s.54].

Təəccüblü odur ki, ərizə ilə müraciət edən şəxslər kiçik bir xutora min nəfərlik dəstənin hücum etməsinə və heç kəsin öldürülməməsinə özləri inanardılarmı?

Təbii ki, qəzada müsəlmanlardan ibarət kiçik quldur dəstələri olub və onların hərəkətlərindən təkcə xristianlar deyil, müsəlmanlar da çox ziyana düşüblər. Lakin belə dəstələrin ziyankar fəaliyyəti qəzanın bütün kəndlərinə molokanların amansız hücumlarına bəraət verə bilməzdi.

Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinə müraciət göndərən molokanlar kəndə gələn "sovet ordu hissələrinə" müqavimət göstərdiklərinə və həmin hadisələrə "milli xarakter" verməkdə Əngəxaranlıları günahlandırırdılar. Onlar müsəlmanlar tərəfindən rusların yaşadıqları Nova Dmitriyevka və Cobanı kəndlərinin yandırıldığını, həmin kəndlərdə yüzə qədər rus əhalisinin öldürüldüyünü iddia edirdilər. Lakin Fövqalədə İstintaq Komissiyası rus

kəndlərində dinc əhalinin öldürülməsi ilə bağlı heç bir fakt ortaya çıxara bilmədi. Və milokanların bu iddiaları təsdiqlənmədi.

İstintaq protokollarında tez-tez " molokanlar bolşevik ideyasının ardınca gedirdilər", " molokanlar bolşeviklər kimi", " molokanlar bolşeviklərin adından", "molokanlar bolşevik adı ilə" və s. kimi ifadələrə rast gəlinir. Bu sözlərdə kifayət qədər ciddi məqamlar gizlənsə də, zərər çəkmiş müsəlmanlar molokanların hansısa bir ideya daşıyıcıları olmalarına inanmır və bildirirdilər ki, onları (molokanları) zorakılıq, qarət müsəlmanları öldürməkdən başqa heç bir şey maraqlandırmırdı.

Molokanların müsəlman kəndlilərinə olan münasibətlərinə digər prizmadan da yanaşmaq olar. Dini baxışlarına görə sektantları doğma kəndlərindən köçürən rus hökuməti müstəmləkə ərazisində molokanları yenə də özününkü hesab edir və yerli xalqla müqayisədə onlara daha imtiyazlı şərait yaradırdı. Çar hökumətinin Azərbaycana köçürmə siyasəti ilə bağlı məsələləri tədqiq etmiş M.A.Muradov rus sektantları ilə bağlı yazmışdır: " rus sektantlarının ilk illərdə Zaqafqaziyaya, ( Cənubi Qafqaza-E.Hacıyev) o cümlədən Azərbaycana köçürülməsi dini pərdə altında həyata keçirilirdi. Çarizmin bu məsələdə mövqeyi iki taktiki xətlə sıx bağlı idi; bir tərəfdən Rusiyada baş qaldıran kəndli narazılıqlarında fəal iştirak edən təriqətçiləri uzaqlaşdırmaq və digər tərəfdən Azərbaycanda yaşayış məskənləri yaratmaqla, bu regionda müstəmləkə siyasətinin həyata keçirilməsi üçün zəruri etimad dayaq təbəqələri yaratmaq idi [11, s.11].

Rus müstəmləkə dairələrində rus köçkünlərindən Azərbaycanı idarə etmək məqsədilə daha geniş planda istifadə etmək qərara alınmışdı. Bu məqsədlə də Azərbaycana sürgünə göndərilən təriqətçilərə rəsmi dairələr tərəfindən diqqət artırılmışdı. Təriqətçilərlə bağlı yeni siyasət hər şeydən öncə onların bir yerdən başqa yerə köçmələrini qadağan edən qanunların ləğvində təzahür etdi. Belə ki, 1837-ci ildə qəbul edilmiş hökumət qərarında sektantlarla bağlı pasport rejimi ləğv edildi, sürgün olunduqları ərazidə onların sərbəst hərəkət etmələri üçün icazə verildi. Yeni qərar sürgün olunmuş təriqətçilərin hökumətə olan münasibətində müsbət dəyişikliklərin yaranmasına səbəb oldu və onların rus hökumətinə sədaqət dairəsi nisbətən genişləndi [11, s.33]. Özgə torpaqlar hesabına özlərinə daha yaxşı şərait yaradan rus bidətçiləri özlərini bu torpaqların ağası kimi aparır, yerli sakinlərin həmin torpaqlardan sıxışdırılıb çıxarılmasına nail olmaq istəyirdilər. Görünür molokanları qırğın və talanlar dövründə ermənilərlə yaxınlaşdıran amillərdən biri də məhz bu olmuşdur.

İnqilab dövründə rus əsgər və zabitləri, dövlət məmurları Şamaxı qəzasını tərk etdilər. Molokanlar isə burada qalmaqla Şamaxı qəzasında (ümumiyyətlə Azərbaycanda) rus amilinin yaşaması üçün bir növ istinadgah oldular.

Rus əhalisi, o cümlədən kolonistlər hakimiyyətə can atan siyasi partiyaların diqqətindən kənarda qalmadılar. Molokanların bolşeviklər tərəfindən necə siyasətə cəlb olunmalarını və onlar arasında mövcud olmuş əlaqələri araşdırmaq ayrıca bir məsələdir. Bakıda "Rus Milli Cəmiyyəti"nin nümayəndəsi olmuş B.L.Baykov səhvən belə qənaətə gəlir ki, "rus milli hökumətinin süqutundan sonra həmin rus kənd əhalisinin arxalanmağa heç kimi yox idi"[12, s. 114].

İqtibasdan belə nəticə çıxır ki, molokanlar hakimiyyətsizlik və anarxiya şəraitində özlərini qorumaq üçün hansısa bir yolu seçməli idilər. Əvvala, Şamaxı qəzasında rus əhalisi üçün nə müsəlman, nə də erməni əhalisi tərəfindən heç bir real təhlükə mövcud deyildi. Qəzada "hakimiyyətsizliyi" yaşayan bütün xalqlar öz üzərilərində belə təhlükə hiss edirdilər. Lakin bu hakimiyyətsizlikdən bəzi xalqlar hakimiyyətə gəlmək məqsədi üçün istifadə etmişdilər. Digər tərəfdən müsəlmanlar ilə ermənilər arasında yaşanmış qarşıdurmanı nəzərə alsaq, molokanların vəziyyəti o birilərinə baxanda daha yaxşı idi. Bu vaxta qədər cəmiyyətin qeyri-fəal üzvü olan molokanlar ətraflarında cərəyan edən hadisələrə qoşulmaqla sözsüz ki, seçimlərini etməli, bu və ya digər tərəfi müdafiə etməli idilər. Yüz illər boyu siyasətə qoşulmayan rus təriqətçi cəmiyyəti xristianlığın və siyasətə qoşulmağın xeyrinə seçimlərini etdilər.

Milli hakimiyyət strukturlarına malik olmayan, doğma torpaqlarına sahib olmaq hüquqlarını müdafiə edən müsəlman cəmiyyətini molokanlar özləri üçün nə dərəcədə təhlükəli hesab edirdilər. Molokanların ermənilər və bolşeviklərlə birləşərək qəzanın dinc sakinlərinə qarşı törətdikləri vəhşiliklər, qəddarlıqlar onların "təhlikə hesab etdiklərinə" bəraət qazandıra bilməzdi.

Sonralar baş verən hadisələr molokanların erməni-bolşeviklərlə ittifaqının uzunömürlü olmadığını göstərdi. 1918-ci ilin iyulun axırlarında Bakı Komunnasının hakimiyyətdən getməsi ilə molokanlar özlərini erməni və bolşevik müttəfiqlərindən dərhal ayıraraq silahlarını yerə qoyub evlərinə döndülər. Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra Azərbaycanın digər vətəndaşları kimi molokanların da bərabər hüquqlarına təminat verildi. Molokan təriqəti yenidən özünə qapanaraq müsəlmanlar ilə münasibətləri qaydaya salmağa çalışdı.

## Ədəbiyyat:

1.Рустемова- Тогиди С. Шемаха. Март-июль 1918 г. Азербайджанские погромы в документах. Т.1 Баку, 2013.
2. ARDTA , fond 1061, siyahi 1, iş. 104, vərəq 12.
3. Yenə orada, iş.110, vərəq,19.
4. Yenə orada, iş 110, vərəq.99
5. Yenə orada, vərəq 111-112
6. Yenə orada, vərəq 137-139
7. Yenə orada, iş 106, vərəq.31,9, 20.
8.Yenə orada, fond.700, siyahi1, iş12, vərəq.3.
9. Yenə orada, fond 1061, siyahı 1, iş 105, vərəq 76.
10.Yenə orada, iş.6, vərəq 54.
11. Muradov M.A. Çar Rusiuasının Azərbaycana Köçürmə siyasəti. Bakı, 1994.
12.Байков Б.Л. Воспоминания о революции в Закафказье Архив русской революции. М., 1991, Т. 9-10.

# QARABAĞIN MƏDƏNİYYƏT TARİXİ.

**Eldar Muxtarlı**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
eldar_muxtarli@mail.ru
**Firuzə Qurbanova**
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
Firuze.qurbanova@sport.edu.az
**Xəlil Bayramov**
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
Bayram.xelilov@sport.edu.az

***Açar sözlər:*** *Azərbaycan, Qarabağ, qədim Şuşa şəhəri, Şuşanın tarixi və mədəniyyəti, milli xalq oyunları.*

*Azərbaycan xalqı mədəni inkişaf cəhətdən başqa xalqlardan geri qalmamışdır. Azərbaycanın mədəniyyəti, ovçuluğu kaman və oxun ən erkən təsvirləri Qobustan qayaüstü rəsmlərində öz əksini tapmışdır. XI-XII əsirlərin xarakterik xüsusiyyəti Azərbaycan ölkəsinin və şəhərlərinin intensiv inkişafı idi. Qarabağ bölgəsi nəinki, Azərbaycanın, həmçinin dünya ölkələrinin bir çox bölgələrindən fərqli olaraq daha qədim tarixə malik olan bir ərazidir. Azərbaycanın Qarabağ ərazisində nizə və ox atmaq, qılınc oynatmaq, pəhləvanlıq və güləşlə məşğul olmuşlar. Qısa tarixi dövürdə Şuşa şəhərində çoxlu istedadlı şairlər, alimlər, müəllimlər, pəhləvanlar və sənətkarlar yetişmişdir. Qarabağ musiqisi, abidələri, mədəniyyəti və milli xalq idman oyunları bizim mədəniyyət tariximizin arxivi və sərvətidir*

## КУЛЬТУРНАЯ ИСТОРИЯ КАРАБАХА.

**Эльдар Мухтарлы**
**Фируза Гурбанова**
**Халил Байрамов**

***Ключевые слова:****Азербайджан, Карабах, древний город Шуша, история и культура Шушы, национальные народные игры.*

*Азербайджан не отстал от других народов в плане культурного развития.Археологические раскопки подтверждают, что первобытные люди появились в Азербайджане еще в период палеолита.В Азербайджане оно развивалось, не отставая от других стран. Самые ранние*

*изображения азербайджанской культуры, охоты, стрелба из лука отражены в наскальных рисунках Гобустана.Характерной особенностью XI-XII веков было интенсивное развитие Азербайджана и его городов.Карабахский регион – территория с более древней историей, в отличие от многих регионов Азербайджана и мира.В Карабахском районе Азербайджана занимались метанием копий и стрел, игрой на мечах, борьбой.За короткий исторический период в городе Шуша выросло множество талантливых поэтов, ученых, педагогов, борцов и художников.Карабахская музыка, памятники, культура и национальные спортивные игры – это архив и богатство нашей культурной истории.*

## CULTURAL HISTORY OF KARABAKH.

**Eldar Mukhtarly**
**Firuza Gurbanova**
**Khalil Bairamov**

***Keywords:****Azerbaijan, Karabakh, Ancient city of Shusha, History and culture, National folk games.*

*Azerbaijan has not lagged behind other nations in terms of cultural development. The results of scientific studies show that culture and physical education were developing in Azerbaijan, not lagging behind other countries. The earliest depictions of Azerbaijan's culture, hunting, bow and arrow are reflected in Gobustan rock paintings.*

*The characteristic feature of the XI-XII centuries was the intensive development of Azerbaijan and its cities. The Karabakh region is an area with a more ancient history, unlike many regions of Azerbaijan and the world. In the Karabakh region of Azerbaijan, they engaged in throwing spears and arrows, playing with swords, wrestling and wrestling. In the short historical period, many talented poets, scientists, teachers, wrestlers and artists grew up in the city of Shusha.Karabakh music, monuments, culture and national sports games are the archive and wealth of our cultural history.*

Azərbaycan qədim mədəniyyətə malik ölkələrdəndir. Arxeoloji qazıntılar təsdiq edir ki Azərbaycanda ibtidai insanlar hələ paleolit dövründə peyda olmuşdurlar. Insanlar həmişə təbii qüvvələrin təsirinə məruz qalmaqla mübarizədə bərkimişdir. Mövcudluq uğrunda gündəlik mübarizədə fiziki keyfiyyətlər və hərtərəfli hərəkət fəaliyyəti tələb edirdi. Qədim insan fəaliyyətinin əsas cəhəti ovçuluq idi. Neolit dövründə kaman və ox meydana gəlir. Ovçuluq alətlərinin meydana gəlməsi, həmçinin təkminləşdirilmiş daş silahlarının tədbiq edilməsi, heyvanların əhilləşdirilməsinə keçid və yeni

mədəniyyət formalarının inkişafına şərait yaradır. Insan cəmiyyətinin təşkilat formaları daha sabit şəkil alır. Bu dövürdə fiziki təmrinlər tərbiyənin əsas vasitəsinə çevrilir.

Arxeoloji kəşiflər xəbər verir ki, Azərbaycanın tarixi ərazisində yaşayan qəbilələr əla döyüşçülər olmuşlar. Azərbaycanın cənub hissəsində Urmiya (Urmiya gölü-İranın Şərqi Azərbaycan və Qərbi Azərbaycan vilayətləri arasında, Türkiyə ilə sərhəddən bir qədər aralıda yerləşən qapalı, duzlu göl) gölündən cənubda və şərqdə ölkənnin ən qədim qəbilələrindən biri olan manneylər (Manna, Minni və ya Manas e.ə. IX əsr-e.ə. VI əsrlərdə tarixi Azərbaycan ərazisində, indiki CənubiAzərbaycanın şimal-qərbindəki Urmiyagölünün sahilində qədim dövlət) yaşayırdı. Onların yaşadığı ərazi Manna adlanırdı.

Artıq eradan əvvəl IX əsrdə manney qəbilələrinin birləşməsi baş baş verdi və Manna dövlətinin rüşeyimi yarandı. Manna dövlətində əkinçilik və maldarlıq geniş inkişaf edirdi. Manna atları böyük şöhrət qazanmışdır. Həmin atlar öz gücü və dözümü ilə şöhrət qazanmışdır. Tarixi Azərbaycanın qəbilələri at cıdırlarına xüsusi əhəmiyyət verirdi. Herodort (Herodot yun. Hērodotos Halikarnāsseus; təq. e.ə. 484, qədim yunan tarixçisi) göstərirdi ki, Azərbaycan qəbilələri uşaqlara 5-yaşdan 25-yaşına kimi yalnız üç fənn təlim eirdilər: at çapmaq, kamandan ox atma və dürüstlük. Qobustandakı arxeoloji kəşflər həm də cıdır və qaçışların populyarlığından xəbər verir.

Qədim dövürlərdə və orta əsirlərdə Azərbaycanda fiziki tərbiyə məsələlərinin öyrənilməsi üçün dini ayinlər toplusu olan “Avesta” mühüm mənbə sayılırdı. Elmi tədqiqatların nəticələri göstərir ki, mədəniyyət və bədən tərbiyəsi Azərbaycanda başqa ölkələrdən geri qalmayaraq inkişaf edirdi. Azərbaycanın mədəniyyəti, ovçuluğu kaman və oxun ən erkən təsvirləri Qobustan qayaüstü rəsimlərində öz əksini tapmışdır [1, səh 6-7].

XI-XII əsirlərin xarakterik xüsusiyyəti Azərbaycanölkəsinin və şəhərlərinin intensiv inkişafı idi. Qarabağın ədəbi tarixi çox qədimdir. Qarabağ bölgəsi nəinki, Azərbaycanın, həmçinin dünya ölkələrinin bir çox bölgələrindən fərqli olaraq daha qədim tarixə malik olan bir ərazidir. Məhz, Qarabağ bölgəsi özünün tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə zəngindir. Qarabağın bədii təfəkkür və yaradıcılığına bölgənin gözəl təbiəti, iqlimi, təbii sərvətlərinin zənginliyi də böyük təsir göstərmişdir.

Bu bölgə zaman-zaman bəşər mədəniyyətinə böyük dahilər, istedadlı sənətkarlar bəxş edib. Musiqinin, təsviri sənətin, şeirin, el nəğmələrinin beşiyi olan qədim Qarabağ haqqında müxtəlif qaynaqlarda, xüsusən də qədim Suriya mənbələrində maraqlı məlumatlar var.

Azərbaycan xalqının fiziki inkişafı onun humanisliyi, öz torpağının sədaqəti, əməksevərliyi barədəXII-əsrinşair mütəfəkkiri Nizami Gəncəvi kifayət

qədər əhatəli yazmışdır. Xalq şairi Nizami qəhrəmanları heyrətamiz gücə, dözümə, mətinliyə və s. malikdirlər. Azərbaycan xalq şairi Nizami gəncəvi fiziki tərbiyəyə bir ehkam kimi yox, inkişaf prosesində formalaşan anlayış kimi baxırdı. Nizaminin əsərlərində Azərbaycan milli oyunları və əyləncələri barədə hekayələr böyük yer tutur ki, nəticə etibarı ilə bu da mənəvi və fiziki tərbiyənin vahid xalq sistemini yaradırdı. At idman oyunu "Çövqan" Azərbaycanda qədim zamanlardan bəri çox geniş yayılmış bir oyun idi. Azərbaycan zadəganları üçün bu oyun gənclərin tərbiyəsinin ayrılmaz bir hissəsi idi və xalq bayramları proqramına daix idi. Çövqan oyunları zamanı qaliblər mükafatlar alırdılar. Azərbaycanın özünəməxsus xalq fiziki tərbiyə sistemigənclərin fiziki gücünü, onların iradə və xarakterinin möhkəmlənməsinə, bütün həyat çətinliklərinə dözmək bacarığının tərbiyə olunmasına, əmək fəaliyyətində və hərbi hazırlıqda zəruri olan tədbiqi vərdişlərinin əldə edilməsinə yönəldilmişdir. Fiziki tərbiyənin bu forması əmək fəaliyyəti prosesində və hərbi hazırlıq zərurətindən yaranırdı.

Tarix Azərbaycanda elmin və ədəbiyyatın inkişafı, bədən tərbiyəsinin cəmiyyət həyatındakı əhəmiyyətini müəyyənləşdirir və xalqın bədən tərbiyəsinin ümumi inkişafına kömək edirdi. Azərbaycan xalqının mənəviyyatının və ədəbiyyatının inkişafında dahi şair Məhəmməd Füzulinin rolu çox böyükdür. Füzuli öz əsərlərində Azərbaycan uşaqlarının tərbiyəsində fiziki tərbiyənin əhəmiyyətini və inkişafını xüsusilə qeyd edirdi. Orta əsirlərdə hərbi əməliyyatlarınn nəticəsi döyüşçülərin və cəngavərlərin qabiliyyətlərindən aslı idi.Bununla əlaqədar feodal(Feodalizm dövründə torpaq mülkiyətçisi idi.

Qərbdə..Feodallar,,......krallar,./hersoqlar,,//qraflar, baronlar, markizlər, vikontlar və..sadəcəcəngavərlər sayılırdı.Şərqdə analoji olaraq xaqanlar, şahlar, xanlar, bəylər, məliklər və s. feodallara aid idi.) Azərbaycanda qılıncoynatma geniş yer almışdır. Azərbaycanın bir çox şəhərlərində qılıncoynatma yarışları keçirilirdi. Qılıncoynadanların yarışına qatılmaq üçün xüsusi qılınclar sifarış edilir, mürəbbilərin (mürəbbi keçmişdə: dövlətli ailələrində uşaqların təlim və tərbiyəsi ilə məşğul olan şəxs; tərbiyəçi, xüsusi müəllim.) rəhbərliyi altında məşqlər, yarlışlar keçirilirdi.

Fiziki hazırlığın və idmanın müxtəlif növləri üzrə ayrışların keçirildiyi üstüörtülü binalar "Zorxana" adlanırdı. "Zorxanada" təkcə idmanın ayrıca növləri üzrə yarışlar keçirilmirdi. "Zorxanada" akrobatların teatırlaşdırılmış çıxışları və rəqqasalrın tamaşaları da göstərilirdi.

Qarabağ iki sözün anlayışından ibarətdir. Qara sözü boyük, möhtəşəm, geniş mənasında işlənmişdir. Qarabağ sözünün mənası böyük bağ deməkdir. Sahəsi 50%-dən çox meşə və bağlarla örtülü olan ərazidir. Qarabağ şəhərinin tarixi VII-əsirdən başlayır. Qarabağ xanlığı (1747-1822) Pənahəli xan və İbrahimxəlil xanın hakimiyyəti dövründə öz suverenliyini saxlaya bilən Azərbaycan feodal dövləti idi. Onun paytaxtı Şuşa şəhəri olmuşdur. Qarabağ dağlarının birində ən

yüksək zirvədə yerləşən Şuşa şəhəri mühüm strateji mövqe tutmuşdur[2, səh-76-77].

Azərbaycanın Qarabağ ərazisində nizə və ox atmaq, qılınc oynatmaq, pəhləvanlıq və güləşlə məşğul olmuşlar. Qısa tarixi dövürdə Şuşa şəhərində çoxlu istedadlı şairlər, alimlər, müəllimlər, pəhləvanlar və sənətkarlar yetişmişdir.

Bu baxımdan aparılan tədqiqatlar sübut edib ki, Azərbaycan mədəniyyətinin, tarixinin, ədəbiyyatının, o cümlədən milli idman oyunlarının tarixinin inkişafında və təkamülündə doğma vətənimizin ayrılmaz bir hissəsi olan Qarabağ mühiti əvəzsiz və böyük rolu oynayıb. Azərbaycan Sovet Ensiklopediyasının III-cü cildində yazılaraq məlumat verilmişdir ki, "Qarabağ" - Azərbaycanda tarixi vilayətdir. Kiçik Qafqaz dağlarından başlamış, Kür və Araz çayları arasındakı ərazini əhatə edir. Keçmiş SSRİ ərazisində ən qədim insan məskənlərindən biri Azərbaycanın Qarabağ zonasında aşkar olunub [3, səh-67-71].

XVII-XIX-əsirlərdə Azərbaycanda qüvvətli və adlı sanlı pəhləvanlar çox olmuşdur. Azərbaycan milli idman oyunları XIX-əsirdə geniş inkişaf etmişdir. Respublika əlyazmalar fondunda saxlanılan "Əhvalati Qarabağ" adlı əlyazma əsəri diqqəti cəlb edir. "Əhvalati Qarabağ" əsərində İbrahim xanın məşhur saray xadimi Mirzə Vəlinin nəvəsi Baharlı 1888-ci ildə öz əsərlərinin birində yazmışdır ki: Şuşada Nabat adlı bir pəhləvan vardır. Heç kəs ona qalib gələ bilməmişdir. Şuşalı Nabat pəhləvan Təbrizdən, Badigubədən, Şəkidən, və digər şəhərlərdən Şuşaya gələn pəhləvanlara qalib gəlmişdir. "Əhvalati Qarabağ" əsərində Şuşalı nabat pəhləvanın Təbrizdə İran şahının məşhur saray pəhləvanına qalib gəlməsi səs-küyə səbəb olmuşdur.

Həmin dövürlərdə Azərbaycan pəhləvanları böyük şöhrət qazanmışdırlar[1, səh 85-86]. Atçılıq idman növüdə Azərbaycanda qədim zamanlardan inkişaf etmişdir. Əsas idman oyunlarından biri sayılan at üzərində ox atıb hədəf vurmaq idmanı Qarabağda yaranaraq Avropa ölkələrinin yarışlarında bu idman növü keçirilməyə başlamışdır. Azərbaycan idman oyunları və atları təkcə ölkəmizdə deyil xaricdə də qədim zamanlarda böyük şöhrətə malik olmuşdur.

XIX-əsrdə D.Dubenski (atçılıq üzrə mütəxəsis) demişdir ki, Zaqafqaziyadan olan atlr hamısı Qarabağ atının törəməsidir. Qarabağ adlı kitabda qeyd edilmişdir ki, (1866, 1869 və 1873) ci illərdə Moskvada keçirilən at sərgisində Qarabağ cinsindən olan atlara rusiyalı mütəxəsislər tərəfindən yüksək qiymətləndirilmişdir. General-mayor Mehdiquluxan 1826-cı ildə Qarabağda ilk atçılıq təsərrüfatı yaradmışdır. Bu təsərrüfatda yetişdirilən Qarabağ atlarının şöhrəti dünyaya yayılmışdır. General-mayor Mehdiquluxanın vəfatından sonra qızı Natəvan atasının atçılıq təsərrüfatını inkişaf etdirmişdir. Orta əsirlərdə Qarabağda çövgən oyunu inkişaf etməyə başlamışdır. Buna bəzən

“Çovqan” və ya “çövkən” də deyilib. Çövgən Azərbaycanın qədim və milli oyunudur. Çövgənın qədim Azərbaycan oyunu olmasını sübut edən faktlardan biri də Azərbaycan miniatürlərində bu oyunun dönə-dönə təsvir edilməsi, yazılı mənbələrdə onun keçirilmə qaydaları haqqında məlumat verilməsidir. Çövgən yarışlarının Azərbaycanda çox qədimdən məşhur olduğu faktlarla təsdiqlənir. Çövgən oyunçularının heykəllərini kiçik oyuncaq şəkilində hazırlanaraq şahlara hədiyyə kimi verilirdi [1, səh75-80]. Komanda oyun növü olan çövgən yarışları eramızın birinci minilliyinin ortalarında formalaşıb, yüzillər ərzində, Azərbaycan, Orta Asiya, İran, Türkiyə, İraq və qonşu ölkələrdə məşhur olub. Azərbaycanda çövgənın tarixi, hətta VI-VII əsrlərə və bəlkə ondan da qabaqlara gedib çıxır. Nizami tarixi sənədlər əsasında yazdığı “Şərəfnamə” əsərində çövgən oyunu haqqında məlumat verir. Çövgən oyununun adı oyunda işlədilən alətin adı ilə adlandırılıb. Bu da ağacdan hazırlanmış, çövkan adlandırılan alətdir. Oyunçular at belində bu alətin köməyi ilə oynayırlar. Azərbaycanda çövgən oyununda təkçə kişilər deyil, qadınlar da iştirak edirdilər. İngilislərin təşəbbüsü ilə bu oyun “polo” adı altında ilk dəfə 1890-cı ildə Parisdə keçirilən II Olimpiya Oyunlarının proqramına daxil edilmiş və beləliklə, Qərb sivilizasiyasında bu ad təsdiqlənmişdir. Bir neçə dəfə Olimpiya Oyunları proqramına daxil edilmiş çövgən – polo son dəfə 1936-cı il Berlin Olimpiyadasında oynanılmışdır. Azərbaycanda oynanılan çövgən oyunu, ümumiyyətlə, dünyada polo adı ilə tanınan oyundan bir qədər fərqli qaydalar əsasında keçirilir [1, səh 87-88 ]. Qarabağın zəngin, özünəməxsus və maraqlı folklor nümunələrindən biri də milli mütəhərik xalq oyunlarıdır. Milli mütəhərrik xalq oyunlarının tarixi çox qədimlərə getməklə yanaşı, xalqın müxtəlif dövrlərdə adət-ənənələrini, etnoqrafiyasını özündə əks etdirir. Milli mütəhərrik xalq oyunlarına, bütövlükdə xalqın oyun-tamaşa mədəniyətinə dair ilk məlumatlara bir sıra qədim mənbələrdə rast gəlinir. Milli mütəhərrik xalq oyunların bir neçəsi Azərbaycanın Qarabağ zonasında inkişaf etmişdir[5, səh 17-23].

Milli mütəhərrik xalq oyunları uşaq və yeniyetmələrdə sağlamlıq, vətənin müdafiəsinə hər zaman hazır olmaq kimi keyfiyyətləri özündə əks etdirir. Milli mütəhərrik xalq oyunlarında qadınlarda kişilər kimi at çapma, çövgən, qılınc oynatma, ox atma kimi yarışlarda iştirak edirdilər. Qarabağda geniş yayılan xalq oyunlarından biri də “Dirədöymə” oyunudur. Bu oyunun oynanılması qaydası isə belədir: Uşaqlar iki dəstəyə ayrılıb, bir dairəvi cizgi çəkir və qürrə (püşk) atırlar. Qürrə hansı dəstəyə düşsə o dəstə mərəyə (dairəyə) girir. Uşaqlar hərəsi ayağının altına bir toqqa qoyur. Dairədən kənarda qalanlar toqqanı götürməyə çalışırlar. Dairədəkilər isə ayaqla vurur, toqqaları götürməyə yol vermirlər. Dairənin içərisində olanlar kənardakılardan birini ayaqla vursa, dairədəki uşaqlar kənara çıxır, kənardakılar dairəyə girirlər. Dairədən kənardakı uşaqlardan biri toqqanı ələ keçirsə, dairənin içərisində olan uşaqları toqqa ilə

vurur, ayaqları altındakı toqqaları kənara çıxarıb götürməyə çalışırlar. Hansı dəstə toqqaları tamam ələ keçirsə qələbə qazanır. Dairədəkilərin ayaqlarından biri cızıqdan çıxmamaq şərti ilə kənardakılardan birini digər ayağı ilə vurana qədər kənardakılar içəridəkiləri toqqa ilə oyundan kənarlaşdırırlar. Kənardakı oyunçu içəridəkilərdən birini əli ilə tutub dairədən çıxara bilsə, onu bir nəfərə həvalə edib saxladır və yiyəsiz qalmış toqqanı götürməyə cəhd edir. Bu zaman içəridəkilər həm öz toqqalarını, həm də kənardakı yoldaşlarının toqqasını qorumalı olurlar. Yaxud əksinə, içəridəkilər kənardakılardan birini fəndlə tutub dairəyə salsalar, dəstələr yerlərini dəyişməli olurlar. Qarabağda məşhur olan bəzi xalq oyunları isə şeirlə ifa olunurdu. Bu isə, heç şübhəsiz ki, oyunu daha maraqlı edirdi [3, səh 34-48]. Qarabağda geniş yayılmış oyunlardan biridə “Baharbənd” və “Papaq” oyunudur. At çapanlar bahar aylarının əvvəllərində çəmənliyə toplaşaraq oyuna başlayırlar. Azərbaycan bayramlarında əsas yeri milli mütəhərrik idman yarışları tuturdu. Bu bayramlarda milli xalq idman oyunları, güləş, nizə atmaq, oxatmaq və s. kimi idman növlərindən istifadə edilirdi. Öz qüvvəsi, çevikliyi, dözümlülüyü ilə fərqlənənlər yeniyetmə və gənclər həmin oyunlarda bacarıqlarını nümayiş etdirirdilər. Belə bayramalrdan biri də Novruz bayramıdır. Bayram mərasimində musiqinin müşayəti ilə oğlanlar arasında güləş, cıdır, tonqal üzərindən tullanmaq yarışları, papaq oyunu kimi oyunlar keçirilirdi. Milli mütəhərrik xalq oyunları Azərbaycanın mədəniyyətini və tarixini inkişaf etdirir [1, səh 107-108].

XVIII əsrin ikinci yarsında görkəmli Azərbaycan şairi Molla Pənah Vaqif Azərbaycan xalqının maariflənməsi, Qarabağda ədəbiyyat və incəsənətn inkişafı üçün çox işlər görmüşdür. Şüşa şəhərində yeni-yeni mədrəsələr açılır, ədəbi məclislər təsis olunurdu. Görülən işlər xalqın bədən tərbiyəsinin əhəmiyyətinin düzgün başa düşülməsinə kömək edirdi. Qarabağ musiqisi, abidələri, mədəniyyəti və milli xalq idman oyunları bizim təkcə maddi-mədəniyyət abidələri deyil, eyni zamanda mədəniyyət tariximizin arxivi və sərvətidir [4, səh 107-108].

## Ədəbiyyat:

1. Acalov E.F. Azərbaycanda fiziki tərbiyə və idmanın inkişafı. Monoqrafiya, Bakı-2002 ci il.
2. Qurbanov X.K. Milli güləşin klassik ədəbiyyatda tərənnümü.(Beynəlxalq elmi praktik konfransın materiallı). Bakı-2002 ci il
3. Musa Mərcanlı, Qasım Hacıyev, Səbuhi Əhmədovdur. "Qarabağ əsrlərin salnaməsi" Bakı-2018 ci il
4. Sevda Əskər. Qarabağ – tarixi-mədəni irsimizdən.Bakı-2022 ci il
5. ƏhmədovaS. “Qarabağ ədəbi-mədəni mühiti. Monoqrafiya. Bakı-2020 ci il

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN TƏHSİL SİYASƏTİ VƏ MİLLİ İDEOLOGİYA KONSEPSİYASI

**Gülnarə Sultanova**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*cafarova.gulnara@mail.ru*

***Açar sözlər:*** *respublika, milli, ideologiya, təhsil, məktəb, milli kadr, cümhuriyyət.*

*Azərbaycan Xalq Cümhuriyyətinin təhsil sistemi savadsızlığın aradan qaldırılması, Azərbaycanda savadlı milli kadrların hazırlanması üçün Avropa tipli dünyəvi məktəblərin yaradılması məqsədini güdmüş. Bu istiqamətdə ilk tədbirlər Azərbaycan şəhərlərində kişi və qadın seminariyalarının, pedaqoji kursların, Bakı Dövlət universitetinin açılması olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti təhsil sisteminin daha da inkişafı üçün kifayət qədər milli kadr və maddi resurslar yaratmaqla böyük işlər görmüşdür.*

*Azərbaycan Xalq Cümhuriyyətinin təhsil siyasətinin vacib istiqamətlərindən biri tədris müəssisələrini yeni, milli ruhlu dərsliklər ilə təchiz etməkdən ibarət idi.*

*Demokratik və humanist prinsipləri əsas götürən Azərbaycan Xalq Cümhuriyyətinin milli hökumətinin təhsil siyasətinin reallaşmasına qeyri dövlət təşkilatları və xeyriyyəçilər də könüllü yardım göstərirdilər.*

# КОНЦЕПЦИЯ ОБРАЗОВАТЕЛЬНОЙ ПОЛИТИКИ И НАЦИОНАЛЬНОЙ ИДЕОЛОГИИ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ.

**Гюльнара Султанова**

***Ключевые слова:****республика, национальная, идеология, образование, школа, национальные кадры, республика.*

*Система образования Азербайджанской Демократической республики преследовала цель ликвидации безграмотности,создание светских школ по европейскому типу, подготовки образованных национальных кадров в Азербайджане.*

*Первыми мероприятиями в этом направлении были открытие в городах Азербайджана мужских и женских семинарий, педагоги-*

*ческихкурсов, Бакинского Государственного университета. Азербайджанская Демократическая республика проделала огромную работу создав достаточное количество национальных кадров и материальную базу для дальнейшего развития образовательной системы.*

*Одним из главных направлений образовательной политики Азербайджанской Демократической республики было обеспечение образовательских учреждений новыми в национальном духе составленными учебниками.*

*Для осуществления образовательной политики, опираясь на демократические и гуманистические принципы, национального правительства Азербайджанской Демократической республики большую помощь оказали также негосударственные организации.*

## THE CONCEPT OF NATIONAL EDUCATION POLICY AND NATIONAL IDEOLOQY OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

**Gulnara Sultanova**

***Key words:*** *Republic, national, ideology, education, school, national personnel, government.*

*The education system of the Azerbaijan Democratic Republic pursued the qoal of eliminatinq illiteracy,creatinq secular schools of the European type and traininq educated national personnel in Azerbaijan.*

*The first events in this direction were the openinq of male and female seminaries,pedaqoqical courses and Baku State University in the cities of Azerbaijan.*

*Over the short historical period of its existence,theAzerbaijan Democratic Republic has done a qreata job of creatinq a sufficient number of national personnel and the material base for thefurther development of the educational system.*

*One of the main directions of the educational policy of the Azerbaijan Democratic RepublicWas to provide educational institutions with new national spirit,compiledtextbooks.For the implementation of educational policy,based on the demokratik and humanistic principles of the*

*Azerbaijan Democratic Republic,non-qovernmentalorqanizations also provided qreat assistance.*

M.Ə.Rəsulzadə millətin inkişafını və tərəqqisini onun təhsilində, maariflənməsində görür, təhsil sisteminin genişləndirilməsinin, müəllim kadrlarının artırılmasının, dərsliklərin hazırlanmasının zəruriliyini qeyd edirdi. O, yazırdı ki, millətin maariflənməsi üçün məktəbin qədri bilinməli, elm və mə'rifətə meyl artmalı, müəllimlərin sayı çoxalmalı, yeni məktəblər açılmalıdır. M.Ə.Rəsulzadə belə hesab edirdi ki, milləti elmə, dərsə rəğbətsizlikdə, meylsizlikdə ittiham etmək olmaz. Cünki müsəlmanların tərəqqi və mədəniyyətə tərəf getdikləri yolda keçilməz sədlər çəkilib. Əsl mətləb məktəbsizlikdir, "ana dilini tədris etməyə müqtədir olub və qanunca həqiqi tədrisə malik olan və pedaqoji nöqteyi-nəzərdən hazırlığı olan müəllim" yoxluğundadır [17,s.258].

Əsrin əvvəlində bütün bölgə üçün müəllim hazırlayan yeganə təhsil müəssisəsi Qori seminariyası idi. Hər il seminariyanı 5-6 nəfər bitirir, Azərbaycana qayıdıb müəllimlik edirdi. Əsas çətinliklərdən biri də təhsilin pullu olması idi. Çünkü insanlar gecə gündüz işləsələr də zorla yaşayırdılar.

Vəziyyətdən çıxış üçün M.Ə.Rəsulzadə əhalinin bütün zümrələri üçün həftədə yalnız cümə günləri dərs keçən cümə məktəblərini təqdir edirdi.

M.Ə.Rəsulzadə Bakı kimi böyük sənaye şəhərində ali məktəbin olmamasına təəssüflənir, Qori seminariyasından maksimum istifadə edilməsini tövsiyyə edirdi. Göründüyü kimi ölkədə təhsilin vəziyyəti ağır idi, millətin böyük hissəsinin savadı adi maliyyə və ticarət əməliyyatlarına kifayət edirdi, mükəmməl savadlıların sayı az idi.

Doğrudur, Sovet hökuməti 1917-ci ilin noyabr ayının 22-də "Rusiyanın və Şərqin bütün müsəlman əhalisinə" adlı müraciət qəbul etdi və bütün müsəlmanların hüquqlarına azadlıq verdi. Müraciətdə qeyd edilirdi ki, "bu gündən e'tibarən sizin adət və ən'ənələriniz, milli və mədəni müəssisələriniz azad və toxunulmaz e'lan edilir. Özünüz milli həyatınızı sərbəst və toxunulmaz şəkildə qurun. Buna sizin haqqınız var" [13,s.11]. Lakin müraciət qəbul edilsə də onu tam reallaşdırmaq üçün nə imkan var idi, nə də şərait. Ölkəni vətəndaş, dünya müharibəsi məngənədə sıxırdı, təsərrüfat həyatı pozulmuşdu, maliyyə imkanları tükənmişdi, şovinizm ideologiyası yaşayırdı. Yeganə ümid millətin özünə, onun milli duyumlu övladlarının qeyrətinə, onların yaratdıqları milli hökumətə qalmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra milli hökumət əhalinin savadlandırılması və maarifləndirilməsi, elmin, təhsilin inkişaf etdirilməsi üçün xüsusi proqram hazırladı və onu həyata keçirməyə başladı.

Azərbayca Xalq Cümhuriyyətinin təhsil siyasəti Azərbaycanda savadsızlığı ləğv etmək, Avropa tipli dünyavi məktəblər şəbəkəsi yaratmaq, orta və ali təhsilli milli kadrlar yetişdirmək məqsədi güdürdü. Bu proqrama ilk tədbirlər kimi Azərbaycanın bir sıra şəhərlərində kişi və qadın seminariyalarının, pedaqoжi kursların açılması, Bakı Dövlət Universitetinin yaradılması daxil idi.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 26 avqust 1918-ci ildə imzaladığı sərəncama əsasən xalq maarifi sistemi milliləşdirildi, dövlətin himayəsinə verildi. Ilk növbədə ixtisaslı müəllim kadrları hazırlamaq üçün Şuşada, Salyanda, Qusarda, Gəncədə, Nuxada və Zaqatalada qısa müddətli pedaqoji kurslar açıldı və onlara 150 dinləyici qəbul edildi.

Ən vacib məsələ Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsinin Qazağa köçürülməsi məsələsi idi. Azərbaycan Demokratik Respublikasının tə’kidi ilə 1918-ci ilin payızında Fridun bəy Köçərli Qori seminariyasının Azərbaycan şöbəsini Qazağa köçürdü. Seminariyanın şöbəsini Qazağa köçürmək üçün Azərbaycan Demokratik Respublikası hökumətinin Gəncə xəzinədarı 5000 manat vəsait ayırdı. Firidun bəy Köçərli seminariyanın əmlakını qatara yükləyib Azərbaycana gətirərkən gürcü canişini bundan xəbər tutur, kəsə yolla gəlib Ağstafada qatarı saxladır və onu müsadirə etmək istəyir. Lakin F.Köçərlinin həyat yoldaşı Badi Səba xanımın qohumları və Qori seminariyasının məzunları canişinlə danışıb onu geri qaytarmağa nail olur və əmlakı təcili Qazağa daşıyırlar .

Qısa hazırlıqdan sonra 1918-ci ilin noyabr ayının 10-da Qori seminariyasının Azərbaycan şöbəsinin bazasında müstəqil Qazax seminariyasının təntənəli açılışı oldu. Açılışda Qazaxda yerləşən türk ordusunun komendantı Səbri bəy, türk qarnizonu rəisi Camal bəy, Qazağın rəisi Haley bəy Şıxlinski, yerli hökumətin məmurları iştirak edirdilər.

Qazax seminariyasının ilk tələbələri arasında Səməd Vurğun, onun böyük qardaşı Mehdixan Vəkilov, Qubadan, Gəncədən, Laçından, Cəbrayıldan, Şamaxıdan, Ağdamdan, Göyçaydan, Naxçıvandan, Zaqataladan və başqa rayonlardan gələn gənclər var idi.

Böyük maarifçi və icmai xadim Firidun bəy Köçərli seminariyaya başçılıq etməklə bərabər Qazaxda yaşlılar üçün savad kursu açdı, yetimlər evi təsis etdi, qaçqınlara yardım fondu yaratdı. 1920-ci ildə Firidun Köçərli erməni terrorçuları tərəfindən qətlə yetirildikdən sonra seminariyanın direktoru vəzifəsinə xalq yazıçısı Mehdi Hüseynin atası Əli Hüseynov tə’yin edildi. Qazax seminariyası Azərbaycanın xalq maarifinin inkişafında və milli ziyalıların yetişdirilməsində böyük rol oynadı.

Görülən tə’cili tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəlində Bakıda, Gəncədə, Nuxada, Salyanda, Şuşada və Qazaxda 23 dövlət orta təhsil müəssisəsi, o cümlədən 6 kişi, 4 qadın gimnaziyası, 5 realnı məktəbi, 3 müəllim seminariyası, 3 qadın təhsil müəssisəsi, 1 politexnik və 1 ticarət məktəbi fəaliyyət göstərirdi.

Növbəti məsələ tədrisin ana dilində aparılmasında yaranmış çətinliklərin həlli ilə bağlı idi. Bu çətinlik onunla əlaqədar idi ki, ana dilli müəllimlərinin sayı az idi və yaradılan təhsil müəssisələri tələbatı ödəyə bilmirdilər. Lakin vəziyyət az vaxt ərzində daha çox iş görməyi tələb edirdi. Ona görə də əlavə

tədbirlər körmək lazım idi. Bu məqsədlə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti çox yüksək maaşla Türkiyədən respublikamıza müəllimlər də'vət etməli oldu. 1919-cu ilin noyabr ayının 5-də Türkiyədən 50 nəfərdən ibarət ilk müəllimlər dəstəsi Bakıya gəldi. Onlara işə başladıqları gündən qayıdana qədər ayda 3200 manat maaş müəyyən edildi. 1920-ci il fevralın 14-də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti xarici ölkələrdən gələn müəllimlər üçün yeni əmək haqqı tarifini təsdiq etdi. Ali və müəllimlik seminariyası təhsilli müəllimlərə ayda 8 min manat, qalanlara isə 6 min manat maaş müəyyən etdi, mənzili olmayan ailəli müəllimlərə ayda 2 min, subaylara isə ayda 1 min manat kirayə haqqı da ayırdı, onlara əlavə birdəfəlik müavinət də tə'yin etdi.

1919-1920-ci tədris ilində xaricdən də'vət olunmuş müəllimlər Bakı kişi və qadın müəllimlər seminariyalarında, Qazax kişi müəllimlər seminariyalarında, Gəncə kişi və qadın gimnaziyalarında çalışırdılar.

Azərbaycan Xalq Cümhuriyyətinin milli hökuməti Bakı Dövlət Unniversitetini yaratmaq və vaxtı ilə bu istiqamətdə göstərilən səyləri fəallaşdırmaq üçün qəti addımlar atdı. M.Ə.Rəsulzadə hələ 1908-ci ilin noyabr ayının 23-də "Tərəqqi" qəzetində yazırdı ki "müsəlmanlara məxsusi darülmüəllimin açmaq lüzumu çoxdan özünü bildirməkdədir. Zatən bu xüsusda artıq danışıqlar olunur və vaxtında bu danışıqlar, bu layihələrin qayətdə iti bir surət aldığı dəxi mə'lumumuzdur. Lakin bizim hər işimizdə olduğu kimi bu məsələdə də bütün danışıqlarımız, layihələrimiz, təsəvvürlərimiz hələ danışıq, layihə, təsəvvür oluyor, qalıyor, ondan o tərəfə keçilmiyor" [17,s.259]. Lakin bu dəfə Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti cəsarət göstərdi, milli ziyalılarımızın tarixi arzusunu reallaşdırdı.

Hökumətin təklifi ilə parlament Bakı Dövlət Universitetinin yaradılması haqqında 1919-cu ilin sentyabr ayının birində xüsusi qanun qəbul etdi. Bu qanuna əsasən hökumət universitetin təşkili və müvafiq avadanlıqla təchiz edilməsi üçün 5 milyon manat vəsait ayırdı. Universitetin yaradılması ilə bağlı təşkilatı işlərlə hökumətin başçıları F.Xoyski, N.Yusifbəyov, xalq təhsili naziri R.Kaplanov, onun müavini H.Şaxtaxtinski, V.Razumovski və başqaları məşğul olurdular [3,s.178].

Respublikamızda yaradılmış ilk ali təhsil ocağı olan Bakı Dövlət Universitetində çalışmaq üçün Tiflisdəki Zaqafqaziya Universitetindən də'vət olunmuş V.I.Razumovski, N.A.Dubrovski, L.A.Işkov, I.S.Sitoviç, L.A.Zimin və başqaları 1919-cu ilin 29 sentyabrında çox yüksək maaşla V.I.Razumovskinin rəhbərliyi altında fəaliyyətə başladılar. Hökumət 1919-1920-ci tədris ili üçün 10 milyon 858 min manat vəsait ayırmışdı.

1918-ci ildə Fətəli xan Xoyski hökuməti Azərbaycanda kənd təsərrüfatı institutunun yaradılması haqqında qərar qəbul etdi. Lakin o dövrün siyasi vəziyyəti və maliyyə çətinlikləri ilə əlaqədar olaraq bu qərar yerinə yetirilmədi.

Real vəziyyətlə əlaqədar olaraq Azərbaycan Demokratik Respublikası hökuməti xarici ölkələrin ali məktəblərində müxtəlif ixtisaslı milli kadrların yetişdirilməsinə xüsusi əhəmiyyət verirdi. Ağır iqtisadi və siyasi çətinliklərə baxmayaraq hökumət 1919-1920-ci tədris ilində 100 nəfər is'tedadlı gənci Almaniya, Ingiltərə, Fransa, Italiya və Türkiyənin ali məktəblərinə göndərmişdi. Bu məqsədlə büdcədən 7 milyon manat vəsait ayırmış və xüsusi təqaüd fondu yaradılmışdı. Gənclərimiz xaricdə əsasən aviasiya, gəmiqayırma, mexanika, kimya, dağ-mə'dən, elektronika və başqa elmlər sahəsində təhsil alırdılar.

Xarici ölkələrə göndərilən tələbələrdən onu Ingiltərəyə, iyirmi üçü Italiyaya, qırx beşi Fransaya, doqquzu Türkiyəyə, on üçü Rusiyaya ezam edilmişdi. Yüz tələbənin xarici ölkələrdə təhsil alması üçün Maarif Nazirliyi 700 min manat vəsait ayırmışdı [11,s.30].

Hökumətin qərarına əsasən tələbələr xaricdə təhsillərini başa vurduqdan sonra mütləq müəyyən edilmiş yerlərdə işləməli idilər. Lakin baş verən hadisə— Azərbayca Xalq Cümhuriyyətinin süqutu başlanmış xeyirxah işi pozdu. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra sovet hökuməti xaricdə təhsil alan tələbələrin təqaüdünü dayandırdığı üçün onların bir hissəsi təhsilini yarımçıq qoyub vətənə qayıtdı, bir qrupu isə bütün çətinliklərə dözüb diplom ala bildilər. Bununla belə tarixin ədalətsizdiyi, totalitar rejimin düşmən mövqeyi müstəqil dövlətin ilk mütəxəssislərdən yan keçmədi. Onlar , təqiblərə represiyalara məruz qaldılar. Italiyada təhsil alıb seleksiyaçı alim adına layiq görülmüş Əhməd Rəcəbli və Isgəndər Vəlizadə, Almaniyada oxumuş Cəfər Nağıyev, Bəhram Abdinov, Hüsü Hacıyev, Fransada ali təhsil almış Cavanşir Əbdülhəmid oğlu ömrünün çoxunu sürgündə keçirmişlər.

Azərbaycan Xalq Cümhuriyyətinin təhsil siyasətinin əsas və vacib istiqamətlərindən biri tədris müəssisələrini yeni, milli ruhlu dərsliklər və dərs vəsaitləri ilə təchiz etməkdən ibarət idi. Çox ağır maliyə vəziyyətinə düşən hökumət tədris müəssisələrini dərsliklə tə'min etmək üçün bütün imkanları səfərbər edib bir çox dərsliklərin Azərbaycanda nəşr edilməsinə nail oldu. Bu ehtiyacı tam tə'min etmək məqsədi ilə hökumət Türkiyədən sifariş yolu ilə xeyli dərsliklər aldı. 1919-1920-ci tədris ilində qonşu ölkədən 1 milyon manatlıq riyaziyyat, həndəsə, geometriya, cəbr, mexanika, fizika, kimya, təbiətşünaslıq, fiziologiya, tarix, hüquq və başqa dərsliklər alınmışdı.

Sevindirici hal idi ki, demokratik və humanist prinsipləri əsas götürən Azərbaycan Xalq Cümhuriyyətinin milli hökumətinin təhsil siyasətinin reallaşmasına qeyri dövlət təşkilatları və xeyriyyəçilər könüllü yardım göstərirdilər.

Böyük Britaniyanın Azərbaycandakı hərbi qarnizonunun komandanlığı təhsil müəssisələrini müvafiq məktəb ləvazimatı və mebellə təchiz etmək üçün hökumətə vəsait ayırdı. Humanist xeyriyyəçilər təhsilə yardım edir, öz

binalarını təmənnasız olaraq sinif otaqları üçün verir, məktəblərə odun, yanacaq və başqa ləvazimatla kömək edirdilər.

Azərbaycanın məşhur mesenatı Zeynalabdin Tağıyevin Azərbaycan Xalq Cümhuriyyətinin təhsil siyasətinin həyata keçirilməsinə göstərdiyi yardım daha dəyərli və daha təsirli idi.

Hacı Zeynalabdin Tağıyev Lənkəranda vəfat etmiş öğlu Məhəmmədin toy mərasimi üçün ayırdığı vəsaiti Azərbaycan Dövlət Universitetinə vermiş və demişdir ki, "Mənə oğluma toy etmək qismət olmadı, onun toy vəsaitini darülfun üçün verirəm, qoy balalarımız xoşbəxt olsunlar".

Azərbaycan Xalq Cümhuriyyəti yaşadığı qısa bir tarixi dövr ərzində, təhsil sahəsində on illərə bərabər işlər gördü, müasir təhsilimizin inkişafı üçün kifayət qədər kadr və maddi baza yaratdı.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təhsil siyasətinin ən böyük humanist xüsusiyyətlərindən biri onun Azərbaycan ərazisində yaşayan bütün millətlərin təhsil hüquqlarının müdafiə etməsindən ibarət idi. Bu humanist prinsipə sadiq qalan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1918-ci ilin sentyabr ayının 7-də "milli azlıqlardan olan xalqların öz ana dilində təhsil alması haqqında sərəncam imzaladı, 1919-cu ilin oktyabr ayının 1-də Dağlıq Qarabağın erməni məktəbləri üzrə xüsusi müfəttişlik yaratdı, ermənilərin xalq maarifi, mədəniyyət sahəsində öz müqəddəratını tə'yin etməsini əsaslandıran 23 maddədən ibarət əsasnaməsini təsdiq etdi.

Azərbaycan Xalq Cümhuriyyətinin təhsil siyasətinin əsasını millilik təşkil edirdi. Tədrisin ana dilində aparılması, dərsliklərin ana dilində yazılması, karkuzarlığın ana dilində həyata keçirilməsi təhsil siyasətinin əsas meyarı idi.

Bu gün tam əsasla qeyd edə bilərik ki, ilk özümüzə qayıdışımız, milli yaddaşımızın bərpası Azərbaycan Xalq Cümhuriyyəti təhsil siyasətinin milli prinsiplərindən başlanmışdır. Bu çox vacib milli qayıdış və dirçəliş Azərbaycan Xalq Cümhuriyyətinin tarixi xidmətidir.

Hər bir xalqın milli azadlıq hissi, müstəqillik meyli onun özünüdərketməsi prosesində formalaşır, həqiqi mə'na və aydın yönüm kəsb edir. Məmməd Əmin Rəsulzadə qeyd edirdi ki, "millətə hər bir fitnə fəsadın mənbəini göstər, onun nə tərəfdən və nə cür gəldiyini bildir, o zaman əminiz ki, millət nə edəcəyini bilər"[17,s.154]. Geniş maarifçilik və ardıcıl təbliğat güclü siyasi fəallıq yaratsa da müstəqilliyi əldə etmək üçün ümum milli strateji mübarizə proqramı daha vacibdir. Bu prosesin zəruri tələblərindən biri milli ideologiyanın yaradılmasıdır.

Bütövlükdə millətin mənafeyini, istək və arzularını ifadə edən ideyalar sistemi kimi milli ideologiyanın yaranması obyektiv tarixi hadisə kimi ilk növbədə milli azadlıq hərəkatı ilə bağlıdır, onun dalğaları üzərində yüksəlir və ona şüurlu nəzəri istiqamət verir. Azərbaycanda milli ideologiyanın yaranması

heç də subyektiv meylin tələbi deyil, uzun müddətli təbii-tarixi prosesin daxili məntiqi nəticəsi və ifadəsidir. Tarixi keçmişimiz bu meyli təsdiq edir.

Ümummilli lider Heydər Əliyev demişdir: "Azərbaycan xalqı əsrlər boyu azadlıq arzusu ilə yaşamış, milli azadlıq, istiqlal uğrunda mübarizə aparmışdır. Xalqımız çox minillik tarixində dəfələrlə öz milli azadlığına nail olmuş, milli dövlətini yaratmış, lakin sonralar müxtəlif səbəblər üzündən bunlardan məhrum olmuşdur… Orta əsrlərdə Azərbaycan xalqı Nizami, Xaqani, Nəsimi, Füzuli kimi dahilər yetirmiş və onlar azadlıq hissləri ilə yaşayıb yaratmışlar. Sonrakı dövrlərdə Azərbaycan çar Rusiyasının tərkibində, onun əsarəti altında olarkən azadlıq ideyaları ilə yaşayan ölkənin mütəfəkkir adamları, qabaqcıl siyasi xadimləri, yazıçı və şairləri olmuşdur. Mirzə Fətəli Axundov, Abbasqulu Ağa Bakıxanov, Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Seyid Əzim Şirvani, Üzeyir Hacıbəyli, Məmməd Əmin Rəsulzadə kimi şəxsiyyətlərin yaradıcılığında milli azadlıq hissləri öz əksini tapmışdır. Siyasi rejimdən, kiminsə əsarəti altında yaşamasından asılı olmayaraq, xalqımız həmişə milli azadlığa, istiqlala can atmışdır".

Bütün şüurlu həyatını vətənin mədəni dirçəlişinə həsr etmiş Mirzə Fətəli Axundov ilk dəfə ictimai-fəlsəfi fikir tariximizə "millət", "millətsevərlik", "milli tərəqqi" kimi anlayışları gətirmişdir. Görkəmli ictimai xadim və maarifçi demokrat Məhəmməd ağa Şahtaxtlı 1891-ci ildə "Kaspi" qəzetində dərc etdirdiyi "Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı?" məqaləsində "azərbaycanlı" və "Azərbaycan dili" sözlərini leksikonumuza gətirmişdir. Azərbaycan Xalq Cümhuriyyəti, milli dövlətçiliyimizin, milli ideologiyanın reallığa çevrilməsi yolunda tarixi bir addım oldu. Cəmi 23 ay yaşamasına baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti milli şüurun, milli dövlətçiliyin qərarlaşmasında mühüm rol oynamışdır. Azərbaycanlı milli ideyasının ümumi milli ideologiyaya çevrilmə prosesində tarixi inkişaf baxımından bir çox tədqiqatçıların haqlı olaraq qeyd etdikləri kimi həm islamçılıq, həmdə turançılıq-türkçülük mərhələlərini yaşamış, XX əsrin əvvələrindən e'tibarən müstəqil ideya cərəyanına çevrilməyə başlamış, Azərbaycan milli dövlətçiliyini meydana gətirmişdir.

Ömrünün çox az olmasına baxmayaraq Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti azərbaycanlı milli ideyasının həyata keçirilməsində böyük rol oynadı. Onun fəaliyyəti hər şeydən əvvəl vətənçilik, azərbaycançılıq, milli dövlətçilik, istiqlalçılıq, cümhuriyyətçilik kimi ideal milli prinsiplərin həyata keçirilməsinə söykənirdi. M.Ə.Rəsulzadə deyirdi: "bir gərə yüksələn bayraq bir daha enməz!", "Bu yolda ya qazi, ya da şəhid olacağıq"[15,s.11].

M.Ə.Rəsulzadə və Müsavat partiyası turançılığın qeyri mümkünlüyünü qəbul edib Azərbaycanın müstəqilliyi şüarını irəli sürdülər. Beləliklə, vətənpərvərlik, azərbaycançılıq, milli müstəqillik, milli dövlətçilik milli ideologiyamızın mahiyyətini, onun əsasını təşkil edən başlıca ideyalara çevrildi.

Azərbaycan Xalq Cümhuriyyəti sözün tam mənasında azərbaycanlıların müqəddəs milli idealı olan milli dövlətçiliyimizin ilk tarixi təcəssümü idi.

Azərbaycan Xalq Cümhuriyyəni yarandığı gündən onun rəhbərləri hər şeydən əvvəl vacib saydıqları milli məsələyə həyati məsələ kimi baxmış, ona böyük diqqət yetirmişlər. Bu baxımdan Azərbaycan Xalq Cümuriyyətinin milli siyasətinin əsas prinsiplərini düzgün başa düşmək üçün onun ideoloqlarının millət və milli siyasət, millət və sinif, millətçilik və beynəlmiləlçilik haqqındakı fikirlərini, baxışlarını bir daha nəzərdən keçirmək maraqlıdır.

Bir həqiqətdir ki, Azərbaycan Xalq Cümhuriyyətinin liderləri heç vaxt beynəlmiləlçilik əleyhinə olmamışlar, onlar kosmopolitizm əhval-ruhiyyəsini tənqid etməklə, millətlərin dostluq və əminamanlıq şəraitində yaşamalarını təqdir və təbliğ etmişlər.

Azərbaycan Xalq Cümhuriyyəti azərbaycanlıların bir millət kimi vahid milli ideologiya əsasında birləşməsinin tarixi başlanğıcı idi. Məmməd Əmin Rəsulzadə hesab edirdi ki, respublika daxilində millətin vəhdəti və bölünməzliyinin tə'min olunması siyasi sabitliyin möhtəşəm rəhnidir. Bunların biri digərini şərtləndirən başlıca amillərdir. Azərbaycan milləti türk etnosu zəmini üzərində yaranmış olsa da, min illərlə onunla qaynayıb qarışmış digər etnoslarla birlikdə keçdikləri uzun bir tarixi inkişaf yolu üzərində formalaşıb bu günki millət halına gəlib çıxmışdır. Azərbaycan millətinin bütün soy köklərinin inteqrativ bir zəmində birləşdirilməsi millətin bütün etnik qruplarının maraqlarının gözlənilməsi əsasında baş tuta bilər.

XX əsrin əvvəllərində Azərbaycan ziyalılarını ən çox düşündürən problem sosial tərəqqi problemi idi. O dövrdə Azərbaycan xalqı çarizmin əsarəti altında inləyən məhkum millət olduğuna görə onun qarşısında duran əsas vəzifə yeridilən müstəmləkəçilik siyasətinin ağır nəticələrinin tə'sirini mümkün qədər azaltmaq, xalqı soykökünə qaytarmaq, onun milli ruhunu qoruyub saxlamaqdan ibarət idi.

M.Ə.Rəsulzadə milli tərəqqini sosial tərəqqinin əsası hesab edirdi. Onun fikrincə hər hansı bir xalq sosial sahədə azadlıq əldə etməzdən əvvəl özü azad olmalı, milli istiqlala çatmalıdır.

Bu gün Azərbaycan Respublikası milli müstəqillik yolunda mətin addımlar atır, Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi dünya dövlətlər birliyində tam hüquqlu, layiqli yer tutur. Bu işdə xüsusi xidmətləri olan Ümummilli lider Heydər Əliyev vəprezident İlham Əliyev dövlətçiliyimizin sosial, siyasi, milli-mə'nəvi bünövrəsinin strateji istiqamətlərini müəyyən etmiş, onun ideoloji təməlini yaratmışdır.Ümummilli liderin əqidəsincə " milli ideologiyamız tarixi keçmişimizlə, millətimizin adət-ən'ənələri ilə, xüsusiyyətləri ilə, xalqımızın, dövlətimizin bu günü və gələcəyi ilə bağlı olmalıdır".

Milli ideologiyamızın inkişaf konsepsiyasında vətənpərvərlik idealının mühüm yeri var. Vətənpərvərlik hər şeydən əvvəl vətənçilik və azərbay-

cançılıqla bağlıdır. Azərbaycançılıq ideyası milli ideologiyamızın özülünü təşkil edir. Vahid milli ideologiya milli və ümumbəşəri mənəvi sərvətlərin vəhdətinə, Azərbaycanda məskunlaşmış bütün millət və xalqların bir amal uğrunda mübarizəsinə, onların tam hüquq bərabərliyinə, vətənnin ərazi birliyinin, mənafeyinin, müstəqilliyinin qorunması üçün məsuliyyətinin dərk olunmasına əsaslanır. Heç kimdən asılı olmayan, azad, müstəqil, suveren Azərbaycanın milli ideyası yalnız adda, rəmzlərdə deyil, həyatda, mahiyyətdə, xalqın mövcudluğunda, mənəviyyatında, dünyanın siyasi xəritəsində yaşayır, "yoxdan yaranmış" üçrəngli müqəddəs Azərbaycan bayrağı parlament üzərində qururla dalğalanır.

**Ədəbiyyat:**


1. Azərbaycan Demokratik respublikası, Bakı, 1990.
2. Azərbaycan Demokratik respublikası, Bakı, 1992.
3. Azərbaycan Xalq Cumhuriyyəti, Bakı qartal, 1998.
4. Adres-kalendar Azerbaycanskoy respubliki na 1920 q. Baku, 1920.
5. BalayevA. Azərbaycan Milli—demokratik hərəkatı. Bakı, 1990.
6. BaykaraH. Azərbaycan istiqlal mübarizəsi tarixi, Bakı, 1992.
7. DarabadiP. Voennıe voprosı v kurse istorii Azerbaydжane, Baku, siyasət, 1993.
8. IlkinQ.Bakı və bakıllar. Bakı, 1998.
9. Həsənov C. Azərbaycan 1918-20-ci illərdə beynəlxalq münasibətlər sistemində, Bakı, 1998.
10. Həsənov C. Ağ ləkələrin qara kölgəsi. Bakı,2020.
11. Nəcəfov B. Azərbaycan Demokratik respublikası, Bakı, 1992.
12. Nəsibzadə N. Azərbaycan Demokratik respublikası. Bakı, 1990.
13. Çıraqov Y. Istiqlal yollarında. Bakı, 1992.
14. Yaqublu N. Musavat partiyasının tarixi. Bakı, 1997
15. Rəsulzadə M. Azərbaycan Cumhuriyyəti. Bakı, Elm, 1990.
16. Rəsulzadə M. Əsrimizinq Siyavuşu. Bakı, 1990.
17. Rəsulzadə M. Əsərləri, 1-cild, Azərnəşr, 1990.
18. Çəmənzəmindi Y. Müstəqilliyimizi isteyiriksə. Bakı, 1992.
19. Çəmənzəminli Y. Xarici siyasətimiz. Bakı, 1993.

# AZƏRBAYCAN TARİX ELMİ RUSİYA TARİXŞÜNASLIĞINDA (XIX ƏSRİN İKİNCİ YARISI– XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ)

**Naibə Əhmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
naiba.ahmedova@mail.ru

***Açar sözlər:*** *Azərbaycan tarix elmi, Rusiya tarixşünaslığı, Qafqazşünas alimlər, burjua-zadəgan tarixçiləri*

*XIX əsrin ikinci yarısı – XX əsrin başlanğıcında Rusiyada yaşayan qafqazşünas alimlərin əsərlərində Qafqaz xalqlarının hərbi-siyasi və sosial-iqtisadi həyatına dair xeyli sayda əsərlər yazılmışdır. Əlbəttə ki, bu əsərlərdə Rusiyanın Qafqazda apardığı müharibələr tarixindən bəhs olunmuş və burada çarizmin işğalçılıq siyasətinə, amansız müstəmləkə rejiminə bəraət qazandırılmışdır. Bu tarixçilər bir çox vacib siyasi hadisələrin şahidi və iştirakçısı olmaqla yanaşı ölkəmizlə bağlı məsələləri işıqlandırarkən rəsmi dövlət sənədlərinə,mətbuat materiallarına istinad etmişlər.Tarixşünaslıq nöqteyi-nəzərindən həmin müəlliflərin əsərlərini təhlil edib müəyyən nəticələrə gəlmək dövrün tarixini öyrənmək baxımından maraqlıdır.Məhz məqalədə dövrün rus tarixşünaslığında Azərbaycanın XIX əsrin ikinci yarısı – XX əsrin əvəlləri tarixi məsələlərinə aydınlıq gətirilmişdir.*

# АЗЕРБАЙДЖАНСКАЯ ИСТОРИЧЕСКАЯ НАУКА В РОССИЙСКОЙ ИСТОРИОГРАФИИ (ВТОРАЯ ПОЛОВИНА 19 – НАЧАЛО 20 ВЕКА)

**Наиба Ахмедова**

***Ключевые слова***: *азербайджанская историческая наука, российская историография, кавказоведы, буржуазно-дворянские историки*

*Значительное количество работ по военно-политической и социально-экономической жизни народов Кавказа написано в трудах ученых-кавказоведов, живших в России во второй половине XIX-начале XX века. Конечно, в этих произведениях рассказывается об истории войн, которые вела Россия на Кавказе, и здесь оправдывается оккупационная политика царизма, беспощадный колониальный режим. Эти историки были свидетелями и участниками многих важных политических событий,а также ссылались на официальные государственные документы, материалы прессы при освещении вопросов, связанных с*

*нашей страной.С точки зрения историографии, анализируя труды этих авторов и приходя к определенным выводам, интересно изучать историю эпохи.Именно в статье были прояснены вопросы истории Азербайджана второй половины XIX – начала XX века в русской историографии того времени.*

## AZERBAIJANI HISTORICAL SCIENCE IN RUSSIAN HISTORIOGRAPHY (SECOND HALF OF THE 19TH CENTURY–BEGINNING OF THE 20TH CENTURY)

**Naiba Ahmadova**

***Key words:*** *Azerbaijani historical science, Russian historiography, Caucasian historians, bourgeois noble historians*

*A considerable number of works on the military-political and socio-economic lives of the peoples of the Caucasus have been written in the works of Caucasian scholars who lived in Russia in the second half of the 19th and early 20th centuries. Of course, these works tell about the history of wars waged by Russia in the Caucasus, and here they justify the occupation policy of tsarism and its ruthless colonial regime. These historians were witnesses and participants in many important political events, as well as referees to official state documents and press materials when covering issues related to our country. From the point of view of historiography, analyzing the works of these authors and coming to certain conclusions, it is interesting to study the history of the era. It was in the article that the issues of the history of Azerbaijan in the second half of the XIX and early XX centuries in the Russian historiography of that time were clarified.*

XIX əsrin birinci yarısında hələ Rusiyada gələcəkdə kapitalizmin inkişafını əhəmiyyətli dərəcədə sürətləndirən dəyişikliklər baş verir, feodal-təhkimçilik sisteminin böhranı dərinləşirdi ki, bu da kapitalizm quruluşunun qələbəsi ilə bitdi. Bəhs olunan dövrdə tarixşünaslıq tarix elminin bir sahəsi kimi yarandı. XIX əsrin ortalarında fərqli ideoloji istiqamətlər meydana çıxmışdır ki, bunların arasında slavyanpərəstlik və qərbçilik cərəyanları xüsusilə fərqlənirdi. Rusiyanın burjua inkişafı yoluna düşməsi nəticəsində burjua tarix elmi aparıcı rol oynamağa başladı.

XIX əsrin ikinci yarısı – XX əsrin başlanğıcında Rusiyada, xüsusən Cənubi Qafqazda qafqazşünas alimlərin güclü məktəbi formalaşdı. Onların əsərlərində əsasən XVIII əsr – XX əsrin başlanğıcında Qafqaz xalqlarının hərbi-siyasi və sosial-iqtisadi həyatı işıqlandırılmışdır. Buraya N.F.Dubrovin,

V.A.Potto, V.İvanenko, P.Q.Butkov və başqaları daxildir[7;8;9;10;23;15;4]. Şübhə yoxdur ki, bu məktəbin nümayəndələri öz əsərlərində Rusiyanın Qafqazda müharibələri tarixindən və rus mütləqiyyətinin bərqərar olmasından yazarkən diyarda çarizmin işğalçı siyasətinə, amansız müstəmləkə rejiminə bəraət qazandırmışlar. Bu cəhət XIX əsrdə Rusiyada general rütbəsində xidmət etmiş görkəmli hərbi tarixçi, zadəgan tarixşünaslığının görkəmli nümayəndəsi N.F.Dubrovinin əsərlərinə xasdır. N.F.Dubrovinin 6 clddən ibarət olan "Rusların Qafqazda hərb və hökmranlıq tarixi" əsəri rəsmi dövlət mövqeyindən yazılmış bir əsərdir [7]. Əsər arxiv sənədləri və özündən əvvəlki nəşrlər əsasında yazılmış və 1871-1888-ci illərdə nəşr olunmuşdur. Müəllif əsərdə çar hökümətinin müstəmləkə siyasətini tam bəyənmiş və ona bəraət qazandırmışdır. Buna baxmayaraq əsər Qafqaz xalqlarının tarixi haqqında məlumat vermək nöqteyi-nəzərindən elmi dəyərə malikdir. N.F.Dubrovinin əsərinin çatışmazlığı Qafqaz xalqları həyatının iqtisadi və siyasi prosesləri barədə ara-sıra məlumatlar verməsidir.

Əsərin I cildində Car-Balakən camaatlığının Rusiya işğalına qədərki vəziyyəti, digər cildlərdə isə Rusiyanın Qafqazda apardığı müharibələr təsvir edilmişdir. N.F.Dubrovini Qafqazın tarixi hər şeydən əvvəl rus çarizminin Qafqazdakı xarici siyasi səylərini işıqlandırmaq nöqteyi-nəzərindən maraqlandırırdı. Müəllif çarizmin xarici siyasətini və Rusiyanın Qafqazda apardığı müharibələri idealizə edir və ictimai-iqtisadi məsələlərə az diqqət yetirmişdir. Azərbaycan xalqının, habelə Cənubi Qafqaz xalqlarının rus ordusuna fəal yardımı haqqındakı bir sıra faktların üzərindən sükutla keçir, bütün bunlar isə onun Şərq xalqlarına şovinist münasibətinin təzahürlərindən başqa bir şey deyildi.

Hərbi tarixçi, rus generalı V.Pottonun "Qafqaz müharibəsi - oçerklər, epizodlar,əfsanələr və bioqrafiyalar" fundamental əsəri 5 clddən ibarət olmaqla Qafqaz müharibələrinin XVI əsrdən 1831-ci llədək olan dövrünü əhatə edir [23]. Əsərin birinci cildi "Qədim zamanlardan Yermolovadək" adlanır və Sankt Peterburqda 1885-ci ildə çap olunmuşdur. 1-ci buraxılışın üz qabığında yazılmışdır: Siz indi yaxından görəcəksiniz ki, Qafqaz döyüşçüləri necə yaşayır və ölür, necə cəsurluqla döyüşür, qəhrəmanlıq göstərir, nə qədəri isə bayraq və vəzifə naminə həlak olurlar, onlar haqqında tarixə heç nə məlum deyil.

Əsərin ikinci cildi "Yermolov dövrü" adlanır. Burada daha çox XIX əsrin əvvəllərində rus qoşunlarının Çeçenistandakı fəaliyyətinə yer ayrılmışdır. Əsərdə Yermolovun başçılığı ilə rus elçiliyinin Persiyaya səfərinə də toxunulmuşdur [23,s.51-53]. Əsərin üçüncü cildi 30 fəsildən ibarət olmaqla "Persiya müharibəsi 1826-1828-cı illər" adlanır və tariximizin öyrənilməsi baxımından dəyərlidir [23,s.3]. Burada fəsillər Persiyanın Rusiya ilə müharibəyə başlaması, Gəncənin xəyanəti, xanlıqlarda həyəcanlar, Yermolovun fəaliyyəti, Şamxor (Şəmkir) döyüşü, Gəncə qələbəsi, Abbasabad və Cavan-

bulaqda rusların qələbələri, rus səfiri Qriboyedovun İran düşərgəsində olması, xanın (Mehdiqulu xanın – N.Ə.) Qarabağa qayıtması, Qarababa düşərgəsi, Ordubad döyüşü, Aştarak döyüşü, İrəvanın fəthi kimi bölmələrə ayrılmışdır [23,s.3].

V.N.İvanenko "Gürcüstanın birləşməsindən Böyük Knyaz Mixail Nikolayeviçədək" tarixi oçerkini yazarkən müxtəlif toplularda çap olunmuş və arxiv fondlarında saxlanılan xeyli sənədlərdən istifadə etmişdir [15]. Əsərdə müxtəlif məcmuələrdən, materiallar toplusundan,hesabatlardan istifadə edilmiş, dövrü mətbuat ("Qafqaz","Russkaya starina")materialları elmi dövriyyəyə cəlb edilmişdir.

Bəhs olunan dövrdə rusların Qafqazda fəaliyyətinin izlənməsi baxımından senator və akademik P.Q.Butkovun topladığı materiallar tarixşünaslıqda mühüm əhəmiyyət kəsb edir. Onun ilk xidməti fəaliyyəti Qafqazla bağlı olduğu üçün ilk əsərlərini də Qafqaza həsr etmişdir. Müəllifin topladığı materiallar onun irsini tədqiq edən komissiya tərəfindən "1722-1803-çü illərdə Qafqazın yeni tarixinin materialları və Krımın Rusiyaya birləşdirilməsi" adlı əlyazması 3 hissədən ibarət olmaqla cildləşdirilmişdir. Əsər rusların Qafqaz və Krımda fəaliyyəti,Persiya və Türkiyə ilə münasibətləri, Türkiyə və dağlılarla müharibəsi və digər məsələləri əhatə edir [4,s.19].

Müəllif 12 il Qafqazda çalışaraq bir çox vacib siyasi hadisələrin şahidi və iştirakçısı olmuşdur.Əsər bitkin halda deyildir, məzmunda boşluqlar vardır və formaca çapa hazır deyildi. Əsəri çapa hazırlayan komissiyanın müsbət rəyini nəzərə alaraq Rusiya Elmlər Akademiyası əsərin nəşrini məqsədəuyğun hesab etmiş və əsərin birinci hissəsi 1869-cu ildə Sankt-Peterburqda İmperator Akademiyasının nəşriyyatı tərəfindən nəşr edilmişdi. Kitabın bəhs edilən birinci hissəsi orijinalda olduğu kimi 2015-ci ildə Bakıda çap olunmuşdur.

A.Berje "Gürcüstanın Rusiyaya birləşdirilməsi 1799-1831" əsərində əsas diqqəti Qacar dövləti və Azərbaycanla bağlı məsələlərə də toxunmuşdur [3]. O, yazır: "Qafqazın fəthi I Pyotrun təxirəsalınmaz planının davamıdır. O, özü ordunu Kaspi sahilinə yeritmiş Persiyanın (mənbədə Səfəvi Qızılbaş dövlətinin adı belə yazılmışdır – N.Ə.) ən yaxşı vilayətlərini ələ keçirmişdir" [3,s.2]. Lakin onun varisləri bu planın əhəmiyyətini başa düşməyib, həmin vilayətləri qaytarmış, Pyotrun niyyətlərini unutmuşlar. Müəllif yazır ki,Qafqazın fəthi Gürcüstanın birləşdirilməsi ilə başlandı. Bəziləri belə hesab edir ki, Gürcüstan Rusiya tərəfindən işğal edilmişdir, əslində isə o Rusiyaya birləşdirilmişdir. Gürcüstanın Rusiyaya birləşdirilməsi məsələsi ciddi məqsəd kimi II Yekaterinanın çarlığı dövründə qarşıya qoyulmuşdur [3,s.3].

Müəllif yazır: Minqreliya və İmeretiyanı ələ keçirib Tavrida (Krım, Qara dənizin şimalı-N.Ə.) və ümumən Cənubi Rusiya su yolunu bağlamaq Gürcüstanın birləşdirilməsində birinci təşəbbüs idisə, Kaspi dənizi sahilindəki

kiçik xanlıqların fəthi ikinci təşəbbüs idi. Bunun Rusiya sənaye və ticarətinin çiçəklənməsi üçün də əhəmiyyəti var idi [3,s.30].

A.Berje belə qənaətə gəlir ki, hərbi nöqteyi-nəzərdən yanaşılsa, etiraf etmək lazımdır ki,Gürcüstan Rusiyaya birləşdirilməmişdir,rus ordusu tərəfindən işğal edilmişdir.Çünki Gürcüstanın hər bir şəhərini, kəndini qiyamçı şahzadələrə, yadelli düşmənlərə, qonşulara qarşı bizim qoşunumuz hərbi əməliyyat aparıb ələ keçirmişdir. Digər nöqteyi-nəzərdən bunu işğal kimi qəbul etmək olmaz. Çünki Gürcüstanı işğal emək planı, düşüncəsi olmamışdır. Hansı ki bu ölkədə bizimlə eyni dinə etiqad edən qardaş xalq məskunlaşmışdır, onların torpağı bizə lazım deyil [3,s.30].

XIX əsr Qafqaz müharibələrinin iştirakçısı general M.Y.Olşevskinin "Qafqaz 1841-ci ildən 1866-cı ilədək" əsəri XIX əsr Qafqaz müharibələri iştirakçılarının xatirələri əsasında yazılmışdır [21]. Müəllif özü müharibənin getdiyi Qafqaza hərbçi kimi göndərilmiş, orada Baş Qərargah zabiti, bir sıra hərbi hissələrdə rəis kimi xidmət etmiş, hərbi əməliyyatlarda, o cümlədən Krım müharibəsində (1853-1856) iştirak etmişdir.

Əsər 5 hissədən ibarət olmaqla Qafqazda yaşayan xalqların həyatı haqqında müəllifin müşahidələri ilə zəngindir.Cənubi Qafqaz xalqları haqqında əsərin III hissəsində məlumat verilir.Əsərdə Qərbi Azərbaycandakı xalqımıza aid toponimlərin Gümrü (Aleksandropol), Arpaçay, Oğuzlu, Qızıl kilsə, Alagöz dağlarının adı çəkilsə də, onların xalqımızla bağlı olduğu açıqlanmır. Bu yerlərdə erməni və köçəri kürd kəndlilərinin yaşadığı qeyd edilir. Həmçinin Aleksandropol qalası ətrafında yaşayan müsəlmanların bəzilərinin Türkiyəyə köçdüyü bildirilir, ancaq səbəbi göstərilmir. M.Olşevski burada yalnız Bayandur və Baharlı kəndlilərinin qaldığını göstərir [21,s.329]. Məlumdur ki, Bayandurlar Ağqoyunlu tayfalarından biridir. Sərdarabad, İrəvan, Qarakilsə, Baş-Abaran və sair yer adlarını sadalayır.Müəliif Loris-Melikov (erməni mənşəli), knyaz Orbeliani, knyaz Baryatinski kimi hərbçi və dövlət xadimləri haqqında da məlumatlar verir.

Rus hərbi tarixçisi,qafqazşünas S.S.Esadzenin iki cilddə çap olunmuş "Qafqazın idarə edilməsi haqqında tarixi qeyd" əsəri 1907-cı ildə Tiflisdə çap olunmuşdur [35]. Əsər rəsmi tarixşünaslıq mövqeyindən yazılmış və Qafqaz sərdarı Vorontsov-Daşkova həsr edilmişdi. Əsərdə əsas yer Qafqazın siyasi tarixinə ayrılsa da, müəllif bir sıra ictimai-iqtisadi məsələləri, o cümlədən kəndli islahatını da burada işıqlandıra bilmişdir.

Rus tarixşünaslığında bəhs olunan dövrdə Azərbaycan tarixi məsələləri ilə bağlı İ.L.Seqalın "Zaqafqaziyada kəndli torpaq sahibliyi" adlı kitabını da qeyd etmək lazımdı [26]. Müəllif tədqiqat obyektinin istiqamətlərini aşağıdakı kimi müəyyən etmişdir:Zaqafqaziyanın mədəni- iqtisadi inkişafını ləngidən amillər,kənd əhalisini müflisləşdirən səbəblər, taxılın azlığının, kəndlilərin aztorpaqlılığının səbəbləri,pay torpaqlarının, icma torpaqlarının mərzləş-

dirilməsi və satılması, pay torpaqlarından istifadənin qeyri-müəyyənliyi, icma torpaq sahibliyi kəndlilərin kasıblaşmasının əsas səbəbi kimi, torpaqların becərilməsinin intensivləşdirilməsi kəndli təsərrüfatlarının yaxşılaşdırılmasının radikal tədbiri kimi, 1906-cı il 9 noyabr – 1911-ci il 29 may tarixli Zaqafqaziya qanunlarının tətbiqi, kəsik və xutor təsərrüfatı,torpaqsız kəndlilərə torpağın icarəyə verilməsi və digər məsələlər [26,s.1-2].

Müəllif münbit təbiəti və güclü istehsal qabiliyyəti olan Zaqafqaziyanı Rusiyanın nadir guşələrindən biri adlandırır,kənd təsərrüfatı və sənaye rayonu kimi onun geriliyinin səbəblərini müəyyən edir. İ.Seqal Cənubi Qafqazın iqtisadiyyatından bəhs edərək rus imperiyasının iqtisadi siyasətinin daha düşüncəli qurulmasını arzulayır, müstəmləkələrin təbii sərvətlərindən daha səmərəli istifadə edilməsinə öz münasibətini bildirir. Yol verilən nöqsanları göstərir, təkliflər verir. Müəllif göstərir ki, böyük olmayan Zaqafqaziya dəmiryolu bu diyarda məhsuldarlığın artmasına müəyyən canlanma gətirsə də, bir o qədər əhəmiyyətli olmadı, xüsusən ölkənin şərq hissəsi üçün (Azərbaycan üçün – N.Ə.). Çünki Poti-Bakı başlıça dəmiryolunun birinci xətti tranzit (daşıma) məqsədilə çəkilmişdi. O, ticarət mallarını Qara dənizdəki gəmilərdən Kaspi dənizindəki gəmilərə daşımalı idi. Dəmiryolunun Bakı sahəsi isə nefti Bakıdan Batuma daşımalı idi. Neft burada emal edildikdən sonra Qara dəniz vasitəsilə gəmilərlə Avropaya nəql edilməli idi [26,s.4].

Kəndlilərin istismara və müstəmləkə əsarətinə qarşı mübarizəsini rus hərbi tarixçiləri "cinayət" kimi qiymətləndirirdilər, rus ordusunun qələbələrini tərənnüm edir, itkilərinə təəssüf edirdilər. S.O.Esadzenin "Qafqazın idarə olunması haqqında tarixi qeydlər", "Qafqaz ordusunun hərbi qəhrəmanlığı", P.N.Kovalevskinin "Qafqaz.Qafqazın fəthi tarixi", A.S.Piralovun "Zaqafqaziyada aqrar məsələ və kəndli iğtişaşları", Slujevinin "Qafqazın fəthi oçerkləri", Y.Naumenkonun "Yelizavetpol quberniyası. Hərbi-statistik təsvir" və başqa müəlliflərin əsərlərinə də bu cəhətlər xasdır [35;17;22;30;20]. Qafqazda mühüm vəzifələrdə işləmiş ayrı-ayrı çar məmurlarının xatirələri bizə kəndli islahatının keçirilməsi, bu aqrar qanunları həyata keçirənlər, eyni zamanda bəy komissiyaları haqqında sanballı məlumatlar verir.

"Zaqafqaziyada kəndli məsələsi" adlı dörd cildlik əsərin müəllifi S.A.Avaliani Zaqafqaziyada aqrar məsələnin görkəmli burjua tədqiqatçısı idi [1]. Əsərin 1914-cü ildə Odessada nəşr olunan üçüncü cildi bütünlüklə Azərbaycanda 1870-ci il kəndli islahatına həsr edilmişdir.

Aqrar münasibətləri öyrənmək sahəsində Qafqazda yüksək vəzifələrdə işləmiş,1870-ci il islahatının hazırlanmasında bilavasitə iştirak etmiş M.N.Kuçayevin tədqiqatları ("Yelizavetpol quberniyasında kəndli islahatı", "Zaqafqaziya diyarında feodalizm və təhkimçilik", "Xəzər vilayətində torpaq məsələsi") əhəmiyyətlidir [19].

XIX əsrin ikinci yarısında aqrar məsələləri, torpaq sahibliyi, torpaqdan istifadə,vergilər haqqında O.Seminin, V.P.Krivenkonun, V.Geyevskinin, S. Zavaryanın, İ.Alibekovun, V.M.İvanenkonun, S.A.Yegiazarovun əsərlərində xeyli materiallar toplanmışdır [27;28;29;18;6;14;2;15;11;12].

1870-ci il islahatından sonrakı dövrdə Azərbaycanda qaçaqlar hərəkatı özünün yüksəliş mərhələsinə çatmışdır. Məhkəmə orqanlarında işləmiş A.S.Frenkel "Qafqazda quldurluğa qarşı mübarizə vasitəsi" əsərində Qafqazda məşhur olan 18 qaçağın adını çıkmişdir [33].O, qaçaqları quldur adlandırmış, "Qafqazda quldurluq tarixinə dair"əsərində qaçaqların törətdiyi bəlalardan bəhs etmişdir [33].

Bəhs olunan dövrdə Cənubi Qafqazın sosial-iqtisadi və siyasi həyatından bəhs edən V.L.Veliçkonun "Qafqaz. Rus işi və tayfalararası məsələlər", V.Jelixovskayanın "Qafqaz və Zaqafqaziya", V.Kazaçkovskinin "Qafqazda quldurluq (oçerk)", Q.M.Tumanovun "Qafqazda torpaq məsələsi və cinayətkarlıq", "Qafqazda quldurluq və məhkəmə islahatı" əsərlərində qaçaqlar haqqında dəyərli məlumatlar verilir [5;13;16;32].

Burjua tədqiqatçılarının diqqətini daha çox Azərbaycan neft sənayesinin tarixi cəlb etmiş, tarixçilər, iqtisadçılar və statistlər bu barədə bir sıra əsərlər yazmışlar.Burjua tarixşünaslığının Azərbaycan neft sənayesinin tarixinə həsr edilmiş həmin əsərlərindən biri Q.Y.Startsevin kitabıdır [31]. O,neft sənayeçiləri qurultayı Şurası Statistika bürosunun müdiri vəzifəsində çalışaraq neft sənayesinin tarixi, Bakıda proletar kadrların əmələ gəlməsi məsələləri və fəhlələrin vəziyyətinə çox böyük maraq göstərirdi.

Burjua qafqazşünaslığı və şərqşünaslığı Şərqin, o cümlədən Azərbaycanın öyrənilməsi sahəsində ümumiyyətlə müəyyən müsbət iş aparırdı. Həmin ölkələr haqqında külli miqdarda faktlar toplansa da, onlar çarizmin hakim millətçilik, ruslaşdırma siyasətinin təsirini əks etdirirdi. Xüsusən, digər xalqların tarixi kimi Azərbaycan tarixinin də xüsusi tədqiqat obyekti olmaması və burjua şərqşünaslığının Azərbaycan tarixindən ötəri, Qafqazın və bütövlükdə Şərq tarixinin ayrı-ayrı məsələlərinin aydınlaşdırılması ilə əlaqədar olaraq bəhs etmələri də məhz bununla əlaqədar idi. Həm də burjua-zadəgan tarixşünaslığının nümayəndələri çox zaman Azərbaycan xalqının maddi və mənəvi mədəniyyətinin tarixini qəsdən təhrif edirdilər.

N.Şavrovun "Zaqafqaziyada rus işinə yeni təhlükə: Muğanın özgə xalqlara qarşıdakı satışı" əsərində işıqlandırılan məsələlər indi də aktuallıq baxımından öz dəyərini itirməmişdir [34]. Əsərin elmi dəyərini artıran xüsusiyyətlərdən biri müəllifin özünün tarixi proseslərin içində olması,öz müşahidəsi əsasında ona münasibət bildirməsidir.Əsərdə statistik faktlar üstünlük təşkil edir, müəyyən məsələlərə aydınlıq gətirmək üçün müəllif cədvəllər tərtib etmiş, hadisələri xronoloji ardıcıllıqla vermişdir. Təəssüf ki, müəllif istifadə etdiyi mənbələri göstərməmiş, yalnız bir-iki müəllifin adını çəkmişdir.

Əsərdə Muğan çölünün qısa təsviri, buranın iqlimi, bitki örtüyü və faunası, kənd təsərrüfatı, Muğanın ruslar tərəfindən məskunlaşmasının siyasi və iqtisadi əhəmiyyəti, buradakı rus qəsəbələri, Rusiyanın Zaqafqaziyada məskunlaşdırma siyasəti kimi məsələlər öz əksini tapmışdır.

N.Şavrov rusların burada məskunlaşdırılmasının hərbi-siyasi əhəmiyyətini açıqlayır: İranla sərhədlərin qorunmasına kömək edəcək, xüsusən cənubdan hücum edən şahsevən tayfasının basqınlarından qorunmaqda, rus əhalisinin Persiya,Osmanlı, Dağıstan, gürcü və ermənilər bizə qarşı birləşdikdə onlara müqavimət göstərəcək, əgər Şərqi Zaqafqaziyada (Quzey Azərbaycan – N.Ə.) 1milyon rus yerləşdirsək, gələcəkdə Osmanlı ilə müharibədə biz böyük üstünlük qazanarıq [34,s.62].

N.Şavrov yazır ki, Zaqafqaziyada rus imperiyasının 100 illik ağalığı dövründə dövlət tərəfindən fəth olunmuş boş torpaqlarda 1.200.000 özgə xalqın nümayəndəsi, güc-bəla ilə 240.000 rus yerləşdirildi. Bununla da dövlət torpaq fondunun böyük bir hissəsini itirdi. Mədən və meşə sərvətləri özgə xalqların xüsusi mülkiyyətinə keçdi,ticarət və ixracat əməliyyatı yəhudilərin, iqtisadi ağalıq ermənilərin əlində toplandı, onlar indi ölkənin ağası sayılır. Nəticədə Zaqafqaziyada bizim köçürmə siyasətimiz ağlamalı oldu [34,s.69-70].

N.Şavrovun köçürmə siyasəti barədəki faktları ermənilərin saxtakarlığına tutarlı cavabdır, onların yalanlarının daşını daş üstə qoymur. O,yazır ki,biz Zaqafqaziyada məskunlaşdırma siyasətinə oraya rusları deyil, özgə xalqları köçürtməklə başladıq.1819-cu ildə Vürtemberqdən (Almaniya) 500 alman ailəsini Tiflis və Yelizavetpol quberniyasının ən yaxşı dövlət torpaqlarına köçürdük. 1826 - 1828-ci illər müharibəsi bitdikdən sonra Zaqafqaziyaya 40.000-dən artıq İran və 84.000 Türkiyə ermənisi köçürülüb. Erməni əhalisinin az miqdarda yaşadığı Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqlarında, Tiflis quberniyasının Borçalı, Axalsıx, Axalkalı qəzalarında yerləşdirdik [34,s.62-63]. Zaqafqaziyaya özbaşına gələn və məskunlaşdırılan əhali ilə bağlı aşağıdakı statistik məlumatlar maraqlıdır.Ermənilər -1.000.000 hər iki cinsdən; Polyaklar -17.264; Çexlər - 2.041; Latışlar - 4.561; Moldavanlar - 2.724; Yunanlar -82.043; Yəhudilər - 30.890; Estonlar -5.241; Aysorlar - 5.028; Cəmi:1.147.972. Bu rəqəmlər 1897-ci ildə ermənilərdən başqa digər gəlmələrin də həddindən artıq çox olduğunu göstərir. İndi ermənilərin sayı daha çoxdur [34,s.64-65].

Rus tarixçisi V.Veliçkonun "Qafqaz. Rus işi və tayfalararası məsələlər" adlı əsəri ermənilərin xarakterinin öyrənilməsi, onların iç üzlərinin açılması sahəsində yazılan ilk sistemli əsərdir [5].Əsər giriş, keçmişin səciyyəsi, gürcü qardaşlar, rus-gürcü münasibətləri, ermənilər, teokratiyaya keçid və monofizitlik, tayfa ayrıseçkiliyi və iqtisadi hökmranlıq, türk qəddarlığı haqqında həqiqət, kilsənin siyasi rolu və erməni proqramı, erməni-qriqoryan kilsəsi əmlakının idarə olunmasının islahatı və erməni azğınlıqları, Azərbaycan

tatarları, Dağıstan dağlıları, kazaklar, təriqətçilər və rus mühacirləri və s. kimi başlıqlardan ibarətdir. Əsər həmçinin 1905-1906-cı illər qırğınları ərəfəsində Cənubi Qafqazda baş verən ictimai-siyasi prosesləri işıqlandırmağa da kömək edir.

V.Veliçko XIX-XX əsrin əvvəllərindəki erməni sosial mühitini belə xarakterizə edir: ermənilər haqqında qədimdən pis fikir yaranıb və bu, söz yox ki, əsassız deyil ... əvvəla erməni xalq kütləsini yırtıcı, həris, öz varı-dövləti sayəsində nüfuza və hakimiyyətə sahib olan adamlardan, siyasətbazlıqla məşğul olan avam, cahil ruhanilərdən və pencəktikən saxta dərzi ziyalılardan, günahsız rəiyyəti incidən hakim erməni ictimai təbəqələrindən ayırmaq lazımdır. İkincisi, hakim siniflərin arasında da şübhəsiz pis olmayan və günahsız, əsasən öz başçılarının terroruna və qeyri-normal inkişaf etmiş tayfalarının ... milli ideyalarının iradəsinə ürəkdən tabe olmayan xeyli adam var [5,s.46]. İmperatriça II Yekaterinanın çarlığı dövründə ermənilərin arasından bir çox cəhətdən qəribə, azğın və böyük siyasi bacarığa malik olan ... bir adam meydana çıxmışdır. Bu gürcüləşmiş və gürcü çarlarından knyaz rütbəsi almış erməni mənşəli arxiyepiskop İosif idi. O, hərfi tərcüməsi "Enlikürək Arqutov" olan, sonra rusca "Arqutinski-Dolqoruki" kimi işlənən Arqutaşvili Mqrdzeli familiyasını daşıyırdı. Bu familiyanın rus tarixindəki Ryurik Dolqorukilərlə heç bir əlaqəsi yoxdur.Gürcü çarı II İraklinin dövründə ermənilərdə özünüdərketmə oyatmağa çalışan ... Arqutinskinin sayəsində bəzi Qarabağ məlikləri və onların itaətində olan kəndlilər Gürcüstanda yerləşdirilmiş və Şulaveri kəndini salmışdılar. İki məlik – Məcnun və Abo (Qarabağ məlikləri – N.Ə.) yeni ağalarına xəyanət etmiş və 1795-ci ildə Tiflisi oda qalayan İran (Qacar) şahı Ağa Məhəmməd xanın bələdçi casusları olmuşlar [5,s.58].

V.Veliçko Zaqafqaziyanın iqtisadi həyatının ermənilər tərəfindən ələ keçirilməsini təhlükəli sayırdı. Müəllif XIX əsrin ikinci yarısında ermənilər arasında tayfa ayrı-seçkiliyinin (separatizmin) sürətlə artmasını Rusiyaya qarşı xəyanət hesab edirdi. V.Veliçko Azərbaycan tatarlarının (türklərin, azərbaycanlıların) zəhmətkeşliyini qeyd edir, türklərin "vəhşiliyi" məsələsini isə ermənilərin və Qərbin şişirtdiyini göstərir.

Beləliklə,dövrün rus hərbi tarixçiləri yazdıqları əsərlərdə Azərbaycanın hərbi-siyasi tarixi ilə bağlı məsələlərə müəyyən dərəcədə toxunmuşlar.Qeyd etmək lazımdır ki, bu əsərlərdə hakim dövlətçilik, velikorus şovinizmi, müstəmləkəçilik, xristian təəssübkeşliyi ruhu hiss olunur.

Qeyd etmək lazımdır ki, sovetlər dövrünədək qafqazşünas alimlər çarizmin Qafqazdakı işğal siyasətinin mahiyyətini pərdələyir, ona xilaskarlıq donu geyindirirdilər,Rusiyanın Qafqazda xristian sivilizasiyasını vəhşi müsəlman sivilizasiyasından qoruduğu göstərilirdi. Eyni zamanda rus tarixşünaslığında Rusiyanın Qafqazdakı siyasəti rus imperatoru I Pyotrun başladığı işin davamı kimi qiymətləndirilirdi. Rus müəllifləri bəhs olunan dövrdə hərbi-siyasi

proseslərə aydınlıq gətirmək üçün hadisələrin tarixi köklərini araşdırır, bunun üçün XVIII əsrə də ekskurs edirdilər.

Rus-burjua zadəgan tarixçilərinin əsərlərində xanlıqların ləğvi, Azərbaycanda rus hərbi idarəetmə sistemi və daha sonra bərqərar olmuş mülki idarəçilikdən bəhs olunsa da, bu sistemin yerli xalqı əzməsi barədə məlumatlara diqqət yetirilməmişdir və ya onun üzərindən sükutla keçilmişdir.Xanlıqların əhalisindən bəhs edərkən bəzi xalqlar haqqında bəhs edilsə də, Azərbaycan türkləri haqqında susurlar.

Azərbaycan iqtisadiyyatının əsas sahəsi olan neft sənayesinin tədqiqinə rus müəllifləri xeyli əsərlər həsr etmişlər. Doğrudur, onların Azərbaycan tarixinə həsr olunmuş xüsusi əsərləri olmasa da, dövrün Azərbaycan tarixçilərindən fərqli olaraq ölkəmizlə bağlı məsələləri işıqlandırarkən rəsmi dövlət sənədlərinə, bəzi hallarda mətbuat materiallarına istinad etmiş, məsələlərə öz münasibətlərini bildirmişlər.

## Ədəbiyyat:


1. Авалиани, С.Л. Крестьянский вопрос в Закавказье.т.т.1;III. Одесса: Техник;- 1912-1914. -514 с.
2. Алибеков, И. Елисаветпольские кровавые дни перед судом обществ., Тифлис:- 1906
3. Берже, А.П. Присоединенıе Грузıи къ Россıи 1799-1831. “Русская старина” 1880 г
4. Бутков, П.Г.Матерıалы для новой исторıи Кавказа, съ1722-1803 годъ.. часть первая. СПб.,1869. Баку: -Ренессанс, - 2015.- 572 с.
5. Величко, В.Л. Кавказ.Русское дело и междуплеменные вопросы. СПб.,1904. 188 стр.
6. Геевский, В.Краткий очерк земледелия за Кавказом. Тифлис: -1887.
7. Дубровин, Н.Ф. Исторıя войны и владычества русскихъ на Кавказъ.Томъ 1.Очеркъ Кавказа и народов его населяющихъ. Книга 1. Кавказъ. СПб: -Въ типографıи Департамента удъловъ, литейный проспектъ, д.№39,- 1871. -640 с.
8. Дубровин, Н.Ф. Исторıя войны и владычества русскихъ на Кавказъ.ТомъIV. СПб: -Типографıи И.Н.Скороходова (Надеждинская, д.№39), -1886. -536 с.
9. Дубровин,Н.Ф. Исторıя войны и владычества русскихъ на Кавказъ.Томъ V. Складъ изданıя у В.А.Березовскаго. СПб: -Колокольная, собственный д.№14, -1887. - 495 с.

10. Дубровин, Н.Ф. Исторія войны и владычества русскихъ на Кавказъ. Томъ VI. Ртищевъ и Ермоловъ.Склад издания у В.А.Березевского,СПб: - Колокольная,№ 14, -1888. - 756 с.
11. Егиазаров, С.А. Сельская община в Елисаветпольской губернии.- МИЭБГКЗК т.II,III,IV. Тифлис: -1887
12. Егиазаров, С.А.Исследование по истории учреждений Закавказье. Т.1, Сельская община, Казань: - 1889
13. Желиховская, В. Кавказ и Закавказье. Москва: -1913.
14. Заварян, С. Экономические условия Карабаха и голод 1906-1907 гг. СПб.,1907
15. Иваненко, В.Н. Гражданское управление Закавказьем от присоединения Грузии до наместничества Великого князя Михаила Николаевича. Тифлис: -1901.
16. Казачковский, В. Разбой на Кавказе (очерк). Владикавказ: - 1913
17. Ковалевский, П.Н. Кавказ. История завоевания Кавказа.т.2 СПб.,1915
18. Кривенко, В.П. Кавказские очерки, СПб.,1910.
19. Кучаев, М.Н. Крестьянская реформа в Елисаветпольской губернии. Тифлис: -1885.
20. Науменко, Е. Елизаветпольская губерния. Военно-статистическое описание ч.1.Тифлис: - 1903
21. Ольшевский, М.Я. Кавказ с 1841 по 1866 год. Воспоминания участников Кавказской войны XIX века. Санкт-Петербург: - 602 стр.
22. Пиралов, А.С. Аграрный вопрос и крестьянские беспорядки в Закавказье. Тифлис: - 1905
23. Потто, В.А. Кавказская война. В отдельнıхъ очеркахъ, эпизодахъ, легендахъ и бıографияхъ. В 5 томах. Томъ 1. От древнейщихъ временъ до Ермолова. выпускъ 1-IV. СПб1885. 164 с. Томъ2. Ермоловское время. ВыпускъI-IV. Издание второе. СПб1885. 760 с. Томъ3. Персидская война 1826-1828 гг. СПб 1888. 759 с.
24. Потто, В.А. Утверждение русского владычества на Кавказе.т.IV. Тифлис: - 1901-1906
25. Свод материалов по изучению экономического быта государственных крестьян Закавказского края. III т. Тифлис:1888.
26. Сегаль, И.Л. Крестьянское землевладение в Закавказье. Тифлис: - 1912.-296 с.
27. Сегаль,И.Л. Развитие хлопководства в Закавказском крае и современное состояние его. Труды съезда хлопководов. Тифлис: - 1914;

28. Сегаль,И.Л.Сборник сведений о Елисаветпольской губернии, Тифлис: - 1902
29. Семин, О.Великая годовшина, Аграрный вопрос и крестьянская реформа на Кавказе. Киев: -1911
30. Служевый.Очерки покорение Кавказа. СПб.,1905
31. Старцев, Г.Е.Бакинская нефтяная промышленность. Историко-статистический очерк. Баку:-1901.
32. Туманов, Г.М. Земельные вопросы и преступность на Кавказе. СПб.,1900. Разбой и реформа суда на Кавказе.СПб.,1908.
33. Френкель, А.С.Средства для борьбы с разбоями на Кавказе. Тифлис:- 1898 г.
34. Шавров, Н.Н. Новая угроза Русскому Дълу въ Закавказьъ: Предстоящая Распродажа Мугани Инородцамъ. СПб. Типографія Редакціu періодическихъ изданій Министерства Финансовъ.1911.Баку:Элм,-1990.-156 с.
35. Эсадзе, С.С. Историческая Записка объ управленıи Кавказомъ. Томъ I-II. Составилъ Редакторъ Военно-Историческаго Отдъла Окружнаго штаба Тифлисъ.1907.

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA EKOSİD NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASI VƏ EKOLOJİ TARAZLIĞIN BƏRPASI.

**Nəbi Əsədov**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
n.asadov81@gmail.com

***Açar sözlər:*** *ekologiya, ekoloji tarazlıq, ekosid, Qarabağ, Şərqi Zəngəzur, azad olunmuş ərazilər, monitorinq, Qafqaz ekologiyası, flora, fauna, Yaşıl enerji, biomüxtəliflik*

*Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur regionları 30 ilə yaxındır ki, Ermənistan tərəfindən işğal olunmuşdur. Ermənistanın bu təcavüzkar siyasəti təkcə bölgələrin siyasi-iqtisadi və sosial-mədəni həyatını deyil, həmçinin də Qarabağ və Şərqi Zəngəzurun təbii mühitini təhlükə altına qoymuşdur. Düşmənin bu ərazilərdə təbii mühiti məhv etməsi təkcə Azərbaycanda deyil, bütün Cənubi Qafqazda ekoloji vəziyyətə böyük mənfi təsir göstərmişdir. Bu səbəbdən Azərbaycan hələ "Qırx dörd günlük" müharibə bitməmiş regionda ekoloji monitorinqin aparılması üçün təcili tədbirlər görmüşdür. Belə ki, prezidentin "Azərbaycan Respublikasının azad edilmiş ərazilərində müvəqqəti xüsusi administrasiyanın təşkili haqqında" 29 oktyabr 2020-ci il tarixli Fərmanına əsasən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ekoloqları və əməkdaşları Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarında monitorinq fəaliyyəti aparmışdılar. Aparılan monitorinq və müşahidələr ilk növbədə göstərdi ki, düşmən meyvə ağacları belə məhv etmiş, qiymətli ağac sortlarını isə talayıb Ermənistana daşımışdı. Meşələri və yaşılıq zonalarda qəsdən yanğınlar törədərək həm bitki, həm heyvanat aləmini məhv etmiş həm də torpağın münbit qatını sıradan çıxartmışdır.*

*Erməni vandalizmini təsdiq edən faktlardan biri də keçmiş SSRİ dövründən qalmış Xüsusi mühafizə olunan statusu olan nadir təbiət abidələri siyahısına daxil edilmiş minillik ağacların kəsilməsi ilə regionun zəngin təbii tarixinin qəsdən silinməsinə cəht edilmişdir.*

*İşğaldan azad olunmuş ərazilərdə aparılan monitorinqin nəticələrinə əsasən Qubadlı, Füzuli və Cəbrayıl rayonlarında 1600, 900 və 500 illik Şərq çinar ağaclarının məhv edildiyi müəyyən edilmişdir.*

*Vətən müharibəsində Azərbaycanın böyük qələbəsindən və torpaqlarımızın işğaldan azad edilməsindən sonra ölkəmiz üçün yeni bir dövr başladı. Münaqişədən sonrakı dövrün əsas vəzifələrindən biri işğaldan azad edilmiş ərazilərdə ekosidin nəticələrin aradan qaldırılması və ətraf mühitə dəymiş zərərin dayanaqlı bərpasıdır.*

# ЛИКВИДАЦИЯ ПОСЛЕДСТВИЙ ЭКОЦИДА В КАРАБАХЕ И ВОСТОЧНОМ ЗАНГЕЗУРЕ И ВОССТАНОВЛЕНИЕ ЭКОЛОГИЧЕСКОГО БАЛАНСА.

**Наби Асадов**

***Ключевые слова***: *экология, экологическое равновесие, экоцид, Карабах, Восточный Зангезур,освобожденные земли, мониторинг, экология Кавказа, флора, фауна, зеленая энергия, биоразнообразие.*

*Карабахский и Восточно-Зангезурский районы Азербайджана оккупированы Арменией уже почти 30 лет. Эта агрессивная политика Армении поставила под угрозу не только политико-экономическую и социально-культурную жизнь регионов, но и природную среду Карабаха и Восточного Зангезура. Разрушение врагом природной среды на этих землях оказало большое негативное влияние на экологическую ситуацию не только в Азербайджане, но и на всем Южном Кавказе.*

*По этой причине еще до окончания "сорокадневной" войны Азербайджан принял срочные меры по проведению экологического мониторинга в регионе. Так, в соответствии с Указом Президента "Об организации временной специальной администрации на освобожденных территориях Азербайджанской Республики" от 29 октября 2020 года, экологи и сотрудники Министерства экологии и природных ресурсов начали мониторинг в Губадлинском, Зангиланском, Джабраильском, Физулинском и Ходжавендском районах.Мониторинг и наблюдения в этих районах показали, что в первую очередь были уничтожены все плодовые деревья, а местами и ценные сорта. Преднамеренные пожары в лесах и зеленых зонах уничтожили растительность, плодородную почву и животный мир.*

*Одним из фактов, подтверждающих армянский вандализм, является умышленная вырубка тысячелетних деревьев, включенных в список уникальных памятников природы с особо охраняемым статусом, оставшихся со времен бывшего СССР, и создание условий для намеренного стирания богатой природной истории региона.*

*По результатам мониторинга на освобожденных территориях было установлено, что в Губадлинском, Физулинском и Джабраильском районах были уничтожены 1600, 900 и 500-летние восточные платаны.*

*После великой победы Азербайджана в Отечественной войне и освобождения наших земель от оккупации для нашей страны началась новая эпоха. Одной из главных задач постконфликтного периода является*

*предотвращение экологической катастрофы на освобожденных от оккупации территориях и восстановление ущерба, нанесенного окружающей среде*

# ELIMINATION OF THE CONSEQUENCES OF ECOCIDE IN KARABAKH AND EAST ZANGEZUR AND RESTORATION OF ECOLOGICAL BALANCE.

**Nabi Asadov**

***Keywords:*** *ecology, ecological balance, ecocide, Karabakh, East Zangezur, liberated lands, monitoring, Caucasus ecology, flora, fauna, green energy, biodiversity.*

*The Karabakh and East Zangezur regions of Azerbaijan have been occupied by Armenia for almost 30 years. This aggressive policy of Armenia jeopardized not only the political-economic and socio-cultural life of the regions, but also the natural environment of Karabakh and East Zangezur. The destruction of the natural environment in these lands by the enemy had a great negative impact on the ecological situation not only in Azerbaijan, but also in the entire South Caucasus.*

*For this reason, even before the end of the "Forty-four Day" war, Azerbaijan took urgent measures to conduct environmental monitoring in the region. Thus, in accordance with the Presidential Decree "On Organisation of Temporary Special Administration in the Liberated Territories of the Republic of Azerbaijan" of 29 October 2020, ecologists and employees of the Ministry of Ecology and Natural Resources started monitoring in Gubadli, Zangilan, Jabrayil, Fizuli and Khojavand districts.*

*The monitoring and observations in these areas first of all showed that all fruit trees were destroyed and valuable varieties of trees were cut down in some places. Deliberate fires in forests and green areas have destroyed vegetation, fertile soil and animal life.*

*One of the facts confirming Armenian vandalism is the deliberate cutting down of thousand-year-old trees included in the list of unique natural monuments with a specially protected status left from the times of the former USSR and creating conditions for the deliberate erasure of the rich natural history of the region.*

*One of the facts confirming Armenian vandalism is the deliberate cutting down of thousand-year-old trees included in the list of unique natural monuments with specially protected status of the former Soviet era and the*

*creation of conditions for the deliberate erasure of the rich natural history of the occupied territories. According to the results of monitoring in the liberated territories, it was found that 1,600, 900 and 500-year-old eastern plane trees were destroyed in Gubadli, Fizuli and Jabrail districts.*

*After the great victory of Azerbaijan in the Patriotic War and liberation of our lands from occupation, a new era has begun for our country. One of the main tasks of the post-conflict period is to prevent an environmental disaster in the territories liberated from occupation and to restore the damage caused to the environment*

İlk olaraq qeyd edim ki, ekosid hərbi münaqişələr dövründə ətraf mühitin düşmən tərəfindən qəsdən və ya qanunsuz şəkildə məhv edilməsi, istismarı və ya dəyişdirilməsi kimi xarakterizə olunur.

25 dekabr 2023-cü il Respublika prezidentinin qərarı ilə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ilə əlaqədar olaraq diqqət və "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" prioritet müstəvidədir.Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılması əhəmiyyətli mövqe daşıyır. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işlərində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan olunmuşdur. [1] Apardığımız araşdırmada işğaldan sonra azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda aparılan ekoloji bərpa siyasətinə həsr olunmuşdur.

Uzun müddət Ermənistan tərəfindən işğal altında saxlanılan Azərbaycan ərazilərində ətraf mühit minimal tarazlığını qorumasındandanışmaq belə mümkün deyildi. Ermənistanın işğalçılıq siyasəti təkcə Azərbaycanın deyil, ümumilikdə bölgənin təbii ekoloji mühitini təhlükə altına almışdır, düşmənin bu torpaqlarda ekosit həyata keçirməsi ilə bütün Qafqazın ekoloji durumuna çox böyük mənfi təsir göstərmişdir.

Elə bu səbəbdən Azərbaycan höküməti hələ Vətən Müharibəsi yekunlaşmamış, azad edilən ərazilərdə təcili və təxirəsalınmaz monitorinqlərin aparmış, üzə çıxan problemləri dərhal aradan qaldırılmasına səy göstərilmişdir. Belə ilk tədbirlərdən biri də, Prezidentin "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" 2020-ci il 29 oktyabr tarixli Fərmanı ilə verilmiş tapşırıqlara əsasən, ətraf mühitin qorunması, təbii sərvətlərdən səmərəli istifadə və onların ilkin qiymətləndirilməsi məqsədilə yaradılmış Əməliyyat Qərargahlarında təmsil

olunan Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının ərazilərində monitorinqlərə başlanıldı. [5]

İlk olaraq, Füzuli, Cəbrayıl və Zəngilan ərazilərində aparılan monitorinq göstərdi ki, talan olunmuş yaşayış məntəqələrində külli sayda tut, qozvə s.,meyvə ağacları məhv edilmişdir. Meşələrdə qovaq, çinar, şam, palıd və s. qiymətli ağaclar kəsilmişdir, işğaldan əvvəl Qarabağ və Şərqi Zəngəzur ərazisində meşə örtüyünün sahəsi 260 min hektar idi, işğal illərində təxminən 54 min hektar meşə örtüyü ermənilər tərəfindən məhv edilmişdir.
Ermənilərin özlərinin məlumatına görə, yalnız 2014-2018-ci illərdə Azərbaycanın işğal edilmiş ərazilərində bütün Ermənistana nisbətən 2,3 dəfə çox ağac kəsilmişdir (404,800 kubmetr və 175,300 kubmetr).

Yaşıllıq massivlərində qəsdən törədilmiş yanğınlar nəticəsində bitki örtüyü, münbit torpaq qatı və digər canlı aləm məhv edilmişdir.

Erməni işğalçılarının tapdağı altında qalmış 43 min hektar sahəsi olan xüsusi mühafizə olunan təbiət ərazilərində - Bəsitçay və Qaragöl dövlət təbiət qoruqlarında, Arazboyu, Laçın, Qubadlı və Daşaltı dövlət təbiət yasaqlıqlarında "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na daxil edilmiş 24 fauna və 69 flora növü qorunurdu ki, bunların da əksəriyyəti artıq məhv edilib. Həmçinin ölkəmizə qarşı ekoloji terror bununla bitməyib, ermənilər 1999-cu ildən başlayaraq işğal olunmuş ərazilərdə və həmin sahələrə yaxın torpaqlarda yanğınlar törədib. Nəticədə geniş miqyasda torpaq qatı, fauna və flora növləri məhv olub. Belə ki, 2006-cı ildə 63414 hektar, 2007-ci ildə 31097 hektar, 2008-ci ildə 380 hektar, 2009-cu ildə 250 hektar ərazi qəsbkar düşmən tərəfindən yandırılıb.

Ermənistan Azərbaycana qarşı həmçinin hidroterror siyasətini də həyata keçirmişdir. Qeyd etməliyik ki, vaxtı ilə yaradımış kənd təsərüfatı və yaşılıq zonalrını suvarmaq üçün nəzərdə tutulan su tutarları da işğal dövründə dağıdılmış, çaylar və təbii su hövləri isə bir çoxu zəhərli maddələrlə çirkləndirilmişdir. İşğal zamanı düşmən Sərsəng su anbarından çıxan Tərtər çayının suyunu kəsirdilər. Xüsusi ilə yay aylarında suya daha çox tələbat olanda suyu kəsib Sərhəng su anbarında saxlayırdılar. Qış və yaz aylarında isə çaya verilən suyu artıraraq anbardan aşağıda yaşayan yerli əhaliyə təhlükə yaradırdılar. Xaçınçay su anbarı su ehtiyatının təmin edilməsi məqsədilə Azərbaycan hökuməti tərəfindən 1964-cü ildə istismara verilmişdi. Lakin ermənilər 27 il ərzində bu su anbarından istifadəni əngəlləmişdi. Həmçinin, Qarqar çayının çirklənməsini göstərə bilərik.

Eyni zamanda torpaq bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunmuşdur.

Qarabağ müharibəsi zamanı ermənilərin Qarabağ ərazisində basdırdıqları çoxsaylı minalara insanlarla bərabər vəhşi təbiətin nadir növdən olan heyvanlara da zərər verir.

Türkiyənin dəstəyi ilə Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" layihələri gələcəkdə bir milyon tingin istehsal olunması, əkilməsi və yaşıllıq ərazilərin genişləndirilməsi nəzərdə tutur. Artıq demək olar ki, müxtəlif rayonlarda bir neçə hektar ərazidə müxtəlif növ ağaclar əkilib. İstismar olunan yataqlarla bağlı hələ ki heç bir iş görülmür. Onlar sübut olaraq saxlanılır. 2022-ci il ərzində Qarabağda BMT-nin Ətraf Mühit Proqramı ilə birlikdə qiymətləndirmələr aparılıb, nəticədə təxminən 29 milyon ton tikinti tullantısı aşkarlanıb. Onların təkrar istifadəsi ilə bağlı BMT ilə birgə layihə hazırlanır. Digər tərəfdən Zəngilanda transsərhəd Oxçuçayın çirkləndirilməsi ilə bağlı da dövlətimiz beynəlxalq konvensiyalara uyğun məsələ qaldırmağı planlaşdırır".

Erməni vandallığını sübut edən faktlardan biri də, düşmənin hələ Sovet dövründən xüsusi qorunma statusu olan unikal təbiət abidələri siyahısına daxil edilmiş yüzilliklərlə yaşı olan ağacların qəsdən kəsilməsi, Qarabağın və Şərqi Zəngəzurun zəngin təbiət tarixinin bilərəkdən silinməsinə şərait yaradılmasıdır. Azad edilmiş ərazilərdə aparılan monitorinqlərin nəticələrinə əsasən, Qubadlı, Füzuli və Cəbrayıl rayonlarının ərazisində yaşı 1600, 900 və 500 il olan Şərq çinarlarının məhv edildiyi müəyyən olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci ildə "Şuşa ili" çərçivəsində etdiyi çıxışlar bölgənin ekologiyasının priorietdə saxlandığını qeyd etmişdir. "...Qarabağ ekoloji fəlakət zonasına çevirmişdir... Bir cinayət də cavabsız qalmayacaq".

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəsmisi bildirib ki, artıq Azərbaycan dövləti işğaldan azad edilən ərazilərdəki qoruq və yasaqlıqlar yenidən bərpa etməsi üzrə işlərə start verib. O qeyd etmişdir ki, azad edilən ərazilərdə işğaldan öncə 43 min hektara yaxın xüsusi mühafizə olunan təbiət ərazisi var idi. Bunlardan: iki Dövlət Təbiət Qoruğu, dört Dövlət Təbiət Yasaqlığı idi. Bu qoruq və yasaqlıqların yenidən bərpası nəzərdə tutulub. İşğaldan azad edilən rayonlarda xüsusi mühafizə olunan ərazilərin mövcud vəziyyəti ilə bağlı qiymətləndirmə işlərinə başlanıldığını vurğulamışdır.

İşğaldan azad olunmuş ərazilərdə biomüxtəliflik komponentlərinin tarixi areallarına qaytarılması davam etdiriləcək. Həssas ekosistemlərin bərpası, o cümlədən flora və fauna növlərinin qorunması üçün əsas fəaliyyətlərdən hesab olunan reintroduksiya layihələri davam etdirilir. İşğal dövründə bioloji müxtəliflik komponentlərinə ciddi ziyan dəymiş Qarabağ bölgəsində də bu layihələrin icrası planlaşdırılır. İşğaldan azad edilmiş ərazilərdə fauna növlərinin-ceyran, bezoar keçisi, dağıstan turu və nəcib maralın, o cümlədən

balıq və yırtıcı quş növlərinin 2022-2024-cü illər ərzində öz tarixi areallarına reintroduksiyası nəzərdə tutulub.

Artıq balıq növlərinin populyasiyasının bərpası üçün işlər görülüb. Son iki ildə işğaldan azad edilmiş ərazilərdəki Bəsitçay, Həkəri və Bərgüşad çaylarının hövzələrinə qızılxallı forel balığının buraxılışı təşkil olunub və bu işlər növbəti dövrlərdə də həyata keçiriləcək. Ceyran fərdlərinin Cəbrayıl və Zəngilan rayonları ərazisinə, əvvəllər məskunlaşdıqları areallarına qaytarılması üçün hazırlıq işlərinə başlanılıb.

Hazırkı dövrədək ümumilikdə, 293 baş ceyran ölkənin təbii areallarına reintroduksiya edilib və aparılan son sayğı monitorinqlərinin nəticələrinə görə, Azərbaycanda 7000-dən artıq ceyran fərdinin yayılması qeydə alınıb. Xüsusilə zubrların Azərbaycanda tarixi məskunlaşma yerlərinə qaytarılması prosesi aparılır.

Azərbaycan bərpaolunan enerji mənbələri üzrə geniş potensiala malik olan ölkələrdəndir.Qarabağ və Şərqi Zəngəzur xüsusi ilə, bölgənin dağ çayların bol olması, günəşli günlərinin uzun sürməsi, dağlıq hissələrində kifaytə qədər küləkli arazilərin və zəngin termal suların olması  Qarabağ və Şərqi Zəngəzurun yaşıl zona elan edilməsinə uğur şərait yaratmışdır.

“Azad edilmiş torpaqlarda, eyni zamanda, böyük enerji potensialı var. Bəri başdan demək istəyirəm ki, mən azad edilmiş əraziləri yaşıl enerji zonası kimi görmək istərdim. Kifayət qədər imkanlar var”.  Bunu ölkə başçısı İlham Əliyev 2020-ci ilin yekunlarına həsr edilmiş müşavirədə bildirmişdi.[4]

2021-ci ilin may ayında ölkə başçısı azad edilmiş ərazilərdə “yaşıl enerji” zonasının yaradılması ilə bağlı Sərəncam imzaladı. Dövlət başçısı bu ərazilərdə “yaşıl enerji” zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Energetika Nazirliyinə 1 milyon 391 min 40 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmasını qərara almışdır. Bundan əlavə işğaldan azad edilmiş ərazilərdə enerji məsələlərinin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin “Enerji təminatı məsələləri” İşçi Qrupu yaradılıb.

Böyük Qayıdış proqramının mühüm tərkib hissəsindən biri də işğaldan azad olunmuş ərazilərdə enerji infrastrukturunun qurulmasıdır ki, bu məqsədlə Laçında, Kəlbəcərdə və Suqovuşanda bərpa edilən 20.2 MVt gücündə 4 su elektrik stansiyası artıq istismara verilib.

Azərbaycanın Vətən Müharibəsində böyük zəfərindən və torpaqlarımızın işğaldan azad edilməsindən sonra ölkəmiz üçün yeni bir dövr başlayıb. Postkonflikt dövrünün ən başlıca vəzifələrindən biri də işğaldan azad

edilmiş ərazilərin ekoloji fəlakətin qarşısını almaq və ətraf mühitə dəyən ziyanı bərpa etməkdir.

Eyni zamanda azad edilmiş ərazilərdə kənd təsərrüfatına yararlı torpaqların münbitliyinin mühafizəsi, səmərəli istifadəsi dövlətin ekoloji siyasətinin əsas prioritetlərindəndir.

**Ədəbiyyat:**


1. https://president.az/az/articles/view/62737
2. İşğaldan Azad Olunmuş Ərazilərdə Fövqəladə Hal Riskləri Elmi – TexnikiKonfrans 21-22 May 2021-ci il Məruzə Tezisləri.
3. Abbasov Q.Minalanmiş Ərazilərdə Mühəndisigeoloji Tədqiqatlar Üçün Yaranmiş Risklər və onlarin idarə olunmasi.Azərbaycan Memarlıq və İnşaat Universiteti.
4. Prezident İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə https://azertag.az/xeber/ Prezident_Ilham_Aliyevin_sedrliyi_ile_ 2020_ci_ilin_yekunlarina_hesr_ olunmus_ videoformatda_musavire_kechirilib_ YENILANIB_VIDEO -1682565
5. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı.

# ŞEYX CƏMALƏDDİN ƏFQANİNİN SOSİAL – SİYASİ DÜŞÜNCƏLƏRİ

**Rafail Əhmədli**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
ehmedli.rafail@mail.ru

***Açar sölər:*** *İslam aləmi, millət, elm, dil, milli vəhdət, İslamçılıq, islahat.*

*Məqalədə Ş. C. Əfqaninin Azərbaycan türkü olduğu və Azərbaycanda doğulduğu aydınlaşdırılaraq, onun islam olkələrində bir sıra yeniliklərin əsasını qoyması, ana dilinin millətin həyatındakı roluna verdiyi qiymətə nəzər yetirilərək, Onun dil birliyi ilə din birliyi anlayışlarına baxışı və onların milli birlik məsələsinə təsiri haqqında düşüncələri araşdırılır.*

*Eyni zamanda təkamülün əsasını elmdə, millətin inkişafını onun fəlsəfi ruha malik olmasında görən Şeyxin dini xurafatı, mövhumatı rədd etməsi, tərəqqinin ən böyük düşməninin mütləqiyyət olduğu fikrini qorxmadan bəyan etməsi, xalqı mübarizəyə səsləməsi, liberal islahat tələb etməsi, müsəlman aləmində azadlıq üçün öncə milli şüurun oyanmasının zəruriliyini ilk dəfə göstərməsi təhlil olunur.*

## СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ МЫСЛИ ШЕЙХА ДЖАМАЛАДДИНА АФГАНИ

***Рафаил Ахмедли***

***Ключевые слова:*** *исламский мир, нация, наука, язык, национальное единство, исламизм, реформа.*

***Резюме.*** *В статье Уточняя, что Ш. Дж. Афгани является азербайджанским тюрком и родился в Азербайджане, его взгляды на концепции языкового единства и религиозного единства и их влияние на проблему национального единства исследуются на основе его обоснования ряда новаций в исламском мире. стран, то значение, которое он придает роли своего родного языка в жизни нации.*

*В то же время шейх, который видит основу эволюции в науке и развития нации в ее философском духе, отвергает религиозные предрассудки и суеверия, бесстрашно заявляет о том, что самым большим врагом прогресса является абсолютизм, призывает народ к борьбе. , требует либеральных реформ и впервые пробуждает национальное сознание свободы в мусульманском мире, впервые анализируется ее необходимость.*

# SOCIAL - POLITICAL THOUGHTS OF SHEIKH JAMALADDIN AFGHANI

**Rafail Ahmadlı**

***Key words:*** *Islamic world, nation, science, language, national unity, Islamism, reform.*

***Summary.*** *In the article By clarifying that Sh. J. Afghani is an Azerbaijani Turk and was born in Azerbaijan, his views on the concepts of language unity and religious unity and their influence on the issue of national unity are examined by looking at his foundation of a number of innovations in Islamic countries, the value he gives to the role of his mother tongue in the life of the nation.*

*At the same time, Sheikh, who sees the basis of evolution in science and the development of the nation in its philosophical spirit, rejects religious superstitions and superstitions, fearlessly declares the idea that the biggest enemy of progress is absolutism, calls the people to struggle, demands liberal reform, and first awakens national consciousness for freedom in the Muslim world. showing its necessity for the first time is analyzed.*

Azərbaycan xalqının tarix boyu eləcədə müasir dövrümüzdə yetrdiyi böyük şəxsiyyətlər zaman – zaman öz ideya düşüncə və əməlləri ilə nəinki xalqımızın, hətta dünya xalqlarının inkişafına, mənəvi dəyərlərinin zənginləşməsinə əlsəfə və ictimai töhfələrini vermişdir. Belə mütəfəkkirlərimizdən biridə nisbətən az öyrənilmiş, əslində daha çox öyrənilməyə ehtiyac duyulan Şeyx Cəmaləddin Əfqanidir

Bütün İslam aləminin birliyi inkişafı və yaşaya bilməsi üçün müsəlmanların birliyi ideyasını irəli sürən, İslam ölkələrində söz, düşüncə və əməlləri ilə çox bərəkətli toxumlar səpən, dünya müsəlmanlarının milliyyət fikirlərinin formalaşmasında əvəzsiz xidmətlər göstərən Şeyx Cəmaləddin Əfqaninin (1838-1897) milliyyəti və doğulduğu yer haqqında bir-birinə zidd müxtəlif fikirlər vardır. Tarixi qaynaqlara dayanaraq biz onun Azərbaycan türkü olduğunu və Azərbaycanın Həmədan yaxınlığındakı Əsədabad qəsəbəsində anadan olduğu fikrini qəbul edirik. M.T.Zöhtabi yazır: «Cəmaləddin Əfqani Həmədan yaxınlığında yerləşən və əhalisi Azərbaycan türklərindən ibarət olan Əsədabad qəsəbəsində ziyalı ailəsində doğulmuşdur. Səkkiz yaşında olarkən atası ilə birlikdə Kabilə köçmüşdür» [10, s. 19]. Şeyx Cəmaləddin Əfqaninin Azərbaycan türkü olduğunu bir çox tədqiqatçı, alim və siyasi xadimlər də təsdiq edirlər. Belə ki, hələ Parisdə olarkən 1888-ci ildən Şeyxlə yaxından tanış olan, daha sonra 1894-cü ildə təhsilini başa vuraraq Parisdən vətənə dönərkən yolüstü

İstanbulda Şeyxi ziyarət edən Əhməd bəy Ağaoğlu 1911-ci ildə İstanbulda «Türk yurdu» jurnalında dərc etdirdiyi «Türk aləmi» məqaləsində göstərir ki, Şeyxlə olan söhbətləri zamanı o özünün əslən Azərbaycan türkü olduğunu söyləmişdir» [7, s. 7-8]. Daha sonra Şeyxin Azərbaycan türkü olduğunu və Azərbaycanda dünyaya gəldiyini Yusuf Akçura [1, s. 60], Məmməd Əmin Rəsulzadə [8], Məhəmməd Tağı Zöhtabi [10], Amerika alimi professor Nikki Keddi [10, 8] və xüsusilə Şeyx Cəmaləddin Əfqaninin həyat və fəaliyyətinə dair xüsusi monoqrafiya həsr etmiş Şamil Qurbanov [6, s. 3-4] elmi dəlillərlə sübut etmişlər. Məmməd Əmin Rəsulzadə Şeyx Cəmaləddin Əfqaninin bir çox məqalələrini Türk dilinə tərcümə edərək, «Türk yurdu» jurnalında çap etdirmiş, «İran Türkləri» adlı silsilə yazılarında bir çox məsələlərlə yanaşı türk əsilli İran mütəfəkkirləri, o cümlədən də Şeyx Cəmaləddin haqqında müfəssəl məlumatlar vermişdir. M.Ə.Rəsulzadə və digər müəlliflərin yazılarında «Şeyxin milliyyətinin türk olduğu, Həmədan yaxınlığındakı türk kəndi Əsədabadda doğulduğu, hazırda (1911-12-ci illərdə - R.Ə) onun qohum-əqrəbasının o kənddə yaşadığı, Əfqaninin ömrünü əsasən səyahətlərdə keçirdiyi, Hindistanda, Misirdə, Parisdə, Londonda, Tehranda, Amerikada, Bakıda, İstanbulda və başqa şəhər və ölkələrdə olduğu, ərəbcə, farsca, türkcə danışdığı və əsərlər yazdığı, İslam aləminin hər tərəfində dərs, öyüd və risalələrlə fikirlərini yaydığı və təlqin etdiyi, Şərqlə bağlı fikirlərini Avropanın böyük dövlətlərində qəbul etdirməyə çalışdığı, bütün Şərq intibahına təsir dairəsinin misilsiz olduğu, Misir Universitetində professor işlədiyi, məşhur Ərabi paşa üsyanlarının qəhrəmanlarından biri olduğu, publisistika və qəzetçiliklə məşğul olduğu, nüfuzu və tərəfdarları artdıqca düşmənlərinin çoxaldığı, bu düşmənlər içərisində Nəsrəddin Şah, bir müddət hətta Sultan Əbdülhəmid və İngiltərə hökumətinin olduğu göstərilmişdir»[6].

İslam ölkələrində faydalı işlər görməyə çalışan böyük mütəfəkkir «Əfqanıstanda mətbuatın, Misirdə satirik mətbuatın banisi, İranda milli azadlıq hərəkatının ideya rəhbəri, zülmün və istibdadın, Şərqi soyub talayan Avropa müstəmləkəçiliyinin düşməni» [4, s. 4-5] olmuşdur. Qərbdə «Panislamizm» adlandırılan demokratik ideoloji cərəyan olan «islamçılığın» banisi Ş. C. Əfqani bəşəriyyətin tarixən qazanmış olduğu mütərəqqi fikirləri, elmi-texniki tərəqqini və böyük kəşfləri bəşəriyyətin təkamül prosesində ən vacib amil hesab etmiş, Şərqi uğradığı böyük fəlakətlərdən qurtarmağın yollarını göstərmiş və sonda belə bir qənaətə gəlmişdir ki: «Dünyanın sultanı elmdir… Millətdən kənarda səadət yoxdur. Dilsiz millət ola bilməz. Dil birliyi olmasa, milli vəhdətin həqiqi mahiyyəti və həyat gücü ola bilməz. Dil insanlar arasında əsas əlaqə vasitəsidir.

O (Dil - R.Ə) müxtəlif məzhəbə qulluq edən tayfaları, müxtəlif arzularla yaşayan qəbilələri vahid bir millət bayrağı altına səsləyən, onların gücünü-qüvvəsini birləşdirib, bir məqsədə doğru yönəldən, ictimai qüsurları birlikdə dəf etməyə, milli çətinlikləri birlikdə aradan qaldırmağa çağıran, ümumxalq

səadətinə nail olmaq, müsibət və bədbəxtliklərdən nicat yolları arayıb tapmaq üçün hamını yekdil, həmrəy olmağa dəvət edən, gözəl yaşayışdan ibarət təzə həyata qovuşduran, vətəndaşlarının əyinlərinə istiqlal paltarı geydirən əsas vasitədir… Dil birliyi bütün bu məziyyətlərə ancaq o zaman sahib ola bilər ki, ayrı-ayrı fərdlərin dilindən təşəkkül tapmış milli dilin qorunması və zənginləşməsi üçün lazım olan hər şey edilsin… Milləti yaşatmaq istəyən alimlərin birinci vəzifəsi budur ki, onlar (alimlər - R.Ə) öz ana dilinin inkişafına laqeyd olmasınlar, həmin təbəqələrin sənət və peşə tələbinə uyğun olaraq sözləri müxtəlif mənalarda - onun həqiqi mənasına uyğun bir tərzdə - bəzən iki sözü, ya üç sözü birləşdirərək zərurət məqamında işlətsinlər.

Öz dilləri ilə münasibətdə olan xarici dillərdən də lazım olduğu qədər sözlər ala bilərlər. Bir şərtlə ki, alınmış sözlər öz dillərinin libasına geydirilsin və onların xarici söz olduğu bilinməsin…aralarında möhkəm müamilə və mübadilə əlaqələri olan bir millət insan cəmiyyətinin möhkəm əsaslarını təşkil edən bütün təbəqələrə malik olmadıqca heç vaxt öz milliliyini, məziyyət və hüquqlarını qoruyub saxlaya bilməz. Hər bir millətin içərisində aşağıdakı təbəqələr olmalıdır: faydalı elmləri yayan ziyalılar, cəmiyyət üçün xeyirli fənləri təsis edən yaradıcı fazil və alimlər, insan hüququnu mühafizə edən siyasi xadimlər, fəzilət və ədalətin keşikçiləri olan qanunşünaslar, xalqın əxlaqını saflaşdırmağa çalışan nəsihətçilər, lətif və şairanə kəlamlarla yatmış insanları oyadan və xalqın xarakterini qüvvətləndirən ədiblər və şairlər, öz sənətlərini elmi əsaslar üzrə inkişaf etdirən sənayeçilər, iqtisadiyyat qanunları əsasında millətin ticarət yollarını arayıb tapan tacirlər. Əgər bu təbəqələr hər hansı bir millətdə mövcud olmasa, əlbəttə o millətin fərdləri arasında məişət və həyatı əhəmiyyətli əlaqələr get-gedə qırılar və millət məhv olar.

Nəticədə, o millətin üzvləri digər millətlə birləşər və yeni milli libasda həyat səhnəsinə qədəm qoyar, buna görə də alimlər millətin mahiyyətini, ariflər onun məziyyətlərini o zaman yaxşı aşkar və zahir edərlər ki, təhsil, təlim, tədris, milli təbəqələrin fənlərdən və sənətlərdən istifadəsi o millətin öz dilində olsun. Onda millət möhkəm, sabit və əbədi ömür sürə bilər, millətin əsas gözə görünən səadət və xoşbəxtlik kimi əlamətləri isə onun bütün üzvlərinin nəsibi olar… elm, maarif, bütün sənət növləri hər millətin öz ana dilində tədris olunarsa və bu şərt həyata keçirilərsə, həmin millətin əsasları daha möhkəm, daha sabit olar, beyinlərə daha tez həkk olunar, daha gec unudular, elmlərin dəqiqliyinə daha artıq vaqif olunar, elmin mahiyyəti və mənfəəti daha yaxşı aydınlaşar. Bununla da sənaye sahəsində fəzilətli adamların, alimlərin, fənn sahiblərinin sayı çoxalar, millətin üzünə səadət qapıları açılar… insanları bir-birinə bağlayan qüvvə iki vacib şeyi tələb edir: bunlar olmasa birlik də ola bilməz. Bunlardan biri məhz həmin dil birliyidir ki, buna milli vəhdət də deyirlər. Digəri din birliyidir.

Heç şübhə yoxdur ki, dil birliyi, yəni milli birlik dini birlikdən daha

möhkəm və sabitdir. Çünki dil az müddət ərzində dəyişməyi və ya başqası ilə əvəz olunmağı qəbul etmir. Din isə belə deyil. Tarix göstərir ki, eyni bir dildə danışan bir millət min il ərzində öz dilinə ciddi xələl gətirmədən dinini dəyişir, başqası ilə əvəz edir. Buna görə də dil birliyindən yaranan əlaqə və ittifaqın təsiri dini əlaqələrin təsirindən daha güclüdür» [4, s. 8-14].

Azərbaycan Respublikasında KİV üzərində senzura götürüldükdən sonra bazar iqtisadiyyatının tələbləri ilə bir sıra qəzet və jurnallarında, televiziya-radio kanallarında yeni müsbət yanaşmalarla yanaşı olaraq qadınlarla bağlı bir çox mənfi tendensiyalar meydana çıxmışdır. Ailə dəyərlərimizin təbliğində KİV-in, xüsusilə televiziyanın üzərinə böyük iş düşür. Əfsuslar olsun ki, bir çox hallarda sosial-məişət mövzulu proqramlarda yalnız cəmiyyətin neqativ hissəsi nümayiş olunur. Halbuki bizim çox sayda nümunəvi ailələrimiz var. Ailələrin problemlərini işıqlandırmasında gender balansı pozulmamalıdır. Ən təhlükəli məsələlərdən biri də internetin, sosial şəbəkələrin görünmədən, lakin çox sürətlə ailələrə daxil olmasıdır. Biz görürük ki, insanlar öz ailə üzvləri ilə müqayisədə virtual məkanda daha çox vaxt keçirirlər. Bu isə insanları bir-birindən uzaqlaşdırır, övlad-valideyn ünsiyyətində soyuqluq yaradır. Xüsusən də bu böyüməkdə olan gənclərimizə, onların psixikasına mənfi təsir göstərir, asılılıq yaradır. Ona görə də biz uşaqları onların sağlamlığına və inkişafına ziyan vuran informasiyadan qorumalıyıq. Bu sahədə qloballaşmaya xidmət edən internet KİV aparıcı rol oynayır. Yəni son dövrdə televiziya verilişlərində ortaya çıxan qadın və kişilərin görkəmi, davranışlarında ənənələrə zidd olan məqamlar çoxdur. Lakin bütün ənənələrin inkar olunması və eyni zamanda

yeniliyin nə olduğunu bilməmək nəticəsində KİV öz tərbiyəvi funksiyasını qismən və bəzi hallarda tamamilə itirmiş olur. Bu baxımdan yeni gender sosiallaşması ilə bağlı KİV-in rolu ancaq mənfi istiqamətdə inkişaf edə bilər. Azərbaycan Respublikasında qadınlar üçün jurnallar nəşr olunur. Onlardan ən populyarı "Azərbaycan qadını" jurnalıdır. Bundan əlavə, "Lider Qadınlar" İctimai Birliyinin təsisçisi olduğu "Qadın və Sağlamlıq" jurnalı nəşr olunur. Milli İrsi Mədəni Tarixi Araşdırmalar Fondunun təsisçiliyi ilə 2012-ci ilin yanvar ayından çap edilən "İşıq-qadın" jurnalı ailə dəyərləri, uşaq tərbiyəsi, qadın problemləri və bir sıra tarixi, mədəni-əxlaqi mövzulardan bəhs edir. Jurnal qadınların ictimaiyyətdə rolunu, maarifçilik ənənələrini, ailə-övlad münasibətlərini, milli-mənəvi dəyərlərimizin qorunmasını xüsusi qeyd edir. 2009-cu ildən nəşr olunan "İffət" jurnalı əsasən qadınlar üçün nəzərdə tutulmuşdur. Bundan əlavə, ölkəmizdə "Xanım.Net", "Zuleykha", "Qadınla. com" kimi on-line jurnallar da istifadəyə verilmişdir. Bu dövri nəşrlər vətəndaşların dövlət qadın siyasəti ilə bağlı məlumatlılığının artırılmasında, cəmiyyətdə qadınların rolu, gender problemləri, qadın və kişinin de-fakto bərabərliyi və digər problemləri əhatə etməklə informasiya məkanına əhəmiyyətli bir töhfə verirlər. Qadın ictimai birlikləri dövlətin dəstəyi ilə gender bərabərliyi məsələləri, qarşısı alına biləcək maneələrin həlli yolları müzakirə edilən mətbuat klubları və konfransları həyata keçirir. Respublika və yerli qəzetlər, televiziya və radio verilişlərində gender potensiallı materialların həcmi və əhatə dairəsi artmaqdadır. Dövlət televiziya kanalları vasitəsilə qadınların hüquq və azadlıqları, cəmiyyətdə, rəhbər vəzifələrdə qadınların fəaliyyəti, evlilik və ailə, qadınların sosial-iqtisadi vəziyyətinin yüksəldilməsi haqqında məlumatlar yayılır.

Mətbuat qadınların sosial həyatının ən mühüm istiqamətlərini təhlil etməyə, o cümlədən insan qruplarının davranışında cinsi mənsubiyyət, yaş, yaşadığı yer və digər əlamətlər baxımından yanaşmağa, bütün insanların malik olduğu iqtisadi, sosial-siyasi hüquqların, ayrı-seçkiliyin yolverilməz olması məsələlərinin və qadınlara qarşı zorakılıq hallarının bütün formalarının araşdırılmasına, reproduktiv sağlamlıq məsələlərin nəzərdən keçirililməsinə; əhalinin cinslər üzrə təhsil səviyyəsinin səbəbləri və nəticələrinin araşdırılmasına məsuliyyətlə yanaşmalıdır [9, s.49].

Lakin bəzi KİV materialları qadınların gender bərabərsizliyi problemini həll etmir, əksinə, qadınları kişilərin xoşuna gəlmək yollarını təbliğ edir. Təbii ki, bu informasiyaları yayan proqramlar kommersiya məqsədləri güdürlər. Televiziya kanallarında qadın məsələsi və genderlə bağlı bir çox silsilə verilişlər hazırlanmış və efirdə səsləndirilmişdir. Qadınlar televiziyada, xüsusilə reklamlarda kütləni cəlb edən və ona təsir etmək gücünə malik olan kommersiya və ideoloji təbliğat obyekti kimi istifadə olunurlar:

- qadınlar daha çox reklam məhsulu ilə aidiyyəti olmayan intim obyekt kimi təqdim olunurlar;
- KİV-də gedən reklamlarda qadın şəxsiyyəti alçaldılaraq seksual obyekt və ya bir əşya kimi təqdim olunur. Yaxud qadınlar yanlız mətbəxdə, gözəllik verilişlərində, ev işlərində, uşaq tərbiyəsi məsələlərində, ailə verilişlərində işıqlandırılır;
- KİV-də qadınlarla və genderlə bağlı informasiyaların araşdırılması göstərir ki, bu sahədə jurnalist mütəxəssislərin sayı yox dərəcəsindədir.

Bu cür kütləvi verilişlərin aparıcıları və iştirakçıları arasında qurulan əlaqələr və aparılan müzakirələr cəmiyyətin gender sahəsində maariflənməsinə xidmət edir. Lakin əksər hallarda məlum olur ki, mövzunu təqdimatçıları belə, problemin mahiyyətini dərindən bilmirlər. Buna görə də yaranan fərqli baxışlar tamaşaçılar arasında çaşqınlığa və yanlış təsəvvürlərin formalaşmasına səbəb olur. Məhz buna görə televiziya jurnalistikası sahəsində gender mütəxəssislərinin ixtisaslaşması da vacib problemlərən biridir.

Qadın jurnalistlərin KİV-də təmsil olunmasının və fəaliyyətinin sosial-psixoloji çətinliklərini aşağıdakı şəkildə səciyyələndirmək olar: qadın jurnalistlər cəmiyyətdə adlarının qalmaqallı məlumatlarda çəkilməsindən, mübahisəli məlumatların yayılması ilə əlaqədar məhkəmələrə düşməkdən, əxlaqsızlıqda ittiham olunmaqdan, böhtandan və hədələrdən çəkinirdilər. Həmçinin cəmiyyətdə formalaşan stereotiplər, xüsusilə, efir jurnalistləri barədə əsası olmayan söz-söhbətlərin yer alması onların ailə həyatı qurmasına maneçilik törədirdi və s. [10, s.41].

Azərbaycan jurnalistikasında qadın jurnalistlərin rolu böyükdür və onların mətbuatda rolu getdikcə artır. Bu gün artıq istər televiziyada, istərsə də qəzet redaksiyalarında qadınların sayı çoxalmaqdadır. 2010-2011-ci illərdə Jurnalistlərin Həmkarlar Təşkilatının təşəbbüsü ilə keçirilən sorğunun nəticələrindən məlum olmuşdu ki, ümumrespublika yayımlı telekanalların əməkdaşlarının 25-30 faizi, qəzetlərin əməkdaşlarının 30-35 faizi, rayon qəzetlərinin əməkdaşlarının 20-25 faizini qadınlar təşkil edirlər [15, s.11 ].

2012-ci ildə ilk dəfə olaraq Beynəlxalq Jurnalistlər Federasiyası (BJF) və onun Azərbaycanda tərəfdaşı olan Jurnalistlərin Həmkarlar İttifaqı (JuHİ) tərəfindən “Azərbaycan mediasında gender məsələsi” adlı vəsait dərc edilmişdir. Kitabın hazırlanmasında jurnalistlər arasında aparılan gender yönümlü sorğunun materallarından istifadə edilmişdir. Lakin qadınların media qurumlarının qərarverici orqanlarında təmsilçiliyi kifayət qədər aşağı səviyyədə olmuşdur: sorğuya cəlb edilmiş 90 KİV redaksiyasının 10-na, 15 tanınmış jurnalist təşkilatından isə yalnız birinə qadınlar rəhbərlik etdiyi məlum olmuşdu. Mətbuat Şurasının İdarə Heyətinin əsas heyətində bir, əvəzedici heyətində də yalnız bir qadın təmsil olunmuşdu [11, s.3].

2016-cı il iyulun 20-də Beynəlxalq Mətbuat Mərkəzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə dövlət orqanları, mətbuat və ictimaiyyət nümayəndələrinin iştirakı ilə “Mediada ailə, qadın və uşaq məsələlərinin işıqlandırılması: nailiyyətlər və perspektivlər” mövzusunda keçirilən konfrans bu sahədə mühüm addım idi. Konfransda ailə və mill-mənəvi dəyərlərin təbliği, qadınların fəallığının artırılması, uşaq hüquqlarının müdafiəsi istiqamətlərində və məişət zorakılığının, erkən nikahın, uşaq intiharlarının qarşısının alınması, ailədaxili problemlərin, qadın və uşaqlarla əlaqəli məsələlərin mətbuatda işıqlandırılması kimi məsələlərə daha məsuliyyətlə yanaşılmasının mühüm ictimai-siyasi əhəmiyyəti bir daha qadın mövzusuna müraciət edən jurnalistlərin nəzərinə çatdırımışdı [12, s. 54-55].

Azərbaycan Jurnalistlər Birliyinin Katibliyinə daxil olan 6 nəfərdən 1 nəfəri, 27 nəfər Məclis üzvünün 5 nəfəri, Gəncə şəhər təşkilatının 33 üzvündən 15-i, Sumqayıt şəhər təşkilatının 38 üzvündən 7-si, Mingəçevir şəhər təşkilatının 10 üzvündən 1-i, 23 nəfər müstəqil üzvlərin isə 7-si qadın jurnalistlərdir [13, s.21].

Azərbaycan Demokratik Tələbə-Gənclər Təşkilatı Quba və Xaçmaz rayonlarında erkən nikahlara dair real mənzərəni öyrənmək məqsədilə ictimai monitorinqlər aparmış, rəsmi şəxslərin və rayon əhalisinin iştirakı ilə ictimai müzakirələr təşkil etmişdi. Qubanın “Xəyal” TV və Xaçmazın “Region” TV-də ekspertlərin və gənclərin iştirakı ilə teledebatlar yayımlanmış, regionun ziyalı təbəqəsinin bu hallara qarşı mübarizəsinə və ictimai qınaq təşəbbüslərinə dəstək verilmişdi.

Azərbaycan qadınları və onların təşkilatlandığı ictimai birliklər cəmiyyətdə ictimai aktuallıq kəsb edən məsələlərlə bağlı radio və televiziyalarda debat və müzakirələrin təşkili mövzusunda layihələrin həyata keçirilməsində də fəallıq göstərirdilər. 2012-ci ildə Qayğı və Himayə Xeyriyyə Fondu İctimai Birliyi “Ədəbiyyatdan keçən əbədiyyət”: müasir Azərbaycan ədəbiyyatının inkişaf tendensiyaları haqda televiziya verilişlərinin hazırlanması” mövzusunda layihə hazırlamışdı. Azərbaycan Yazıçılar Birliyində və “Məhsəti” jurnalının redaksiyasında Dağlıq Qarabağ həqiqətləri, Azərbaycan xalqının ədalətli mövqeyinə həsr olunmuş ədəbi müzakirələr keçirilmiş, “Dünya” TV-də yayımlanmışdı. Müzakirələrdə Dağlıq Qarabağ müharibəsinin bədii ədəbiyyatda əks olunması, müasir ədəbiyyatda vətən sevgisi və qəhrəmanlıq mövzularına müxtəlif baxışlar ifadə olunmuşdu. Müasir bədii ədəbiyyatda müharibə mövzusunun işlənməsi klassik analoqlarla müqayisəsi, müxtəlif xalqların ədəbiyyatında müharibənin müasir cizgilərinin antiinsani və antibəşəri xarakterinə aid təhlillər, müasir Azərbaycanın yaşadığı problemlərin ədəbiyyatda inikası diskussiyaların aparıcı motivi olmuşdu. Azərbaycanın Milli Qəhrəman Ailələrinin Sosial Müdafiəsi İctimai Birliyi Bakı, Quba və Gəncədə Qarabağ

müharibəsi qəhrəmanlarının həyatı və döyüş yolu, eləcə də qəhrəmanların ailələrinin sosial qayğıları ilə bağlı müzakirələr aparılmış, görüşlərin nəticəsi olaraq İTV-də "Milli qəhrəmanların statusu: beynəl xalq və milli təcrübə" möv zusunda televeriliş hazırlanmışdı.

"Şahdağ" Xeyriyyə İctimai Birliyi dini mərasimlərin sadələşdirilməsi istiqamətində ictimai debatlar təşkili üzrə layihə hazırlayaraq televiziyada yaımlanmasına nail olmuşdu. Layihənin məqsədi dini mərasimlərin ifrat dərəcədə təntənəli keçirilməsinə qarşı ictimaiyyəti teleradio verilişləri vasitəsilə səfərbər edilməsi idi. Televiziya verilişlərində ekspertlər ifrat israfçılığın qarşısının alınması ilə bağlı öz fikirlərini bildirdi, təklif və tövsiyələr irəli sürdülər.

Azərbaycan Dövlət Televiziyasının "Sabaha doğru" proqramında Təhsil Nazirliyinin, ölkənin tanınmış alimlərinin, Bakı şəhərində fəaliyyət göstərən ekoloji təhsil mərkəzlərinin və liseylərin müəllim və tələbələrinin iştirakı ilə ekoloji təhsil və təlim-tərbiyə məsələlərilə bağlı geniş müzakirə aparılmışdı. "Yeni Fikir" Jurnalist Həmrəyliyi İctimai Birliyi "Zaqatala rayonunun Muxax, Aşağı Tala, Zəyəm və Gözbarax kənd məktəblərində seminarlar keçirmiş, məktəblilərə zəlzələ zamanı davranış qaydaları izah olunmuş, praktik məşğələlər təşkil etmişdi. "Təbii fəlakətlər zamanı necə davranmalı?" mövzusunda yerli "Aygün" TV-də də dəyirmi masa formatında müzakirələr aparılmış, əhaliyə məsləhət və tövsiyələr verilmişdir. "Zaqatala" qəzetində layihənin mövzusu ilə əlaqədar maarifləndirici yazı dərc olunmuşdu.

Azərbaycan Qadınları Respublika Cəmiyyətinin hazırladığı layihə əsasında Şəki şəhərindən yayımlanan STV kanalı vasitəsilə ailə məsələlərinə həsr olunmuş verilişdə təşkilatın ekspertləri çıxış edərək mövcud problemlərdən və onların həlli yollarından məlumat vermişdilər. Şəki şəhərində boşanma ərəfəsində olan 3 ailəyə məsləhətlər verilərək onların boşanmadan imtina etmələrinə yardım göstərililmişdi. Hər iki rayonda boşanmalara yol verilməməsi üçün ictimai aktiv qadınlardan ibarət könüllü postları yaradılmışdı [14].

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi KİV-lə əməkdaşlığa mühüm əhəmiyyət verir. Bu məqsədlə hər il 4 dəfə olmaqla monitorinq keçirilir. Qadın hüquqları və gender mövzusunda yazan jurnalistlər üçün yerli ekspertlərin iştirakı ilə 2014-cü ildə "Azərbaycan ailə modelinin KİV-də düzgün tanıdılmasının əhəmiyyəti", 2015- ci ildə "Məişət zorakılığı KİV-də necə işıqlandırılmalıdır" mövzuları ətraafında müzakirələr aparılmışdı. 2015-ci ildə Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən keçirilən "Qadınlar dövlətimizin, dövlətçiliyimizin, müstəqilliyimizi, bu günümüzün, gələcəyimizin dayağıdır" mövzusunda məqalə müsabiqəsində qalib gələn "Aran", "Kaspi","Hacıqabul" qəzetlərinin qadın jurnalistləri təltif olunmuşdular.

2016-cı ildə "Gender məsələləri və selektiv abort problemi KİV-də" yerli əhəmiyyətli, 2017-ci ildə Avropa İttifaqının TAİEX proqramının birgə əməkdaşlığı çərçivəsində "Gender problemləri və media" mövzusunda ikigünlük beynəlxalq seminar keçirilmiş "Avropa İttifaqında gender bərabərliyinin media vasitəsilə təbliği", "Azərbaycan və Avropa İttifaqı ölkələri mediasında qadınların balanslı və stereotiplərdən uzaq təsvirinin ən uğurlu nümunələri", "Məişət və gender əsaslı zorakılıqlar zamanı qadınların kütləvi mətbuatda balanslı və stereotiplərdən uzaq təsvirinin yaradılmasının təbliği", "Azərbaycanda kütləvi mətbuatda və kütləvi mətbuat vasitəsilə gender bərabərliyinin təbliği sahəsində atıla biləcək növbəti addımlar" adlı 4 sessiya təşkil olunmuşdu.

Avropa Şurasının Bakı ofisi "Azərbaycanda gender bərabərliyi və media azadlığı" adlı layihəsi əsasında Azərbaycanda gender bərabərliyinin və medianın vəziyyətinin daha da təkmilləşdirilməsi, mediada və media vasitəsilə gender bərabərliyinin təşviqi, jurnalistlərin peşə davranış qaydalarının gender bərabərliyi kontekstində nəzərdən keçirilməsi və yenilənməsi, gender bərabərliyi və media azadlığına dair Avropa Şurası standartlarının, eləcə də yenilənmiş "Jurnalistlərin peşə davranış qaydaları"nın jurnalist və media professionalları arasında təşviqi, gender bərabərliyi və media azadlığı üzrə yeni tədris kursu proqramı hazırlanması üçün həyata keçirilən tədbirlərin mühüm əhəmiyyəti olmuşdur.

2018-ci il dekabrın 10-da Bakıda Avropa Birliyinin dəstəyi və BMT-nin İnkişaf Proqramının icra etdiyi "Həssas əhalinin sosial-iqtisadi hüquqlarının gücləndirilməsində böyük rol oynaması üçün vətəndaş cəmiyyətinə imkanların yaradılması" proqramı çərçivəsində jurnalistlər üçün "Qadınların İqtisadi Səlahiyyətləndirilməsi və Bərabərlik Hüququnun Təşviq Edilməsində Medianın Rolunun Artırılması" mövzusunda təlim keçirilmişdir.

Avropa Şurası tərəfindən "Azərbaycanda gender bərabərliyi və media azadlığı" layihəsi çərçivəsində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Ombudsman Aparatı və Azərbaycan Mətbuat Şurasının birgə əməkdaşlığı ilə Bakı şəhərində 13 may 2019-cu il tarixində "Gender bərabərliyi və media" mövzusunda konfrans təşkil olunmuşdur. Avropa Şurasının 70 illiyinə və Azərbaycanda qadınlara seçki hüququnun verilməsinin 100 illiyinə həsr edilən konfransın əsas məqsədi gender bərabərliyi və media sahəsində Avropa Şurası standartlarına dair məlumatlılığı artırmaq, Azərbaycan mediasında gender bərabərliyi mövzusuna tarixinə müasir kontekstdə nəzər salmaq və bu mövzuda açıq müzakirələrə şərait yaratmaqdan ibarət idi. Konfransda 80-dən çox dövlət qurumlarının, ali təhsil müəssisələrinin, diplomatik korpusun, media və vətəndaş cəmiyyətinin nümayəndələri, eləcə də xarici və yerli ekspertlər iştirak etdi.Konfransda "Avropa Şurası, gender bərabərliyi və media azadlığı", "Azərbaycan Demokratik Respublikası, qadın

hüquqları və media", "Azərbaycan mediasında gender bərabərliyi: perspektivlər və problemlər" mövzuları üzrə 3 sessiya ətrafında müzakirələr keçirilmiş, gənc jurnalistlərə və jurnalistika fakültəsi tələbələrinə qadın hüquqlarının müdafiəsi, eləcə də təşviq edilməsi istiqamətində ətraflı məlumatlar verilmişdi [15].

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi öz növbəsində KİV-də qadınlara qarşı gender əsaslı zorakılıq hallarının işıqlandırılması ilə bağlı tövsiyyələr hazırlamışdır.**Eyni zamanda, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində aktiv fəaliyyət göstərən jurnalistlərin stimullaşdırılması üçün ildə bir dəfə müsabiqə keçirilir və fərqlənən jurnalistlər mükafatlandırılır.

Azərbaycan Gender İnformasiya Mərkəzinin internet saytında, zəngin materiallar, hüquqi sənədlər, məsləhətlər toplanmışdır. Gender bərabərliyi ilə bağlı internet saytlarında azərbaycan dilində məqalələr yerləşdirilmişdir. İnternet saytlarında kifayət qədər gender bərabərliyi ilə bağlı sənədlərə, çıxışlara, müsahibələrə vardır. Bu yazılar əsasən 2000-ci ildən sonra mətbuata yoı açmışdır "Gender məsələləri" (wwww.mfa.gov.az/connet), "Gender probleminin xüsusiyyətləri və onların həlli yolları" (Qadın.net), Gender və insan hüququ araşdırma mərkəzinin "Genderə giriş" kitabçası pdf (Bakı 2004), "İslama olan münasibət müsbətə doğru dəyişməyə başladı" Şərq qadınının hüquqları haqda. (info.talktime.azgmail.com), " Azərbaycanda gender münasibətləri: tendensiyalar və problemlər" (www.amerikanınsesi.orq), "Azərbaycanda qadın hüquqları normativ hüquqi aktlarda" (www.azhumanrightsşaz), "Gender bərabərliyinin hərtərəfli təmini Azərbaycan dövlətinin başlıca məqsədlərindəndir" (www.anl.az), "Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkədə qadınlarla bağlı vəziyyətin təhlili" cədvəllərlə (sefwca.gov.az), "Azərbaycanın milli-mənəvi dəyərlər sistemində ailə institutu sarsılmaz yer tutur" (timekurk.com), "Gender sirri açılır: Tanrı qadına nə verdi, kişi ondan nə aldı?" (Milli.az), "Qadın hüquqları, müasirlik və Azərbaycan reallığı" (modern.az), "Müstəqil Azərbaycan dövlətinin qadın siyasəti bir sıra dünya ölkələri üçün nümunə ola bilər (www.xalqqazeti.com), "Ailə nədir?" (gəncalim.az/ümumi xəbərlər/50-ailə-planlaşdirilması.htme), "Gender bərabərliyi uğrunda irəli" "Azərbaycanda gender bərabərliyi necə təmin olunur?" (unikal.orq), "Gender bərabərliyi uğrunda irəli" (eunews.az), "Vətəndaş cəmiyyəti və hüquqi dövlətdə gender bərabərliyi problemi" (sia.az), "Qlobal gender bərabərliyi uzun illər sonra mümkün ola bilər" (www.amerikanın sesi.orq), "Gender bərabərliyi-demokratiyanın inkişafı üçün vacib amillərdən biridir" (musavat.com), "Ailə, qadın və uşaq hüquqlarının müdafiəsi sahəsində dövlət siyasətinin uğurları və gələcək perspektivlər" (Respublika qəzeti), "Gender problemi və Azərbaycanda gender siyasəti" "Azərbaycanda gender bərabərliyi sosial-iqtisadi həyatın bütün sahələrində özünü göstərir" (www.azerbaijan-news.az.), "Azərbaycanda gender bərabərliyinin təminatında

və qadınlara iqtisadi səlahiyyətlərin verilməsində BMT-nin Qlobal Saziş təşəbbüsünün rolu” (mövqe.az), “Qlobal gender bərabərliyi üçün hələ 100 ildən çox zaman lazım olacaq” (azertag.az).

2016-cı ildən başlayaraq informasiya məkanında qadınlarla bağlı problemlərinə daha çox diqqət ayrılıb. Məsələn, “Pan Gi Mun: gender bərabərliyinə nail olmağa heç bir maneə yoxdur” (www. Azerbayjan news.az) , “Ailədə gender bərabərliyi” (Hafta.az), “Müasir anlamda qadın və gender bərabərliyi problemi” (525.az), “Vətəndaş cəmiyyəti və gender problemi” (Ekspress qəzeti), “Azərbaycanda gender problemi. Qadınlar nə istəyir?” (Bastainfo.com), “Gender bərabərliyi reytinqi açıqlanıb” (musavat.com), “Gender hüququ: Qanunvericilik və təcrübə” ( İnter.az), “Gender bərabərliyi” (Manera.az), “Azərbaycanın qadın polis müşkülü: Zorakı kişinin qənimi” (qafqazinfo.az), “Azərbaycanda gender bərabərliyi, problemlər və həlli yolları” (shefeq.az).“Ailənin möhkəmləndirilməsi, qadın və uşaq problemlərinin həlli dövlət siyasətinin mühüm tərkib hissələrindən biridir” (www.yap.org.az), “İFC-nin dəstəyi və Bakı Fond Birjası təşkilatçılığı ilə növbəti birja açılış zəngi Gender bərabərliyi barədə məlumatlılığın artırılmasına həsr edilmişdir” (bfb.az), “Müasir anlamda qadın və gender bərabərliyi problemi” (525.az), “Dünyada gender problemlərinin aradan qaldırılmasında milli hökümətlərin üzərinə böyük vəzifələr düşür” (www.yap.orq.az), “Nazir müavini:məşğulluq sahəsində gender bərabərliyi təmin olunur” (apa.az).

2016-2017-cı illərdə qadınların peşəkar və şəxsi inkişafına dəstək üçün yaradılan “WoWoman” platformasının “Tech-Tech Xanim” və “Femmes Digitales” layihəsinin ADA, “Azərbaycan”, “Xəzər” və “Odlar Yurdu” universitetlərində təqdimatı keçirimişdi. Layihə çərçivəsində qadınlar İKT sahəsində rolunu artırmağa xidmət edən master-klasslara, qısa və uzun müddətli kurslara, təlimlərə, təcrübə proqramlarına, “workshop” və yay məktəbi proqramlarına cəlb olunmuşdular.

2019-cu il iyunu 18-də Bakıda Avropa Şurasının təşkilatçılığı ilə “Gender bərabərliyi və media” mövzusunda “Azərbaycanda gender bərabərliyi və media azadlığı” layihəsinin nəticələrini milli tərəflərə təqdim etmək üçün yekun konfrans keçirildi. Konfransdakı çıxışlarda layihənin əsas uğurları kimi Azərbaycan jurnalistləri üçüngender bərabərliyi baxımından yenidən işlənmiş “Peşə etikası” məcəlləsi, ali məktəblərin jurnalistika fakültələri üçün “Gender bərabərliyi və media azadlığı” mövzusunda yeni kursun tədris planı və “Gender bərabərliyi və media” üçün təlimat təqdim edildi. Yekun konfransdan sonra keçirilən dəyirmi masada dövlət orqanlarının, ali təhsil müəssisələrinin, diplomatik korpusun, media və vətəndaş cəmiyyətinin 80-dən çox nümayəndəsinin iştirak ilə müzakirələr aparılmışdı [16].

Aydındır ki, media təbliğat vasitəsi kimi ictimai və milli şüurun formalaşmasında mühüm rola və təsirə malikdir. Buna görə də, qadınlar media

idarəçiliyində daha təşəbbüskar olmalıdırlar. Qadınların media idarəçiliyində zəif təmsil olunmasının səbəbləri sırasında isə mental dəyərlər, yəni bu sahədə ailə və cəmiyyətdə baxış və təşəbbüskarlığın yetərli olmamsı neqativ rol oynayır. Məhz bu amili nəzərə alaraq, medianın gender bərabərliyinin stimullaşdırılmasında mühüm və həlledici rolu artırılmalıdır. **Konkret olaraq, KİV qadınların cəmiyyətdə rolunu artırmaqla, onların təhsilə yiyələnməsinin vacibliyini vurğulamaqla, peşə fəaliyyətinə stimullaşdırmaqla məqsədli addım ata bilər. KİV qadın alimləri, qadın vəzifəliləri, eləcə də ictimai xadimləri işıqlandırmaqla köhnəlmiş stereotipləri qırmış olar.**Bəzi məqamlarda medianın yanaşmasında gender balansının pozulması hallarına təsadüf olunur. Bu hallara başıca olaraq ailə-məişət münasibətləri ilə bağlı xəbər və yazılarda, sosial mediada müzakirələrdə qadın obrazına seksual predmet kimi yanaşmada, peşə bölgüsü ilə bağlı cəmiyyətdə formalaşmış stereotiplərin mediaya da nüfuz etməsində, xüsusilə onlayn mediada cinsi ayrı-seçkilik meyllərində rast gəlinir. Qadınlarla bağlı gizlilik, şəxsi həyatın toxunulmazlığı prinsipinin bir çox hallarda pozulmasını hallarını da əlavə etmək lazımdır. Buna görə də, mətbu yazılarda heç bir halda cinsi ayrı-seçkiliklə yanaşmamaq, yalnız hər hansı bir materialın sosial yönünü araşdırılmaq, qadın təşkilatlarının fəaliyyəti haqqında yazıların sayının və keyfiyyətini artırılmaq, gender bərabərliyi istiqamətində mütəmadi olaraq maarifçi materiallarla çıxış etmək və nümunəvi qadın simvollarını cəmiyyətə təqdim etmək mühüm istiqamətlərdən biri olmalıdır. Gender mövzusundan yazan jurnalistlər üçün mütəmadi treninqlər keçirilməli, qadın hərəkatının genişlənməsi ilə bağlı xarici dildə məqalələr dha çox yazılmalıdır. Qadınların kütləvi informasiya vasitələrində təbliğ edilməsi tədqiqatının keçirilməsi üçün təlimat xarakterli vəsaitin tərtib edilməsi və qadınların fəaliyyətinin dəyərli şəkildə təbliğ edilməsi və qadının müsbət obrazının yaradılmasına yardım edən araşdırma və metodlara önəm verilməlidir. Bir sözlə, güclü təbliğat vasitəsi olan KİV-də gender mütəxəssislərinin hazırlanmasına böyük ehtiyac vardır. Bu məqsədlə, ölkənin jurnalist ixtisası üzrə mütəxəssis hazırlayan ali məktəblərində, xüsuilə BDU-da “Gender və ədəbiyyat”, “Medianın Gender Ölçülməsi” kimi xüsusi seçmə kursları tədris olunur.

Gender Bərabərliyi və Qadın Təşəbbüsləri Açıq Cəmiyyət İnstitutu İctimai birliyi və Açıq Cəmiyyət İnstitutu -Yardım Fondu ilə birgə apardığı monitorinqin nəticələrinə əsasən bu qənaətə gəlmişdir ki, birincisi, qadın QHT-ləri ilə birgə “kommunikasiya sahəsində qadının rolu” adlı tədqiqat qrupu yaradılmalı və həmin qrup kommunikasiya, mətbuat, televiziya və radio sahələrində qadınların təmsilolunma səviyyələrinin təhlilinin aparılmasını təmin etməlidir. Burada əsas diqqət reklam, institusional, siyasi və biznes sahələrindəki kommunikasiyalara, funksiya və vəzifələrin müəyyən olunmasına yönəlməlidir. İkincisi, qadınların kütləvi informasiya vasitələrində təbliğ

olunması gücləndirilməlidir. Bu məqsədlə, qadınların kütləvi informasiya vasitələrində təbliğ edilməsi tədqiqatının keçirilməsi üçün vəsait tərtib etmək lazımdır. Bu dərslikdə qadınların fəaliyyətinin dəyərli şəkildə təbliğ edilməsi və qadının müsbət obrazının yaradılmasına yardım edən əsas prinsiplər və metodlar şərh olunmalıdır [17].

Bununla bərabər, KİV-də biznes, idarəetmə, siyasət sahəsində fəal və ləyaqətli qadınları təbliğ edən materiallar geniş xarakter almalıdır. Halbuki, bu kimi qadınların geniş təbliği cəmiyyətdə gender sosiallaşmasına müsbət təsir göstərə bilər. Yəni KİV-də qadın ənənəvi olaraq yalnız ana, gözəl qadın olmaqla yanaşı, həm də cəmiyyətin inkişafında mühüm rol oynayan fəal bir insan kimi təqdim olunmalıdır. Fikrimizcə, mətbuatda gender ləyaqətliliyi metodlarını təsbit etmək üçün milli ideoloji-strategiyanın aşağıdakı nəzəri konseptual formulları tətbiq olunmalıdır: informasiya obyektiv-elmi müstəvidə dəyərləndirməlidir; milli təəssübkeşlik geniş surətdə təbliğ edilməlidir; nifrəti zehinlərdən silib atılmalı, müsbət əlaqələrin qurulmasına yönəldiən tövsiyyələr verilməli və qərəzli böhtanlardan qaçılmalıdır. Beləliklə, kütləvi informasiya vasitələrində aparılan gender araşdırmaları cins əlamətinə görə ayrı seçkilik edilmədən qadın və kişi obrazlarının təsəvvür edilməsinin etik normalarının yaradılması üçün son dərəcə zəruridir.

Ailə və milli mənəvi dəyərlərin təbliği, qadınların fəallığının artırılması, uşaq hüquqlarının müdafiəsi istiqamətlərində və eyni zamanda məişət zorakılığının, erkən nikahların və uşaq hüquqlarının müdafiəsi istiqamətlərində görülən işlər mətbuatda geniş işıqlandırılmalıdır. Vacib amillərdən biri də budur ki, jurnalistlər öz işlərinə peşəkar və məsuliyyətlə yanaşaraq gender bərabərliyi və media azadlığı sahəsində xarici ölkələrin müsbət təcrübələri öyrənməlidir. Beynəlxalq təcrübənin Azərbaycan jurnalistləri arasında təbliğ olunması jurnalistlərin öz fəaliyyətlərində beynəlxalq standartların tətbiq etməsinə imkan yaradır. Fikrimizcə, Azərbaycanda Media Akademiyasının yaradılması, bu istiqamətdə görülən işlərin sistemli şəkildə həll edilməsinə, jurnalistlər arasında ixtisaslaşmanın aparılmasına, gender problemlərinə müraciət edən jurnalistlərin peşəkarlığının daha da artırılmasına xidmət edər.

## Ədəbiyyat:

1.İskəndərova S, Qasımova Y, Kondratyev S. Kiberfeminizm: İnternet şəbəkələrində gender problemlərinin aktual informasiya resursları. Bakı,2002,83 s.].

2.Pekin deklarasiyası və fəaliyyət platforması: Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının həyata keçirilməsi üzrə Gələcək Tədbir və Təşəbbüslər: Baş məclisin iyirmi üçüncü xüsusi sessiyasının tam tərkibli Xüsusi Komissiyasının məruzəsinə dair qəbul etdiyi qətnamə. Red. və ön söz. E. Süleymanova ; tərc. və tərt. ed. S. M. Qəhrəmanova.BMT. Bakı, 2014, 251 s.].

3.“Məlumat Azadlığı haqqında” Azərbaycan Respublikasının Qanunu /Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, №6, maddə 1002]
4.“Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikasının Qanunu /Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 3, maddə 376;
5. İnformasiyanın əldə edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu //“Azərbaycan” qəz., 2019, 14 iyun, № 128].
6. Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli FəaliyyətPlanı (2000-2005)].
7. Azərbaycan qadını naminə. Heydər Əliyev İrsini Araşdırma Mərkəzi. Bakı, 2010, 272 s. S.97].
8. Jurnalist qadınların birinci respublika forumu kezirilmi□dir// Azərbaycan qəz., 2009, 16 iyul, s. 2].
9. Səlimova Ü.T. Gender” bərabərsizliyinin aradan qaldirılmasında İKT-nin rolu // Qərb Universitetinin Elmi xəbərləri № 1, 2016, s.49.].
10. Məmmədova X.A. Gender bərabərliyinin təminatinda kütləvi informasiya vasitələrinin rolunun artirilması //Qərb Universitetinin Elmi xəbərləri № 1, 2016, S.41].15. Mediada gender bərabərliyi // Şərq, 2019. – 29 yanvar. - s.11 ].
11. Lətifov A. “Azərbaycan mediasında gender məsələsi” adlı vəsait hazırlanıb // 525-ci qəzet, 2012, 20 yanvar].
12. “Mediada ailə, qadın və uşaq məsələlərinin işıqlandırılması: nailiyyətlər və perspektivlər” mövzusunda konfrans keçirildi // Ailə, qadın, uşaq. Azərbaycan Respublikasının Ailə,Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi. Bakı: Günəş-B nəşriyyatı. 2016, №18, s. 54-55].
13. BMT-nin Qadınlara qarşı ayri-seçkiliyin bütün növ formalarının ləğv edilməsi haqqında Konvensiyanın tələblərinin Azərbaycanda icra vəziyyəti ilə bağlı alternativ monitorinq hesabati (ilkin variant). Bakı, 2013, 57 s., s.21].
14. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hokumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası. 2012-ci ildə maliyyəşən layihələr. “QHT nəşriyyatı”, Bakı, 2012, 344 s.].
15. “Gender bərabərliyi və media” mövzusunda konfrans keçirildi, https: // www.coe.int/az/web/baku/-/conference-on-gender-equality-and-media-].
16. Closing conference to present the results of the Council of Europe Project “Gender equality and media freedom in Azerbaijan”? https://www.coe.int/en/web/human-rights-rule-of-law/events/asset_publisher / E5 WWthsy4Jfg/content/closing-conference-to present-the-results-of-the-council-of-europe-project-gender-equality-and-media-freedom-in-azerbaijan-].
17. Qasımova Y. Gender meynstriminqi: vətəndaş cəmiyyətinin rolu/ Milli Gender mexanizminin monitorinqinin nəticələri. Gender Bərabərliyi və Qadın Təşəbbüsləri İctimai BirliyiBakı, 2010, 48 s.].

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2024, 1 (42), s.102-109

# İ.QASPİRALI VƏ AZƏRBAYCAN MİLLİ AZADLIQ HƏRƏKATI

**Xəqani Məmmədov**
Azərbaycan Dövlət Pedaqoji
Universiteti
prof.khaqani.mammadov@gmail.com

***Açar sözlər:*** *türkçülük, milli azadlıq hərəkatı, İ.Qaspiralı, Rusiya müsəlmanları İttifaqı.*

*XIX əsrin ikinci yarısında şimali Azərbaycanda kapitalizmin inkişafı maarifçilik və milli hərəkatın inkişafında mühüm rol oynamış ictimai-siyasi cərəyanların meydana gəlməsi və yayılmasına səbəb oldu. Türkçülük hərəkatının yaradıcısı və ideya rəhbəri olan İ.Qaspiralı türk dünyasının birliyi ideyasını irəli sürüb, "Dildə, fikirdə, əməldə birlik" şüarı ətrafında türk xalqlarını birləşməyə çağırırdı.*

*İ.Qaspıralı 1883-cü il aprel ayının 10-da çox böyük çətinliklə "Tərcüman" qəzetinin nəşrinə nail oldu. O, həmin qəzetdə dərc etdirdiyi əsərlərində bütün türk xalqlarını ortaq və təmiz bir dil ətrafında birləşdirməyə çalışırdı. O, təhsildə "Üsuli-cədid", yəni "Yeni üsul" adlanan islahat hərəkatının genişlənməsində fəal iştirak etmiş, bu hərəkatın Türküstana, Şimali Qafqaza, Azərbaycana, Çinə və Hindistana yayilmasında, Krımda "Gənc Tatarlar" təşkilatının yaranmasında mühüm rol oynamışdır.*

*Türkçülük cərəyanı Azırbaycan milli azadlıq hərəkatının yüksəlişinə müsbət təsir göstərdi. Onun təsiri ilə Azərbaycan milli azadlıq hərəkatının liderləri xalqımızın milli şüurunun və milli özünüdərkinin formalaşmasında, milli hərəkatın düzgün istiqamətə yönəldilməsində türkçülük cərəyanının ideyalarından bəhrələnmişlər.*

## ИСМАИЛ БЕК ГАСПИРАЛИ И НАЦИОНАЛЬНО-ОСВОБОДИТЕЛЬНОЕ ДВИЖЕНИЕ АЗЕРБАЙДЖАНА

**Хагани Мамедов**

***Ключевые слова:*** *тюркизм, национально-освободительное движение, И.Гаспирали, Союз мусульман России.*

*Во второй половине 19 века развитие капитализма в Северном Азербайджане привело к возникновению и распространению общественно-политических течений, сыгравших важную роль в развитии*

*просвещения и национального движения. И. Гаспирали, основатель и идейный лидер тюркского движения, выдвинул идею единства тюркского мира и призвал тюркские народы объединиться вокруг лозунга «Единство в языке, мысли и действии».*

*10 апреля 1883 года И.Гаспирали с большим трудом удалось издать газету «Тарджуман». В своих произведениях, опубликованных в этой газете, он пытался объединить все тюркские народы вокруг общего и чистого языка. Он активно участвовал в расширении реформаторского движения под названием «Усули-джадид», т.е. «Новый метод» в образовании, сыграл важную роль в распространении этого движения на Туркестан, Северный Кавказ, Азербайджан, Китай и Индию, а также в создание организации «Молодые татары» в Крыму.*

*Направление тюркизма положительно сказалось на подъеме азербайджанского национально-освободительного движения. Под его влиянием лидеры азербайджанского национально-освободительного движения воспользовались идеями тюркского направления в формировании национального сознания и национального самосознания нашего народа, направлении национального движения в правильном направлении.*

## İSMAİL BEK QASPİRALİ AND THE NATIONAL LIBERATION MOVEMENT OF AZERBAIJAN

**Khagani Mammadov**

***Keywords:*** *Turkism, national liberation movement, I.Qaspirali, Union of Muslims of Russia*

*In the second half of the XIX century, the development of capitalism in Northern Azerbaijan led to the emergence and spread of socio-political movements that played an important role in the development of education and the national movement. I. Gaspirali, the founder and ideological leader of the Turkic movement, put forward the idea of the unity of the Turkic world and called on the Turkic peoples to unite around the slogan "Unity in language, thought and action."*

*On April 10, 1883, I. Gaspirali managed to publish the newspaper "Tarjuman" with great difficulty. In his works published in this newspaper, he tried to unite all Turkic peoples around a common and pure language. He actively participated in the expansion of the reform movement called "Usuli-Jadid", i.e. The "new method" in education played an important role in the spread of this movement to Turkestan, the North Caucasus, Azerbaijan, China*

*and India, as well as in the creation of the "Young Tatars" organization in Crimea.*

*The direction of Turkism had a positive impact on the rise of the Azerbaijani national liberation movement. Under his influence, the leaders of the Azerbaijani national liberation movement took advantage of the ideas of the Turkic direction in shaping the national consciousness and national identity of our people, guiding the national movement in the right direction.*

XIX əsrin son rübündə Azərbaycanda kapitalist münasibətlərinin sürətli inkişafı milli sənaye burjuaziyası və ziyalı zümrəsinin yetişməsi, xalqın milli-siyasi oyanma prosesinin dərinləşməsi, millətin meydana gəlməsi, maarifçilik və milli hərəkatın sonrakı yüksəlişində mühüm rol oynamış bir sıra ictimai-siyasi cərəyanların geniş yayılması ilə səciyyələnirdi.

XIX yüzilliyin sonlarında türk xalqlarının oyanışı güclənir, onlar arasında türkçülük ideyaları yaranır və yayılırdı. Rusiya imperiyasının müsəlman-türk xalqlarının oyanışında və qabaqcıl ideyalara yiyələnməsində böyük rol oynamış şəxsiyyətlərdən biri «XIX əsrin ən böyük islahatçısı», «türk dünyasını oyandıran» İsmayıl bəy Qaspralı (1851-1914) olmuşdur.

İsmayıl bəy Mustafa Ağa oğlu 1851-ci il mart ayının 8-də Baxçasaray yaxınlığında yerləşən Avçıköydə dünyaya gəlmişdir. Babası Qaspıra kəndindən olduğu üçün özünə Qaspıralı soyadını qəbul etmişdir. Ağməscid gimnaziyasında təhsil alan İsmayıl bəy Voronej şəhərindəki hərbi məktəbə daxil olmuş, sonra isə Moskva Hərbi Akademiyasında təhsilini davam etdirmişdir. İ. Qaspıralı Moskva Hərbi Akademiyasında təhsil alan zaman slavyanofil hərəkatının liderlərindən olan Katkov ilə dostluq münasibətləri yaratmış, onun sayəsində rus millətçiliyi ideyaları ilə, liberal və millətçi siyasi cərəyanlarla yaxından tanış olmuşdur. O, Moskvada təhsil aldığı illərdə Gertsen, Çernışevski, Belinski, Pisarev və s. qabaqcıl fikir adamlarının əsərlərini oxumuşdur. Lakin 1868-ci ildə başlayan Rusiya-Türkiyə müharibəsinə görə təhsilini yarımçıq qoymuşdur. O, 1868-ci ildə Baxçasarayda yerləşən Zincirli mədrəsəsində rus dili müəllimi təyin edilmişdir [4, s. 21 ].

İ. Qaspıralı 1872-ci ildə Parisə gedərək orada məşhur rus yazıçısı İ. Turgenevin yanında çalışmış, Fransada olduğu iki il müddətində fransiz dilini öyrənməklə yanaşı, Avropa mədəniyyəti ilə də yaxından tanış olmuşdur. 1874-cü ilin sonlarında İstanbula gələn İsmayıl bəy burada Osmanlı ləhcəsini mükəmməl öyrənmişdir. 1875-ci ilin qışında Baxçasaraya qayıdan İ. Qaspıralı 1878-ci ildə Baxçasaray Bələdiyyəsinin sədri seçilir və 4 il bu vəzifədə çalışır. O, 1881-ci ildə "Rusiya müsəlmanları" əsərini "Tavrida" qəzetində çap etdirir. 1882-ci ildə əslən Kazandan olan fabrik sahibi İsfəndiyar Akçoranın qızı Zöhrə xanımla və onun ailəsi ilə Baxçasarayda yaxından tanış olur, bu tanışlıq qarşılıqlı məhəbbətə çevrilir. İsmayıl bəy Kazan şəhərinə elçilyə getsə də,

İsfəndiyar bəy qızını ona verməyib onu evindən qovur. İsmayıl bəy həyatını təhlükəyə ataraq, gecə ikən Zöhrə xanımı qaçıraraq, Baxçasaraya gətirir. Zöhrə xanım İsmayıl bəyə yalnız həyat və səadət yoldaşı deyil, həm də əməl və məslək yoldaşı olur. Bu nigahdan İsmayıl bəyin Rifat, Mansur, Haydar, Şəfigə və Nigar adlı övladları dünyaya gəlmişdir [4, s. 28].

Azərbaycan xalqına xüsusi məhəbbət bəsləyən İ.Qaspıralı o dövrdə Krımda təhsil alan azərbaycanlı tələbələrə hərtərəfli qayğı göstərir, onların dərsdən sonra "Tərcüman" qəzetinin redaksiyasında çalışmalarına əlverişlı şərait yaradırdı. Novorossiysk Universitetinin tələbələrindən Nəsib bəy Yusifbəyli, Nəriman Nərimanov bə digərləri onun ətrafinda toplaşaraq türkçülük ideyalarının yayılmasında ona dəstək olurdular. Nəsib bəy Yusifbəyli İsmayıl bəyin redaksiyada onunla birlikdə işləyən qızı Şəfiqə xanımla ailə həyatı qurur və bu nigahdan onların Niyazi və Zöhrə adlı övladları dünyaya gəlir.

S.C.Kırımər «Qaspıralı İsmayıl bey» əsərində yazırdı: «Sönmüş kalpleri ne ile yandırmalı? Basireti kesmiş perdeleri ne ile kaldırmalı? Qaflet sahrasında serilib kalmış koca bir milleti ne ile ayağa turğuzmalı?» sualleri ilə başlayan İsmayıl beyin bütün hayatı bunların cavabını bulmak ve hayata keçirmekde keçdi. O, Türk tarihinden bu qaye ile bahs etti. Türk dil birliğini bu maksatla ireli sürdü. «Üsulu cedit» mekteblerini bu emelle düşündü, Medreselerin islahatını bu niyyetle ireli sürdü. Cemiyeti hayriyeleri bu düşünce ile kurdurdu» [4, s. 10].

O, 1883-cü il aprelin 10-da nəşrinə başladığı «Tərcüman» qəzetində dərc etdirdiyi əsərlərində bütün türk xalqlarını ortaq və təmiz bir dil ətrafında birləşdirmək istəyirdi. 1877-ci ildə ilk türk qəzeti olan "Əkinçi" bağlandıqdan sonra türk və rus dillərində nəşr edilən "Tərcüman" Rusiyanın türk-tatar xalqlarının taleyində mühüm rol oynadı. 1905-ci ilin sonlarından "Tərcümanı-əhvali-zaman" adı ilə nəşr edilən qəzetin saylarında "Əhvali-dövlət-hərəkati-millət", "Əxbari daxiliyyə", "Bizim qəzetlərdən" adlı bölümlərində müxtəlif türk boylarından və onların yaşadıqları şəhərlərin sosial, mədəni və siyasi həyatından bəhs edilirdi. Qəzetin 1905-ci il 14, 15 və 16-cı sayları Bakıda azərbaycanlılarla ermənilər arasında baş verən qanlı münaqişəyə həsr edilmişdi. İ.Qaspıralı həmin münaqişəni təxribat adlandıraraq, tezliklə bu münaqişəyə son qoyulmasını tələb edirdi [7, s. 141].

İsmayıl bəy Qaspıralı rus millətçiliyinin, panslavizm hərəkatının türk-müsəlman xalqları üçün böyük təhlükə yaratdığını dərk edirdi və imperiyanın müsəlman xalqları arasında milli şüurun formalaşması, əməkdaşlığı, birliyi ideyası ilə çıxış etməyə başlamışdı. O, rus dilində nəşr olunan "Rusiya müsəlmanları" əsərində yazırdı: «Asiya və Avropanın bir qismində sanki böyük bir millət-türk-tatar milləti var. Bu millət dağınıq, parça-parça, zəif, digər millətlərə nisbətən elm və mərifətcə, sərvət və mədəniyyətcə çox geridə qalmış-

dır. Belə davam edərsə, əbədi mübarizə qanununa uyğun olaraq məhv olacaq, başqa millətlər tərəfindən udulacaqdır...» [2, s. 36].

İsmayıl bəy Qaspiralı irəli sürdüyü «dildə, fikirdə əməldə birlik!» tezisini prinsip etibarilə həm «müsəlman birliyi» (panislamizm), həm də «türk-tatar müsəlman birliyi» (pantürkizm) təliminə tətbiq edirdi. Dil, din, adət və ənənəni millətin əsas prinsipləri kimi götürən İsmayıl bəy «cədidçilik» («Üsuli-cədid»), yəni «yeni üsul» adlanan islahat hərəkatının genişlənməsində, bu cərəyanın «qədimçilər» («Üsuli-qədim»), yəni «köhnə üsul» cərəyanına qarşı mübarizəsində fəal iştirak etmişdir. O, Krım və İdilboyu tatarları arasında, həmçinin Türküstana, Şimali Qafqaza, Azərbaycana, İrana, Çinə və Hindistana yayılan "Cədidçilik" hərəkatının genişlənməsində, Krımda "Gənc tatarlar" təşkilatının yaranmasında mühüm rol oynamışdır.

İ.Qaspiralı bütün Rusiya müsəlmanlarını birləşdirən ilk siyasi təşkilat-Rusiya Müsəlmanlar İttifaqının yaradılması zərurətini Ə.M.Topçubaşov, Ə.B.Ağayev, Ə.B.Hüseynzadə, Alim Əfəndi Maqsud və Bünyamin əfəndi Ədhəmlə birlikdə müzakirə etmişdir. 1905-ci il avqustun 15-də Nijni-Novqorodda keçirilən Rusiya Müsəlmanlarının birinci qurultayında İsmayıl bəy Qaspiralı qurultayn sədri, Ə.M.Topçubaşov, Rəşid İbrahimov və Əbülsüqut Axmatov isə onun müavinləri seçildilər. Qurultayda Rusiya müsəlmanlarının ilk siyasi partiyası olan "İttifaqi-Müslümin"- "Rusiya müsəlmanları İttifaqı" adlı partiya yaradıldı. Partiyanın 1906-cı il yanvar ayının 13-23-də Peterburqda keçirilən II qurultayında "İttifaq"ın 23 bənddən ibarət Nizamnaməsi və müvəqqəti Proqram layihəsi qəbul edilmişdir. "İttifaqi-Müslümin"partiyasının 1906-cı il avqustun 15-21-də yenə Nijni-Novqorodda keçirilən III qurultayında türklərin kökləri, ümumi türk dilinin qəbulu və onun vacibliyi ilə bağlı İsmayıl bəy Qaspiralı çox mühüm bir çıxış etmiş və onun bu barədəki çıxışı alqışlarla qarşılanmışdır. O demişdir ki, türklərin əsli və nəsli birdir. Məkan və zamanın ixtilafı nəticəsində şivə və adətlərimizdə fərqlilik yaranmışdır. Bu fərqlilik bir-birimizi başa düşməyəcək dərəcəyə çatmışdır. Bundan sonra məktəblərimizi vahid ədəbi dilimizə xidmət halına gətirmək lazımdır. Bunun nəticəsində tədricən müxtəlif şivə və ləhcələr birləşmiş olar [1, s. 279].

"Tərcüman" qəzetinin səhifələrində türk dünyasının tanınmış ziyalılarından Yusif Akçora, Fuad Körpülü, Ziya Göyalp, Əhməd Hamdi Maksudi, Firudin bəy Köçərli, Ələkbər bəy Rəfibəyli, Nəriman Nərimanov, Həsən Səbri Ayvazov və başqalarının imzalarına rast gəlmək olurdu. Onların yazdıqları məqalələrdə türk xalqlarının zəngin tarixi keçmişi və mədəniyyəti araşdırılır, dil məsələlərinə xüsusi diqqət yetirilirdi.

«Tərcüman» qəzetinin əsas məqsədi bütün müsəlman türklərinin başa düşəcəyi ortaq bir türkcə yaratmaq idi. İ.Qaspıralı bu barədə yazırdı":Bəzi düşüncələr vardır ki, bizə yasaqdır. Onları bizdən sonra gələcək nəsillərə

buraxalım. Biz mənəvi birliyi yapalım, dilləri birləşdirəlim, siyasi birliyi başqaları düşünsün" [7, s. 141].

Qəzet ən uzunmüddətli türk qəzeti olub bütün türk dünyasında çox sürətlə yayılırdı. Türk tarixçisi Nadir Dövlət öz əsərində təkcə İstanbulda "Tərcüman"ın beş min nüsxə tirajla satıldığını göstərirdi. Buna baxmayaraq, qəzetin hər nüsxəsini çap etmək üçün onun naşiri çox ciddi maddi sıxıntılarla üz-üzə qalmalı olurdu. Azərbaycan milli burjuaziyasının görkəmli nümayəndəsi, böyük messenat Hacı Zeynalabdin Tağıyevin maddi yardımları nəticəsində qəzeti çap etmək mümkün olurdu.

İ.Qaspıralı "Var olsun türk!" başlıqlı məqaləsində türk xalqlarının qədim tarixə və mədəniyyətə malik olduqlarını qeyd edərək yazırdı: " Biz türklərin qəbulu- islamdan müqəddəm milli yazılarımız vardı. Qəbulu islamdan sonra elm və ədəbiyyat meydanlarında bir çox hikmətlərimiz görüldü. Var idik, var olacayız... Əhlisalib ( səlib yürüşləri ) zamanında bütün Avropanın hücum və qəsdlərini dəf edə bildik, lisanımızı və adətlərimizi bu zamana qədər itirməyib, hər dürlü bəla və inqilabi-zamana qarşı mərdanə sinə gərib ruhumuzun qüdrətli olduğunu aləmə göstərdik. Buna görə də millətlər arasında özümüzü zəif və naçar zənn edib istiqbalımızı qaranlıq görməyəlim. Ən böyük millətlərin biri bizim türk millətidir" [7, s. 142].

Rusiya imperiyasında türkçülük hərəkatının tanınmış lideri olan, "Tərcüman" qəzetinin naçiri və redaktoru olan İsmayıl bəy Qaspıralı 1914-cü il sentyabr ayının 11-də vəfat etdi. Türk dünyası onun simasında Rusiyanın türk-müsəlman xalqlarının liderini, islahatçı fikir adamını, Azərbaycan milli hərəkat xadimləri isə sədaqətli bir dostu, maarifpərvər bir ictimai-siyasi xadimi itirdilər. Sentyabr ayının 13-də "Kaspi" qəzetində Ə. Topçubaşovun "İsamayıl bəy Qaspirinskinin xatirəsinə" adlı vida sözü dərc edildi. O, yazırdı: " Son yarım əsr ərzində adı yalnız Rusiyadakı müsəlmanlar arasında deyil, xaricdə də çox yaxşı tanınan bir şəxs daha sıralaramızda deyil. Yarım əsr ərzində sakit, lakin inamlı şəkildə müsəlmanlara bilik, tərəqqi və ictimai şüur göstərən insanı həmişəlik itirdik... O, həm ictimai və publisist fəaliyyətinin başlanğıcında, həm də müsəlman ictimai fikrinin hamı tərəfindən tanınmış lideri kimi şöhrətinin zirvəsində olanda üzərinə götürdüyü vəzifənin icrasından bir an da geri çəkilmirdi... İsmayıl bəy irticanın meydan suladığı səksəninci illərdə öz balaca "Tərcüman"ının səhifələrində mühafizəkar "Moskovskie vedomosti" qəzetində çap olunan gurultulu antimüsəlman məqalələrə dəyanətlə cavab verirdi. İsmayıl bəy Qaspirinski kimi şəxsin vəfatı müsəlmanlar üçün böyük itkidir. Onların kədəri başa düşüləndir. Lakin qoy İsmayıl bəyin müsəlman camaatın faydasına sərf edilən şərəfli həyat yolu hər kəsə təsəlli olsun. Müsəlmanların hər biri isə İsmayıl bəyin təzəməzarı önündə bu sözləri deyə bilər: "İsmayıl bəy, çox sağ ol ki, doğma xalqın maraqları keşiyində dayanaraq əlindən gələn hər işi gördün. Sən həqiqi insan kimi doğuldun, yaşadın və öldün" [3, s. 127-128].

Kazan tatarlarının milli azadlıq hərəkatının liderlərindən biri olan Yusif Akçora oğlu türkçülüyün inkişafında İsmayıl bəy Qaspıralının böyük rolu haqqında yazmışdır: "Heç kimsə İsmayıl bəy Qaspıralı qədər Türklük qayəsini vuzuh, səbat və israrla nəzəriyyə ilə təqib, fəaliyyət ilə tətbiqə səy etməmişdir" (4.) Tanınmış Türkiyə tarixçısı M. F. Körpülüzadə onun türkçülük hərəkatının yüksəlişində oynadığı mühüm rolu yüksək qiymətləndirərək yazırdı : " Bütün həyatını Türklüyün yüksəlişinə sərf edən İsmayıl bəy Türk xalqının əbədi şükranına layiqdir" (4 ).

İsmayıl bəy Qaspiralının Azərbaycan milli hərəkatının liderlərinə böyük təsiri olmuşdur. Azərbaycan milli mətbuatı onu «möhtərəm ustad», «fəxri-millət», «böyük İsmayıl bəy», «türklükü paydar, millətin namdar etməkə çalışmaqdan yorulmaq bilməyən...ustadi-əzəm» adlandırırdı. Onun təsiri ilə Azərbaycanda türkçülüyün əsas ideoloqu və təbliğçiləri Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə, M.E.Şeyxzadə, Ə.A.Müznib, C.Hacıbəyli, M.B.Məmmədzadə, Ə.Kamal bəy, S.İbrahimov və başqaları türkçülük ideya və siyasətini müdafiə və inkişaf etdirmişlər [6, s. 49-50].

XX yüzilliyin başlanğıcında Azərbaycan aydınlarının qarşısında duran əsas vəzifələrdən biri xalqın milli mənlik şüurunu oyandırmaq, onu milli hüquqları uğrunda mübarizəyə cəlb etməkdən ibarət idi. Onlar müxtəlif mətbuat orqanlarında dərc olunan yazılarında müsəlmanların siyasi hüquqsuzluğundan, ictimai- siyasi və mədəni-maarif sahəsində mövcud olan çətinliklərdən və s. problemlərdən bəhs edirdilər.Lakin «...millətin qabaqcılları olan və min dürlü müşkülat içərisində yetişə bilən ziyalılar və qələm sahibləri daima təqiblərə məruz qalır, şiddətli bir kontrol altında saxlanılırdı» [9, s.106]. Bu isə onların mübarizəsini çətinləşdirirdi.

Türk tarixçisi Tahir Sünbül Azərbaycanda milli azadlıq hərəkatının ilk dövrünü xarakterizə edərək yazırdı ki, gənc türklər hərəkatının tarixi altında qaçan Azərbaycan ziyalıları arasında ilk siyasi təşəbbüslər başlanmışdır. Bu ziyalılar tatar türklərindən daha millətçi, gənc türklərdən daha artıq türkçü olmuşlar. Onların arasında Ə.Ağaoğlu, Ə.Hüseynzadə, Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə, N.Nərimanov, N.Vəzirov, Ü. və C.Hacıbəyovlar kimi şəxsiyyətlərin olduğunu qeyd edən tədqiqatçı bu aydınları Azərbaycan türkləri arasında siyasi partiyaların yaranması tarixinin ilk fidanları kimi səciyyələndirirdi [8, s. 21].

Azərbaycan aydınları Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə, C.Hacıbəyov, C.Məmmədquluzadə, N.Nərimanov, S.M.Qənizadə, F.Köçərli, E.Sultanov, Ö.F.Nemanzadə, H.Cavid, Y.V.Çəmənzəminli və digər ziyalılar millətin oyanışı üçün əllərindən gələni əsirgəmirdilər.

**Ədəbiyyat:**


1. Boran Əziz. Cümhuriyyətə gedən yol: milli azadlıq hərəkatının aktuallığı, mənbələri, dövrləri və cərəyanları., Bakı, 2020, s.279.
2. Əmrahov M. XX əsrdə Azərbaycanda milli azadlıq hərəkatı. Bakı, 2019, s. 36.
3. Həsənli C. Tarixi şəxsiyyətin tarixi: Əlimərdan bəy Topçubaşov. Bakı, 2013, s. 227-228.
4. Kırıмer S.C. Qaspıralı İsmail bey, İstanbul,1996, s.10, 21, 28.
5. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. Bakı 1992. s. 26-27.
6. Məmmədov X.M. Azərbaycan xalqının milli istiqlal mübarizəsi ( XIX yüzilin sonları-XX əsrin əvvəlləri ). Bakı, 2005, s.49-50.
7. Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX əsrin sonu-XXəsrin əvvəlləri ). Düzəliş və əlavələr edilmiş ikinci nəşr. Bakı, 2022, s.141, 142.
8. Sünbül T. Azərbaycan dosyası. Ankara, 1990, s.21.
9. Zeynalov C. Müxtəsər Azərbaycan tarixi. Bakı, 1992, s.106.

# POSTMÜHARİBƏ DÖVRÜNDƏ SÜLH, ƏRAZİ BÜTÖVLÜYÜ VƏ SUVERENLİYİN BƏRPASI UĞRUNDA MÜBARİZƏ (2020-2023-CÜ ILLƏR)

**Zakir Kərimov**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
zakir.kerimov.1955@mail.ru

***Açar sözlər:*** *Qarabağ, ərazi bütövlüyü, Laçın sərhəd–gömrük məntəqəsi, lokal antiterror əməliyyatı, separatizm.*

*Göstərilən məqalədə Vətən müharibəsindən sonrakı dövrdə Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin bərpası uğrunda mübarizədən bəhs olunur. Qeyd olunur ki, bu prosesə əsas maneə 2020-ci il 10 noyabr tarixli bəyanatı imzalayan dövlətlər: Rusya, Ermənistan, həmçinin Qarabağdakı erməni separatçıları idi. Sonra bu prosesə böyük Qərb dövlətləri, xüsusən Fransa və bəzi beynəlxalq təşkilatlar da qoşuldu. Lakin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Xalqımız və Ordumuz qətiyyət göstərib ərazi bütövlüyümüzü və suvenliyimizi (2023-cü aprel, sentabr) bərpa etdi. Məqalədə həmçinin Azərbaycan diplomatiyasının beyəlxalq müstəvidə Ermənistanla apardığı sülh danışıqlarına da toxunulur. Məqalədən Azərbaycan tarixinin tədrisi prosesində istifadə etmək olar.*

## БОРЬБА ЗА МИР, ТЕРРИТОРИАЛЬНУЮ ЦЕЛОСТНОСТЬ И ВОССТАНОВЛЕНИЕ СУВЕРЕНИТЕТА В ПОСЛЕВОЕННЫЙ ПЕРИОД (2020-2023 ГГ.)

**Закир Керимов**

***Ключевые слова:*** *Карабах, территориальная целостность, Лачинский погранично-таможенный пост, местная антитеррористическая операция, сепаратизм.*

*В указанной статье говорится о борьбе за восстановление территориальной целостности и суверенитета Азербайджанской Республики в период после Отечественной войны. Отмечено, что основным препятствием этому процессу стали страны, подписавшие заявление от 10 ноября, 2020: Россия, Армения, а также армянские сепаратисты в Карабахе.Крупные страны Запада, особенно Франция, и*

*некоторые международные организации присоединились. Однако Президент Азербайджанской Республики Ильхам Алиев, наш народ и наша Армия проявили решимость и восстановили нашу территориальную целостность и суверенитет (апрель, сентябрь 2023 г.) Статья может быть использована в процессе преподавания истории Азербайджана.*

## STRUGGLE FOR PEACE, TERRITORIAL INTEGRITY AND RESTORATION OF SOVEREIGNTY IN THE POST-WAR PERIOD (2020-2023)

**Zakir Karimov**

***Key words:*** *Karabakh, territorial integrity, Lachin border-customs post, local anti-terrorist operation, separatism.*

*The indicated article talks about the struggle for the restoration of the territorial integrity and sovereignty of the Republic of Azerbaijan in the period after the Patriotic War. It is noted that the main obstacle to this process was the countries that signed the statement dated November 10, 2020: Russia, Armenia, as well as the Armenian separatists in Karabakh. major Western countries, especially France, and some international organizations also joined. However, the President of the Republic of Azerbaijan, Ilham Aliyev, our people and our Army showed determination and restored our territorial integrity and sovereignty (April, September 2023). The article can be used in the process of teaching the history of Azerbaijan.*

Vətən müharibəsindəki parlaq qələbədən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məğlub Ermənistana sülh bağlamaq üçün müraciət etdi. Ermənistanın Baş naziri N. Paşınyan əvvəlcə buna maraq göstərsə də, Ermənistanda və onun hüdudlarından kənardakı revanşistlərin-daşnakların, erməni kilsəsinin, Qarabağ klanının, erməni diasporunun və erməni terror təşkilatlarının qorxusundan Azərbaycanla vasitəçilərsiz, birbaşa sülh danışıqlarından yayınmağa başladı. Bu işdə bəzi Qərb dövlətləri və Rusiyanın təzyiqini də unutmaq olmaz. Rusiyanın yüksək rütbəli rəsmiləri, o cümlədən Xarici İşlər Naziri S. Lavrov ilk növbədə kommunikasiyaların açılması, iki dövlət arasında sərhədlərin delimitasiya və demarkasiyası məsələsəni önə çəkir, sülh müqaviləsinin bağlanmasını uzaq gələcəyə atırdılar. Belə bir müqavilənin bağlanmasının vaxtının çatmadığını bildirirdilər. 11yanvar 2021-ci ildə V. Putin, N. Paşinyan və İ. Əliyev arasında imzalanmış dörd maddədən ibarət bəyanatda Azərbaycanla Ermənistan arasında kommunikasiya xətlərininin açılmasını nəzərdə tutulurdu. Bəyanatın 4-cü bəndində deyilirdi ki, Dağlıq

Qarabağ konfilikti keçmişdə qalmışdır, indi gələcək haqqında düşünmək lazımdır. Bəyanatda sülh danışıqları barədə heç bir işarə yox idi [11].

Azərbaycan bölgəninin rifahının sülhdən keçdiyini anladığı üçün Rusiyanın moderatorluğu ilə Ermənistanla sülh danışıqları prosesinə başladı. Çünki Ermənistan birbaşa danışıqlar aparmağa cəsarət etmirdi. Rusiya isə sülh danışıqlarında öz mənfəətini güdür, Azərbaycanın ərazi bütövlüyünü parçalayan mövqe sərgiləyirdi. Belə ki, onların fikrincə, Azərbaycan Qarabağ ermənilərinə status verməli idi. Rus sülhməramlıları da ermənilərin təhlükəsizlini təmin etmək üçün uzun müddət Qarabağda qalmalı idi. Hətta, Azərbaycan buradakı rus sülhməramlı qüvvələrinə BMT tərəfindən mandat verilməsinə razı olmalı idi. Rusiyanın iki dövlət arasında danışqlarda ədalətli mövqe tutmaması, manipulyasiyalar etməsi, danışıqları qəsdən uzatması, sülh danışıqlarında təşəbbüsün Cənubi Qafqazda möhkəmlənməyə can atan Avropa İttifaqına və ABŞ-a keçməsi ilə nəticələndi. Rusiyanin danışıqlarda inhisarçı mövqeyi sarsıldı, danışıqların Vaşınqton və Brüssel platformaları yarandı. Vaşınqton platformasına görə Azərbaycan Qarabağ ermənilərinə status deyil, yalnız mədəni sahədə onlara hüquqlar verməlidir, humanitar sahədə yardım etməlidir, ermənilərin dinc həyata inteqrasiyası üçün tədbirlər görməlidir, onları orta səviyyəli Azəbaycan vətəndaşının həyat səviyyəsinə uyğun bir yaşam səsiyyəsi ilə təmin etməlidir və s.

Ermənistanın baş naziri N. Paşinyan özünü “sülh göyərçini” kimi nümayiş etdirsə də sülh danışıqlarına münasibətdə səmimi deyildi, o vaxt qazanıb əlverişli şərtlərlə sülh bağlamaq istəyirdi. Bu məqsədlə də sərhəddə tez-tez münaqişələr törədilirdi. 2022-ci il sentyabrın 12-14-də Sisiyan və Vardenis rayonlarından Azərbaycanın Kəlbəcər və Laçın rayonları atəşə tutuldu. Nəticədə böyük sərhəd münaqişəsi baş verdi. Azərbaycanın 80 nəfər hərbçisi şəhid oldu, 282 nəfər isə həlak oldu. Ermənistanın 204 nəfər hərbçisi məhv edildi, 3 mülk şəxs öldu. Ermənistan aldığı zərbələrdən sonra sülh danışıqları masası arxasına oturdu [8].

2022-ci il oktyabrın 6-da Praqada (Çexiya)Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Fransa Respublikasının Prezidenti Emmanuel Makronun,Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın Avropa Siyasi Birlyi sammiti çərçivəsində ikinci görüşü oldu [8].

Görüşdən sonra verilən birgə bəyanatda deyilirdi ki, Azərbaycan və Ermənistan BMT-nin nizamnaməsinə və bir-birinin ərazi bütövlüyünü tanıyan 1991-ci il Alma-Atı bəyannaməsinə sadiqdirlər. Beləliklə, Praqa görüşündə N.Paşınyan Dağlıq Qarabağ da daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıdı, görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev rəsmən bildirdi ki, ilin sonuna kimi Ermənistanla sülh sazişi imzalana bilər. Təəssüf

ki,Ermənistanın günahı ucbatından bu baş tutmadı [10]. Qeyd etmək lazımdır ki, Praqada R.T.Ərdoğanla N.Paşınyanın görüşü oldu.

31 oktyabr 2022-ci ildə Soçi şəhərində İ.Əliyev, V.Putin və N.Paşinyan arasında görüş oldu. Əvvəlcə V.Putin N.Paşinyanla, sonra isə İ.Əliyevlə təkbətək görüşdü,sonra üç dövlət başçıları arasıda birgə görüş oldu. Görüşdə bəzi məsələlərdə razılıq əldə olunmasa da tərəflər birgə bəyanat qəbul etdilər [11]. Maraqlıdır ki, görüşdə Qərb dövlətlərinin sevimlisi olan N.Paşinyan Qarabağdakı rus sülhməramlılarının mandatını qeyri-müəyyən müddətə -5, 20 ilə uzatmağı təklif etdi. Bu təklif rədd olundu. V.Putin bu gələcək danışıqlardan asılıdır, mandatın uzadılmasında üçtərəfli razılıq olmalıdır,-dedi. Bu razılıq imzalanacaq mümkün sülh sazişi, sərhədlərin demarkasiyası və delimitasiyasından asılı olacaq. Soçi görüşü İ.Əliyev və N.Paşınyanın təklifi ilə keçirimişdi.

2023-cü il mayın 1-4-də ABŞ-ın Virciniya ştatının Arlinqton şəhərində ABŞ-ın vasitəçilərilə danışıqlar keçirildi: Azərbaycan Xarici İşlər Naziri Ceyhun Bayramov və Ermənistanın Xarci İşlər Naziri Ararat Mirzoyan və onu müşayiət edən nümayəndə heyətinin üzvləri Sülh və Dövlətlətlərarası Münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsinin bəzi maddələri üzrə qarşılıqlı razılıq əldə etdilər,eyni zamanda bəzi əsas məsələlər üzrə mövqelərin fərqli olduğunu bildrdilər [1]. İyunda tərəflər arasında ABŞ-da yeni görüş oldu.

Fransa Prezidenti müdaxilə edənə qədər Brüssel sülh platforması Azərbaycan və Ermənistan arasında sülhü yarada biləcək ən konstruktiv vasitə idi. Avropa Şurasının Prezidenti Şarl Mişelin vastəçiliyi ilə Brüsseldə İ.Əliyevlə N.Paşinyan arasında bir sıra görüşlər (14 dekabr 2021-ci il, 6 aprel 2022-ci il, 22may 2022-ci il, 31 avqust 2022-ci il) keçrildi [14].

Paşnyan 14 may 2023-cü ildə sayca beşinci Brüssel görüşündə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını rəsmən açıqladı və Dağlıq Qarabağın Azərbaycana məxsus olmasını qəbul etdi. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyev Dağlıq Qarabağla Ermənistan arasında dəhliz olmasına razılıq verdi. Razılaşmaya görə Dağlıq Qarabağda erməni silahlıları tərksilah edilməli idı, bu prosesdə Ermənistan iştirak etməli idi [15].

Reykyavikdə (İslandiya) 2023-cü il mayın 17-də keçirilən Avropa Şurasının sammitində Paşinyan bildirdi ki, Şarl Mişelin vasitəçiliyı ilə keçirilən görüşdə (Brüssel), Ermənistan Azərbaycanın 86,6 kv.km-lik, Azərbycan da Ermənistanın 29,8 kv.km-lik ərazisini tanıyib [13].

Prezident İ.Əliyev Rusiya Prezidenti V.Putin tərəfindən Avrasiya İqtsadi Birliyinin 2023-cü il mayın 25-də Moskvada keçirilən toplantısına dəvət olunmuşdu. Ümumi toplantıdan sonra V.Putin, İ.Əliyev və N.Paşinyan arasında üçtərəfli görüş planlaşdırılmışdı. Toplantıda Əliyevlə Paşinyan arasında gərginlik yaşandı. Paşinyan Əliyevin Zəngəzurla bağlı söylədiyi koridor

(dəhliz) ifadəsinə kəskin reaksiya verdi. Paşinyanın məntiqindən belə çıxırdı ki, “Zəngəzur koridoru” ifadəsi Azərbaycanın Ermənistan ərazisinə iddiasını əks etdirir, “Laçın dəhlizi” isə Azərbayanın nəzarətində olmamalıdır. İ.Əliyev cavabında bildirdi ki, “Zəngəzur koridoru” nəqliyyat yoludur və özündə Ermənistana qarşı ərazi iddiasını əks etdirmir. Laçın yolunda sərhəd-keçid məntəqəsinin yaradılaması isə Azərbaycanın müstəsna hüququdur və 2020-ci il 10 noyabr tarixli bəyanata zidd deyildir. Yeri gəlmişkən,Paşinyan Moskvaya gələnədək Qarabağ daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanımışdı. Toplantıdan sonra keçirilən Putin, Əliyev, Paşınyan arasında üçtərəfli görüşü cəmi 20 dəqiqə çəkdi. Ümumi bəyanat qəbul olunmadı. Putin sadəcə onu dedi ki,üç ölkənin baş nazilərinin müavinləri görüşüb nəqliyyat yolunun açılmasının detallarını müəyyən edəcək.

2023-cü il iyunun 1-də Kişineu (Moldova) şəhərində Avropa Birliyinin növbəti sammiti keçirildi. Sammit çərçivəsində Azərbaycan Prezidenti İ.Əliyevlə Ermənistanın Baş naziri N.Paşinyan növbəti dəfə görüşdülər.Sonra isə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması və sülh sazişinin imzalanması üçün münbit şəraitin təmin edilməsi məqsədi ilə əvvəlcə üçtərəfli,sonar isə beştərəfli görüş keçirildi. Üçtərəfli görüşdə Avropa İttifaqının Prezidenti Şarl Mişel, Azəraycaın Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan da iştirak etdi. Beştərəfli görüşdə bu prosesə Fransa Prezidenti Emmanuel Makron və Almaniya kansleri Olaf Şolts da qatıldı. Görüş zamanı danışıqların növbəti raundunun iyulun 21-də Brüsseldə təşkil olunması barədə razılıq əldə olundu. O, vaxtadək isə Azərbaycan və Ermənistan Xarici İşlər Nazirləri başçılarının növbəti görüşünün keçiriləcəyi bildirildi. Görüşün nəticələrinə gəldikdə isə onu müsbət qiymətləndirmək olar. İlk növbədə sərhədlərin müəyyən edilməsi üçün 1991-ci ilin Alma-Ata sənədi əsas götürüldü. Praqada da eyni addım atılmışdır. Bu o,mənanı verir ki, Azərbaycan və Ermənistan Sovet İttifaqı tərkibində olarkən hansı sərhədlərə malik idilərsə,müstəqil olduqda da eyni vəziyyət qalmalı idi. Həmin vaxt Qarabağ Azərbaycan ərazisi idi. 1991-ci ilin Alma-Ata sənədi də bunu nəzərdə tuturdu. Moskva görüşündə olduğu kimi Kişineu görüşündə də tərəflər arasda sülh bağlanmadı, lakin iki ölkənin bir-birinin ərazi bütövlüyünün tanınması ilə bağlı məsələ müzakirə olundu və müsbət yanaşma əldə olundu [14].

Azərbaycan Respublikasının Prezidenti İ.Əiyev 2023-cü il oktayabrın 5-də Qranadada (İspaniya) Avropa Siyasi Birliyi sammiti çərçivəsində keçirləcək beştərəfli (Azərbaycan-Ermənistan-Fransa-Almaniya-Avropa İttifaqı) görüşdən imtina etdi *(2) Bu bir çox səbəblərlə bağlı idi:1-ci,Azərbaycanın istəyinin əleyhinə olaraq Almaniya və Fransa Türkiyənin bu görüşdə iştirarakına qarşı çıxırdı . Yəni Azərbaycan görüşün beşlik deyil,Türkiyənin iştirakı ilə altılıq formatda keçirilməsini istəyirdi.Çünki görüşdə iştirak edən dörd siyasi mərkəz antiAzərbaycan mövqedə dayanır,xristian təəssübkeşliyini nümayiş etdirib*

*ölkəmizə birgə təzyiq etmək* istəyirdilər. Azərbaycan üçün ATƏT-in Minsk qrupunun həmsədlər təsisatının [12] üzvü olan xristian dövlətlərin (ABŞ, Fransa, Rusiya) 25 il ərzində münaqişəni həll etməməsi, ermənipərəst mövqe tutması kimi acı təcrübəsi var idi. O, zaman da Azərbaycanın Türkiyənin Minsk qrupunun həmsədrlərindn biri olması təklifi ilə çıxış etmışdi, lakin Rusiya və Fransa razılaşmamışdı. 2-ci, görüşdən bir gün öncə Fransanın Xarici İşlər Naziri Ketrin Kolonna İrəvanda oldu və Fransanın Ermənistanla hərbi müqavilə bağlayacağını, onun yanında olduğunu, ona lazım olan silahları verəcəyini bildirdi. Fransanın müdafə naziri də belə mövqe tutdu. Bu açıq-aşkar Ermənistanı silahlandırmaq və oradakı revanşistləri yeni müharibəyə həvəsləndirmək cəhdi idi. Həm də bir vasitəçi kimi bitərəf qismində çıxış etməli olan Fransanın tərəf tutduğunu göstərdi və haqlı olaraq Azərbaycanın görüşdən imtinasına səbəb oldu; 3-cü, əvvəllər Brüssel görüşlərində Azərbaycanla Ermənistan arasında vasitəçilik edən, öz bitərəfliyini qoruyan Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel də Azərbaycanı Qarabağda erməni separatçılara qarşı apardığı lokal antiterror əməliyyata görə haqsız olaraq işğalçılıqda, etnik təmzləmədə suçladı, 4-cü,bu görüşdə Fransa, Almaiya, Avropa İttifaqı Azərbycana olduqca ağır şərtləri, o cümlədən Dağlıq Qarabağdan köçmüş erməni əhalinin oraya qeyd-şərtsiz qayıtmasına razılıq verməyə məcbur etmək istəyirdilər. Bu isə qəbul edilməz idi,çünki onların bir hissəsi Qarabağa köçüb yaşayan Rusiyanın, Ermənistanın, Suriya və Livanin vətəndaşları idi.

Görüş iştirakçıları - Fransa prezidenti E.Makron, Almaniya Prezident O.Şolts, Avropa İttifaqı Şurasının Prezidenti Ş.Mişel,Ermənistanın baş naziri N.Paşınya birgə bəyanat qəbul etdilər. Lakin əhəmiyyətsiz bir bəyanat idi, çünki onu Azərbaycan tərəfi imzalamamışdır.

"Politika"(İtaliya) nəşrinin qeyd erdiyi kimi, 50-yə yaxın Avropa dövlətinin, onlarla köməkçinin və 700-yə yaxın jurnalistin iştirak etdiyi Qranada sammitində Qarabağdakı vəziyyət, Balkan ölkələrindəki fikir ayrılıqları, Avropa təhlükəsizlik sistemindəki çatışmazlıqlar kimi cari məsələlərin həllində heç bir razılaşma əldə edilməmişdir. Görüşün uğursuz bitməsinin səbəblərindən biri orada əsas aktorların, o cümlədən Türkiyə və Azərbaycanın iştirak etməməsi olmuşdur.

Ermənistan yalnız xain qonşu deyil, həm də barbardır. Bu barbarlar işğal etdiyi ərazilərimizdə bütün mədəni və tarixi irsimizi məhv etmiş,təbii sərvətlərimizi talan edərək ekoloji cinayət törətmişdilər. 44 günlük müharibədəki məğlubiyyətdən sonra da yeraltı və yerüstü sərvətimizi talan etmək siyasətini davam etdirirdilər.

Hesablamalara görə Qarabağın dağlıq hissəsində, ermənilərin nəzarətində qalan ərazilərdə 112 ton qızıl ehtiyatı vardır. Onun 99%-ni ermənilərlə əlbir olan rus şirkətləri çıxarıb dünyaya satırdı. Bu şirkətlərin ən böyüyü Rusiyanın

Geo Pro Mininq Gold şirkəti idi. Dağlıq Qarabağda faydalı qazıntıların qanunsuz istismarı ilə alman və fransız şirkətləri də məşğul idi.

Bu ölkə ictımaiyyəti və hökumətimizin kəskin etirazına səbəb oldu.Azərbaycan Respublikası höküməti onların cinayətinin qarşısını almaq üçün ciddi tədbirlər gördü.

Məsələ onda idi ki, 2020-ci ildən 2023-cü ilin əvvəlinədək, Azərbaycanın Laçın rayonunda sərhədə nəzarət etmədiyi bir zamanda Qarabağa, rus sülh məramlılarının nəzarət etdiyi erməni yaşayış məntəqələrinə sayı milyonlarla ölçülən nəhəng döyüş silah-sursatları daşınıb. Minalar gətirilib, ərazi əlavə olaraq minalanıb. Bütün bunların hamısı ona gətirib çıxarıb ki, azərbaycanlılar öz torpaqlarında həlak olmağa davam ediblər. II Qarabağ müharibəsi başa çatandan sonra Azərbaycanın 315 nəfər hərbi və mülki vətəndaşlarımız həlak olmuş və ağır şəkildə yaralanmışlar. Təəssüf ki, onların sayı hər il artır [5]. 2023-cü il 6 noyabr tarixli məlumata görə onların sayı 338 nəfərə çatmışdır.

2022-ci il dekabrın 3-dən etibarən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi,Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmək Məsələləri Dövlət Xidməti və AzerQold "Qapalı Səhmdar Cəmiyyətinin" mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi respublikamızın Qarabağ bölgəsində-Qızılbulaq qızıl və Dəmirli mis-molibden yatağlarının qanunsuz istismarı,bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı sülhməramlı kontingentin komandanlığı ilə (komandan general A.Volkov) danışıqlar apardılar. Lakin faydası olmadı,erməni separatistləri Azərbaycanın yuxarıda göstərilən təşkilatların nümayəndələrini mədənlərin ərazisinə monitorinq aparmaq üçün buraxmadılar [9].

Buna etiraz əlaməti olaraq Azərbaycanın qeyri-hökumət təşkilatlarının və ekologiya fəallarının (ekofəalların)12 dekabr 2022-ci ildə Laçın-Xankəndi yolunda fasiləsiz etiraz çıxışı başlandı. Etirazçılar rus sülhməramlılarınnın postu yaxınlığında toplanmışdılar, sülhməramlıların komandanı A.Volkovu görüşə çağırdılar. O,isə saymamazlıq göstərib görüşə gəlmədi.

Etiazçılar Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılması ilə bağlı Azərbaycan, rus və ingilis dillərində mütəmadi olaraq plakatlar qaldırır, "Azərbaycan milləti qoruyacaq sərvəti!", "Azərbaycan oyaqdır, sərvətinə dayaqdır!", "Azərbaycan vahiddir, sərvətinə sahibdir!", "Ekocinayətə son" kimi şüarlar səsləndirirdilər.

Eko aksiyanın keçirildiyi ərazi humanitar məqsədlərlə istifadə olunan avtomobillərin keçidi üçün tam açıq idi [7]. Ermənistandan Xankəndinə və əks istiqamətdə nəqliyyat vasitələri sərbəst hərəkət edirdi.

Ekofəallar Azərbaycan Dövlət sərhəd Xidmətinin bölmələri tərəfindən öz ərazimizdə, Ermənistanla sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət buraxılış məntəqəsinin qurulmasını və bununla da yolda hərəkət üzrə şəffaflığı, qanunun aliliyi və hərəkətin təhlükəsizliyini təmin edilməsini,

tələblərinə qismən nail olduqlarını eləcə də dövlət nümayəndələri tərəfindən dəfələrlə edilən müraciətləri nəzərə alaraq 138 gün fasiləsiz davam edən aksiyanı dayandırdılar. Lakin ekofəallar bildirdilər ki, Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasına, ekoloji və digər fəsadlarla bağlı monitorinqin keçirilməsinin təmin olunmasına dair sülhməramlı kontingentin komandanlığına tələbləri qüvvədə qalır. Onlar bu tələbləri yerinə yetirilməyəcəyi halda aksiyanı yenidən bərpa edəcəklərini bildirirlər.

Ekofəalların etiraz aksiyası aprelin 28 saat 18:00-dan etibarən dayandırıldı və iştirakçılar mərhələli şəkildə ərazini tərk etdilər. Ərazini tərk etməmişdən öncə orada təmizlik aparıb ağac əkdilər.

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətindən verilən məlumatda deyilir ki, 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatına zidd olaraq Ermənistan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə,silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsəd ilə və Ermənistan tərəfindən aprelin 22-də birtərəfli qaydada Azərbaycan ilə sərhəddə Laçın-Xankəndi yolunun girişində nəzarət buraxılış məntəqəsinin qurulmasına adekvat olaraq aprelin 23-də saat 12:00-da Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd buraxılış məntəqəsi qurulmuşdur [4].

Deməli,Azərbaycan "yumşaq güc", yəni ekofəalların etiraz çıxışı ilə məqsədinə çatdı, ərazi bütövlüyümüzün bərpasını başa çatdırdı.

Lakin Qərb dövlətləri və beynəlxalq təşkilatlarının himayə etdiyi Ermənistan sülh, dinc qonşuluq yolunda addımlar atmaq əvəzinə təxribatla məşğul olurdu. Bu da 2023-ci ilin sentyabrında Azərbaycanı Qarabağ bölgəsində lokal antiterror əməliyyatı aparmağa məcbur etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu əməliyyatın konkret səbəblərini açıqlamışdır. O, göstərmişdir ki, 2022-ci ilin oktyabrında Ermənistan və Azərbaycan rəhbərlərinin beynəlxalq tərəfdarlarla görüşündə (Praqa) qəbul edilmiş Bəyanatda hər iki ölkənin bir-birinin ərazi bütövlüyünü təsdiqləyən 1991-ci il Alma-Ata bəyannaməsinin tərəfdarı olduqlarını bəyan etdilər. Biz bunu Ermənistan tərəfidən atımış mühüm addım hesab etdik. Azəbaycana qarşı ərazi iddialarından nəhayət, əl çəkəcəyini zənn etdik. Lakin təəssüf ki, ümidlərimiz doğrulmadı. Azərbaycanın ərazi bütövüyünü sözdə və kağız üzərində tanıyan Ermənistan rəhbərliyi əməldə hər şeyin əksini edirdi. Təxribat hərəkətlərinə son qoymaqla bağlı Azərbaycanın etdiyi çoxsaylı çağırışlar təəssüf ki, bütün ciddiliyi ilə qəbul edilmədi. Vəziyyət daha da gərginləşdi. Çünki 2023-cü il il sentyabrın 2-də Ermənistanın baş naziri Xankəndinə, separatçılara qondarma "Dağlıq Qarabağ Respublikası" yaranmasının ildönümü münasibəti ilə bağlı təbrik göndərdi. Bu qırmızı xətti keçmək demək idi, və təbii ki, Azərbaycan buna dözə bilməzdi. Bu bizim ərazimizə qarşı açıq iddia

irəli sürmək demək idi. 2023-cü il sentyabrin 9-da qondarma "Dağlıq Qarabağın" qondarma "seçki" keçirdilər, bu isə mövcud reallıqların tam şəkildə inkar edilməsi demək idi və bu  sentyabrın 19-da Azərbycana antiterror tədbirləri keçirmək və öz suverenliyni tam şəkildə bərpa etmək üçün başqa seçim yolu qoymadı. 23 saat 44 dəqiqə davam edən əməliyyat nəticəsində Ermənistanın Qarabağdakı 10-15 min nəfərlik hərbi kontingenti tam  tərksilah edildi və ərazimiz üzərində tam nəzarət, suverenliyimiz bərpa olundu. Nəticədə separizmə son qoyuldu, müharibə təhlükəsi aradan qaxdı. Bu  hərbi əməliyyat o qədər dəqiq icra olundu ki, heç bir insan, heç bir mülki obyekt ziyan görmədi. Hərbi əməliyyat zamanı və ondan sonra Azərbaycan tərəfi  radio və digər rabitə vasitələri ilə dinc erməni əhalisinə təşvişə düşməməyi və yaşayış yerini tərk etməməyi, öz evlərində qalmağı  tövsiyə etdi. Prezident onların Azərbaycanın başqa  xalqlarla eyni hüquqlarına malik olduqlarını bildirdi, təhlükəsizliyinə təminat verdi. Qarabağın erməni əhalisinin reinteqrasiya planı açıq şəkildə dərc olundu, bu plan internetdə də yerləşdirildi.

Lakin ermənilər öz separatçı "başçı"larının təzyiqi il köçüb getdilər. Həm də bunu qoxdudları üçün etdilər. Çünki mülki eməni əhalisinin çoxu Qarabağdakı azəbaycanlılara qarşı cinayətlərdə iştirak etmişdilər. Ermənilərin köçüb getməsi bəzi siyasi güclərə Azərbaycanı etnik təmizləmədə suçlamaq üçün lazım idi.

Bəzi ekspertlər mötəbər mənbələrə istinad edərək  Azərbaycanın sentyabrın ortalarında  ildırımsürəti ilə lokal antiterror əməliyyatı keçirməsinin əsas səbəbi kimi Ermənistandakı Fransa jandarm dəstəsinin Xankəndini ermənilərin təhlükəsizliyini təmin etmək bəhanəsi ilə işğal edəcəyini amili ilə bağlayırlar Mümkün idi ki, bu əməliyyatda o zaman Ermənistanda erməni hərbçilərinə təlim keçən ABŞ hərbi dəstəsi də iştirak etsin.Ordumuz buna görə təcili lokal antiterror əməliyyaını keçirərək bu planı pozdu.

Xocavənd rayonunda Azərbaycanın  iki şosse yolu işçisinin minaya düşərək həlak olması və hadisə yerinə gedən Azərbaycan Daxili İşlər Nazirliyinin 7 nəfər polis  işçilərinin, cəmi 9 nəfərin həlak olması Azərbaycan Müdafiə Nazirliyinin Antiterror əməliyyatına başlamasına təkan verdi. Bundan öncə dəfələrlə erməni hərbiçiləri Ağdərənin, Ağdamın  yaşatış məntəqələrini atəşə tutur, radio dalğalar buraxaraq Qarabağ üzərindən uçan təyyarələrə maneəçilik törədirdilər.

Azərbaycan komandanlığının silahı yerə qoyub təslim olmaq təklifini ermənilər rədd etdilər. 19 sentyabr 2023-cü ildə,səhər saatlarında Qarabağda Azərbaycan silahlı qüvvələri və erməni silahlı birləşmələri arasında silahlı toqquşma başlandı. Erməni silahlı qüvvələrini 10 noyabr üçtərəfli  bəyanata görə Qarabağdan çıxarılmalı olan Ermənistan hərbiçiləri və Dağlıq Qarabağın özünümüdafiə qüvvələri adlanan seperatçıları təmsil edirdi.

Hərbi əməliyyat Azərbaycan silahlı qüvvələrinin Rusiya sülhməramlı kontingentinin 10 noyabr 2020-ci il tarixli bəyanatına əsasən yerləşdirildiyi

ərazilərdə aparılırdı. Çünki ermənilər rus sülhməramlılarının arxasında gizlənərək təxribat törədirdilər.

Rusiya sülhməramlıları Qarabağdan erməniləri Ermənistana təxliyyə edir. Azərbaycan bu əməliyyata Konstitusiya quruluşunu bərpa etmək məqsədilə başladığını bildirmişdir. Ermənistan isə bunu Azərbaycanın ermənilərə qarşı təcavüzü adlandırırdı.

Əməliyyat nəticəsində Azərbaycan ərazisində Qondarma Dağlıq Qarabağ Respublikasının fəaliyyətinə son qoyuldu.

Azərbaycanın 192 hərbi qulluqçusu şəhid oldu,511 nəfər hərbiçi isə yaralandı.Ermənistan dəqiq rəqəm açıqlamadı. Qondarma rejimin ombudsmanı Geğam Stepanyan 200-dən çox erməni hərbçisinin öldüyünü bildirmişdir.

Avropanın siyasi təşkilatları və bəzi siyasi xadimləri Azəbaycana etiraz etdilər.

Avropa Parlamentinin sədri Roberta Mezzola bildirdi: "Mən Ermənistanın Baş naziri N.Paşinyanı plenar iclasda çıxış etməyə dəvət etdim". Avropa Parlamenti (2023-cü il noyabr) ermənilərin qondarma yalanlarına dəstək verən qətnamə qəbul edib. Maraqlıdır ki, faktları yoxlamadan. Bədnam qətnamədə Avropa Birliyi Azərbaycana qarşı sanksiya tətbiq etməyə çağrılır.

Seperatizmi dəstəkləyən Avropa Parlamenti vaxtı ilə Azərbaycan ərazisini işğal etmiş,xalqımızı soyqrıma məruz qoymuş, hər cür cinayətlərə əl atmış Ermənistana "özünümüdafiə" üçün tribuna verir.

Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Qarabağ bölgəsində qeyri-qanuni yerləşmiş erməni silahlı qüvvələrinin təxribatlarına qarşı cavab tədbirləri haqqında bəyanat yaydı.Bəyanatda deyilirdi ki:sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələri bir sıra genişmiqyaslı hərbi təxribatlara və terror hücumlarına əl atıblar. Əvvəlcədən quraşdırılmış minaların partlaması nəticəsində və minatanlardan atəşə tutulması nəticəsində mülki şəxslər, hərbi qulluqçular həlak olmuş və yaralanmışlar. Erməni silahlı qüvvələri bu kimi təxribatları davam etdirmək məqsədilə döyüş mövqelərini gücləndirməsi və bölmələrini döyüş hazırlığı səviyyəsinə gətirməsi Ordumuzun bölmələri tərəfindən təsbit edilmişdir [1].

Qarabağ iqtisadi rayonunda erməni silahlı qüvvələri tərəfindən gözlənilən genişmiqyaslı təxribatların qarşısının alınması, habelə üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərkisilah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhali, o cümlədən ərazidə aparılan bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror başlanıb. Ermənistan silahlı qüvvələrinin atəş nöqtələri, döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılır.

Tədbirlərin əsas hədəfi qanunsuz hərbi birləşmələr və hərbi instrukturdur. Azərbaycan tərəfi mülki əhalini hədəf almır. Bu xüsusda,erməni mülki əhalinin hərbi hədəflərdən uzaq olunması vacibdir [2 ]. Bəyanatda deyilir ki,bölgədə sülh və sabitliyə nail olmağın yeganə yolu erməni silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindən qeyd-şərtsiz və tamamilə çıxarılması və qondarma rejimin buraxılmasıdır.

Ölkəmizdəki siyasi partiyalar Azərbaycanın keçirdiyi lokal antiterror tədbirlərini dəstəkləyən bəyanat qəbul etdilər [2].

Azərbaycan Xarici İşlər Nazirliyi Avropa İttifaqının xarici işlər və təhlükəsizlik üzrə xüsusi nümayəndəsi Cozef Borelin ermənipərəst bəyanatına cavab verdi.2023-cü ilin sentyabrın 19-da ABŞ Dövlət katibi Entoni Blinken İ.Əliyevə zəng etdi,hərbi əməliyyatı dayandırmağı onun nəzərinə çatdırdı [2].

2023-cü il sentyabrın 20-də Prezident İ.Əliyev xalqa müraciət etdi [2]. Müraciətdə deyilirdi ki, dünən səhər (19 sentyabr) erməni silahlı birləşmələrinin törətdikləri terror aktı nəticəsində 6 Azərbaycan vətəndaşı, o cümlədən2-si mülki şəxs olmaqla mina terrorunun qurbanı olmuşdur. Birinci dəfə deyil ki,bizə qarşı Ermənistan terror aktı törədir. İkinci Qarabağ müharibəsi başa çatandan sonra bu günədək 300-dən çox vətəndaşımız mina terrorunun qurbanı olmuşdur, ya da ki,ağır yaralanmışdır. Dünən təxminən saat 13:00-da antiterror tədbirlərinin başlanması və uğurla başa çatdırılması nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir.

Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq 2023-cü il sentyabrın 20-də saat 13:00-da aşağıdakı şərtlər altında lokal xarakterli antiterror tədbirlərini dayandırması barədə razılıq əldə olundu.

1. Azərbaycan Respublikasının Qarabağ bölgəsindəki Ermənistan hərbi hissələri, qeyr-qanuni erməni silahlı dəstələri silahı yerə qoyur, döyüş mövqelərindən və hərbi postlardan çıxır və tam şəkildə tərk-silah olunurlar. Ermənistan silahlı qüvvələrinin birləşmələri Azərbaycan ərazilərini tərk edir,qeyri-qanuni erməni silahlı dəstələri buraxılır.

2. Paralel şəkildə bütün silah-sursat və ağır texnika təhvil verilir.

3. Yuxarıda qeyd olunan proseslərin Rusiya sülhməramlı kontingenti ilə əlaqələndirilmiş şəkildə həyata keçirilməsi təmin edilir. Lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıqlar əldə olunub [2].

2023-cü il noyabrın 8-də Xankəndi şəhərində tariximizin möhtəşəm hadisələrindən biri baş verdi. 1919-cu ildən sonra bu şəhərdə Ordumuzun ikinci dəfə hərbi paradı keçirildi. Bu hərbi parad Vətən müharibəsində əldə olunmuş Zəfərin üçüncü ilinə həsr olunmuşdur. Paradı qəbul edən Prezident və Ali Baş Komandan İ.Əliev çıxışında bildirmişdir ki, bir dəfə demişdim ki, Şuşasız bizim işimiz yarımçıq qalacaq. Üç il bundan əvvəl mən əmr verərək Ordumuzun bu məntəqələrə hücumunu dayandırdım.Tarix göstərdi ki, biz

düzgün addım atmışıq. Ancaq o gündən bu günə qədər-sentyabradək, biz hər gün işləyirdik, çalışırdıq ki, Azərbaycanın suverenliyi tam şəkildə bərpa edilsin. Oktyabrin 15-də Ağdərədə Əsgəranda, Xocavənddə, Xocalıda, Xankəndinə Azərbaycan bayrağını qaldırdım. Həm mənim üçün, həm Sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də dünya azərbaycanlıları üçün bundan böyük xoşbəxtlik ola bilməz. Bunula da Qarabağ üzərində Azərbaycan dövlətinin suverenliyi tam bərpa olundu [6].

Beləliklə, Azərbaycan 2020-2023-cü illərdə13 min 500 kvadrat kilometplik ərazisini işğaldan azad etdi. Bu ərazinin 5 min kvadrat kilometlik hissəsi 44 günlük müharibədə döyüşlə, 5 min kvadrat kilometri 10 noyabr üçtərəfli bəyanata əsasən döyüş olmadan, 3min 500min kvadrat kilometrlik ərazi 2023-cü il 19-20 sentyabr tarixli əməliyyata əsasən qaytarıldı. Bu son əsrlərdə xalqımızın qazandığı böyük tarixi nailiyyətdir.

## Ədəbiyyat:

1. Azərbaycan qəzeti,№92 (9259),5 may 2023-cü il.
2. Azərbaycan qəzeti, №204 (9371),21 sentyabr 2023-cü il.
3. Azərbaycan qəzeti; №203 (9370).20 sentyabr 2023-cü il.
4. Azərbaycan qəzeti, №84 (9251) 26 aprel 2023-cü il.
5. Azərbaycan qəzeti, №222 (9389),12 oktyabr 2023-cü il.
6. Respublika qəzeti, №246(7716),9 noyabr 2023-cü il.
7. https://aztv.az>news>ekofeallar-te...
8. https://az.m.wiki pedia/orq>viki
9. https://axar.az>news >gündem
10. https://www66c. com>azeri>reqi...
11. https://president.az>articles>view
12. https ://report.az>xarici siyasət
13. https: // report.az>Qarabağ
14. https://respublika-news.az >news
15. https://a-r.az >article

**MÜNDƏRİCAT**

**Aydın Məmmədov.** XX ƏSRİN İKİNCİ YARISI VƏTƏN TARİXŞÜNASLIĞINDA İBTİDAİ CƏMİYYƏTDƏ ƏHALİ PROBLEMLƏRİNƏ DAİR TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ....3-14
**Ceyhun Hüseynov.**ÇARİZMİN AQRAR SİYASƏTİNİN ƏSAS MAHİYYƏTİ VƏ MƏQSƏDLƏRİ HAQQINDA......................................15-23
**Eldar Hacıyev.** 1918-Cİ İL MART-İYUL AYLARINDA ŞAMAXIDA MÜSƏLMANLARA QARŞI TÖRƏDİLƏN QIRĞINLARDA MOLOKAN DƏSTƏLƏRİNİN İŞTİRAKI....................................................................24-32
**Eldar Muxtarlı, Firuzə Qurbanova, Xəlil Bayramov.** QARABAĞIN MƏDƏNİYYƏT TARİXİ........................................................................33-39
**Gülnarə Sultanova.** AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN TƏHSİL SİYASƏTİ VƏ MİLLİ İDEOLOGİYA KONSEPSİYASI...........40-49
**Naibə Əhmədova.** AZƏRBAYCAN TARİX ELMİ RUSİYA TARİXŞÜNASLIĞINDA (XIX ƏSRİN İKİNCİ YARISI– XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ)......................................................................50-61
**Nəbi Əsədov.** QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA EKOSİD NƏTİCƏLƏRİNİN ARADAN QALDIRILMASI VƏ EKOLOJİ TARAZLIĞIN BƏRPASI.........................................................................62-69
**Rafail Əhmədli.** ŞEYX CƏMALƏDDİN ƏFQANİNİN SOSİAL – SİYASİ DÜŞÜNCƏLƏRİ.......................................................70-78
**Svetlana Məmmədova.** TARİXİMİZİN UNUDULMAZ YARASI-31 MART............................................................................79-85
**Tamam Cəfərova.** AZƏRBAYCAN RESPUBLİKASINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN QADIN PROBLEMLƏRİ HAQQINDA İCTİMAİ RƏYİN FORMALAŞMASINDA ROLU...........86-101
**Xəqani Məmmədov.** İ.QASPİRALI VƏ AZƏRBAYCAN MİLLİ AZADLIQ HƏRƏKATI........................................................................102-109
**Zakir Kərimov.** POSTMÜHARİBƏ DÖVRÜNDƏ SÜLH, ƏRAZİ BÜTÖVLÜYÜ VƏ SUVERENLİYİN BƏRPASI UĞRUNDA MÜBARİZƏ (2020-2023-CÜ ILLƏR)....................................................110-121

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – jhhsadpu@mail.ru göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstərimәlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2024, 1 (42)*

***Çapa imzalanmış 29.03.2024-cü il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 8***
***Sifariş 198, sayı 100***

***ADPU-nəşriyyatı***
***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Telefon: (+994 12)493 05 85***
***E-mail:*** *jhhsadpu@mail.ru*
***www.adpu.edu.az***